**CAHANGİR DALĞIN**

# DALĞINA TOR QURAN DÜNYA

**Bakı – 2021**

Azərbaycan Aşıqlar Birliyinin qərarı ilə çap olunur

**Toplayıb tərtib edən:** Zümrüd İbrahim qızı,
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Elmi məsləhətçi:** Məhərrəm Qasımlı
*filologiya elmləri doktoru,*
*professor, Əməkdar elm xadimi*

**Redaktor:** Altay Məmmədov
*filologiya üzrə fəlsəfə doktoru*

**Korrektor:** Vüsal Abiyev

**Cahangir Dalğın. Dalğına tor quran dünya**. – Bakı: Apostrof, 2021, - 328 səh.

***Bu kitabı ustad sənətkar Cahangir Dalğının***
***əziz xatirəsinə ithaf edirəm***

Kitabda Zaqatalanın Bəhmədlili kəndindən olan Cahangir Dalğının şeirləri toplanıb.

© Zümrüd İbrahim qızı, 2021

# ELDƏN GƏLƏN EL SƏNƏTKARI HAQQINDA BİR NEÇƏ SÖZ!

Məkan mehman eləməsə, dərdi hara aparım,
Mümkündür ki, ancaq qala xalqa dastanım mənim!

İnsan ömrü eniş-yoxuşlarla, ziqzaqlarla, sevinc-kədərlə, acı və şirinlərlə müşayiət olunur. Yollar yoxuş, yollar eniş... Yoxuşlar yordu, enişlər əzdi insan oğlunu. Gah zirvədə oldu, gah da həyatın lap dibində. Əsas olan odur ki, o zirvəyə şərəflə, ləyaqətlə, cəsarətlə ucalasan. O iki yol arasında kimsənin ruhunu incitmiyəsən, kimsənin qəlbini qırmayasan. O iki yol arası sənin mücadilə, mübarizlik və vicdana, dürüstlüyə aparan haqq və savaş yolun olmalıdır. Dünya sənətkarlar üçün daha da ziddiyyətli olur. Gülçöhrə qız olan dünya birdən məkrli qarıya dönür. Ağı qara, gülü xar edən dünya Cahangiri “DALĞIN”etdi.

Əsl el sənətkarı yeri gələndə seçdiyi ömür yolunda hər zaman doğruların yanında, ağrılı insanların ağrısında, təsəllisində olmalı, pislərə isə yazıb-yaratdıqları ilə seçdikləri yollarından çəkindirməklə daima havadar olmalı və mənliyi, hünəri, cəsarəti ilə xalqın gözündə daima yüksəkdə olmalıdır. Yalnız şərəfli və dürüst, vətənsevər, xalqına, elinə, obasına gərəkli insanlar daim o keçilməz zirvələri, dolanbac yolları layiqincə aşa biliblər. Zaqatalalı Aşıq Cahangir Dalğın da məhz həmin zirvəni ləyaqətlə, hünərlə fəth etməyi bacaran sənətkarlarımızdan biri olmuşdur.

Təəssüf ki, o, az ömür sürdü. Ancaq Cahangir Dalğın, sözün həqiqi mənasında, mənalı və keşməkeşli bir həyat yolu keçdi. Bilib-tanıdığımız, bəzən də heç baş açmadığımız fani dünyanın bütün pisliklərindən, şər-böhtanından uzaqda dayanıb ömrünü sözə, Allahın əmanəti saza bağışladı. Atlıları atından salan, şahları taxtından edən, haqsızları haq yoluna gətirən, namərdləri mərd edən sözə və saza! Həmişə sözünün ağası oldu, həmişə yaratdığı incilərlə xalqına bir dəyərli yadigar – söz yadigarı qoymaq istədi Cahangir Dalğın! Yaşadığı bu dünyada çox ağrıları oldu onu incəldən, onu üzən, onu əzib keçən, ancaq heç vaxt əyilmədi, vicdanı qarşısında həmişə üzü ağ oldu. Neçə-neçə şeirləri Zaqatalada özündən xəbərsiz dillər əzbəri oldu. Olmaya da bilməzdi, çünki o, şeir-söz yurdunda böyüyüb yetişmişdir. Varxiyanlı Aşıq Məhəmmədin diyarından olmağı onun da qüdrətli el sənətkarı kimi parlamağına zəmin yaratdı. Bir sənətkarın ki, şeirləri dillərdə nəğmələşib şeirsevərlərin könlünü oxşayırsa, o şeir, söz adamları heç vaxt ölmür. Bu qəbildən olan sənətkarları yazıb-yaratdıqları söz inciləri əbədiyaşar edir. Bəli, Cahangir Dalğın da məhz belə el sənətkarların sırasında idi.

El arasında Cahangir Dalğın kimi tanınan, əsl adı haqqında şəxsi arxivindən və oğlu Aydından, qızları Gülbahar və Cəvahirdən əldə etdiyimiz məlumata görə, o, Mütəllibov Qeyfəddin Əmrullah oğludur. 1929-cu ildə Qax rayonunun İlisu kəndində (əvvəllər həmin ərazi Beşbulaq xanlığı adlanmışdır) anadan olmuşdur.

1937-ci il... Azərbaycanın bir çox yerlərində xalqın tanınmış ziylılarını və bəylərini, sözünü deməyə bacaran qabaqcıl şəxsləri kütləvi şəkildə sürgün həyatı gözləyirdi. Nə bilərdi ki, həmin sürgün həyatının acısını yaşamaq Əmrullah kişiyə və onun bəy nəslindən olan iki qardaşına da nəsib olacaq.

Atası repressiya təhlükəsini duyduğu an böyük oğlu 8 yaşlı Qeyfəddini at belində Bəhmədliyə (əvvəlki adı Varxiyan olub) – ailəvi dostluq etdiyi dəyirmançı Təmir kişinin yanına göndərir. Ustadın özündən kiçik, azyaşlı bacı və qardaşı isə Bakıdakı uşaq evinə verilir. Böyüyüb özünü tanıyan zamandan onların sorağına düşüb bütün Azərbaycanı qarış-qarış gəzsə də bir xəbər ala bilmir. Bu nisgil, bu ağrı məhz Cahangirin zaman keçdikcə el sənətkarı kimi yetişməsində böyük rol oynayır. Kiçik yaşlarında ata-anasını, bacı-qardaşını itirən ustad sənətkar dünyanın bütün ağırlıqlarını öz çiyinləri üzərində tək daşımalı olur. Vətən nisgili, vətən həsrəti, ailə itkisi onun ürəyinə dağ çəkir. El sənətkarı şeirlərinin birində deyir:

Qonağın deyiləm, övladınam mən,
Neçə il keçib gəlsəm də Vətən.
Mən səni qəlbimdən silə bilmirəm,
Ömürlük qürbətdə qalsam da, Vətən!

Öncə yuxarıda qeyd etdiyimiz kimi, Zaqatalanın Varxiyan kəndindən olan Təmir adlı kişi Qeyfəddini hi-

mayəsinə götürmüş, soyadını dəyişib Əhmədov, adını isə Cahangir qoymuşdur. Həmin vaxtdan el arasında Əhmədov Cahangir Əmrullah oğlu kimi tanınmışdır. Ustad bu barədə şeirlərinin birində yazmışdır:

Yurdum İlisudur, kəndim Varxiyan,
Olduğum obaya deyirlər patyan.
Ordadır büsbütün məni tanıyan,
Soruşun onlardan halımı bir-bir.

Adım Cahangirdir, sorsanız hərgah,
Anam Cavahirdir, atam Əmrullah.
Mənzilimdən sizi eyləyim agah,
Sel gəlib yurdumu axıtdı bir-bir.

Doğrudur, o zaman ustadın yaşadığı evi də hamı kimi sel aparmışdı. El ilə gələn dərdə çarə yoxdur – deyib atalarımız. Bir tərəfdən uşaqlıq xatirələrinin tək nişanəsi olan sel acısı, digər tərəfdən bütün ailəsini itirməyi, atasının və əmilərinin represiya qurbanı olmağının acısı heç vaxt Dalğına rahatlıq vermir.

Təmir kişi dünyasını dəyişəndən sonra oğlu Süleyman Cahangiri öz himayəsinə götürmüşdür. Süleyman kişi dindar olduğundan ona ruhani təhsili vermişdir. Onun yanında ərəb-fars dillərini öyrənmiş, bu biliklərə yiyələnməsi el sənətkarının şeiriyyatını dah qüdrətli və qüvvətli etmişdir. 1954-cü ilə qədər Süleymanın himayəsində qalan Aşıq Cahangir elə həmin ili Günəş adlı bir qızla ailə qurmuşdur.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Varxiyan qədimdən saz-söz ocağı, şairlər məskəni olduğu üçün Cahangir Dalğın həmin diyara düşəndən qəlbində saza maraq oyanır. Sənətkar sazı əlinə alıb ifa etməyə başladığından onu dərdlərinin yeganə dərmanı, ürəyinin tək sirdaşı hesab etmişdir. Bədahətən şeir demək bacarığı onu el arasında daha da məşhurlaşdırmışdır. Ustad sənətkarı musiqidən, dastandan, havacatlarından kənarda təsəvvür etmək mümkün deyil. Klassik xalq dastanlarımızı dərindən bilən, özünəməxsus ifası ilə məşhur olan Cahangir Dalğın saz çalmağı, bədahətən şeir deməyi Allahdan gələn müqəddəs bir vergi hesab etmişdir. Aşıq Ələsgəri əzbər bildiyi üçün onun təsiri ilə bədahətən şeirlər söyləmişdir:

Ulu göylər sinəsini gəribdir,
Ab-atəşi xaki badə veribdir,
Ağam mənə tifilikən veribdir,
Yüz on dörd kitabın ayəsi məndə.

El sənətkarı yaradıcılığının ilkin çağlarında qələmə aldığı şeirlərindən birində özünü söz-şeir mülkünün gənc bağbanı olduğunu qeyd etmişdir.

Sonralar özünə Dalğın təxəllüsünü qəbul edir və el arasında Cahangir Dalğın kimi tanınır. Cahangir Dalğın 1981-ci ildə 52 yaşında vəfat etmişdir. Hazırda beş qızı, iki oğlu var ki, onlardan Əhmədova Şövkət, nəvələri Mahmudova Sonbahar, Qazıyev Sahib, Cahangir Dalğın

ocağının layiqli davamçıları hesab oluna bilər. Cahangir Dalğının qızı Həsənova Gülbahar isə yazar kimi el arasında tanınmaqdadır.

Onun şeirlərinin toplanmasında Zaqatalanın Qandax kəndindən olan Qurban Şabanov, Həşim İsmayılovun böyük zəhməti olmuşdur. Onların birgə zəhmətlərinin məhsulu olan "Zaqatala aşıqları" kitabında aşığın 2 şeiri çap olunmuşdur. Aşıq şeirinin müxtəlif şəkillərində qələmini sınayan ustadın şeirləri "Zaqatala", "Şəlalə" qəzetlərində dərc olunub və o, şerlərində bir çox təxəllüslərlə ("Şəms", "Dalğın", "Coşğun", "Qəmgin", "Tənhalı", "Cahangir" və s.) tanınmışdır.

Onun həyat və yaradıcılıq irsi tərəfimizdən hazırlanan "Zaqatala aşıq mühiti" monoqrafiyasında, "Zaqatala folklor örnəkləri" kitabında, eləcə də bir sıra məqalələrdə, radio verilişlərində geniş şəkildə işıqlandırılmışdır.

Daha çox simvolik adlardan özünə təxəllüs seçməyə üstünlük verən ustadı digər sənətkarlardan fərqləndirən xüsusiyyətlərdən biri də məhz budur. Aşıq bu təxəllüslər içərisində "Dalğın"ı özünə daha doğma, daha yaxın hesab etmişdir. Əgər Zaqatala aşıq mühiti Aşıq Məhəmməd, Aşıq Dibro, Aşıq Könlü, Aşıq Şəmsəddin və başqalarının yaradıcılığı ilə tanınmışsa, Aşıq Dalğın poeziyası ilə yüksək bir zirvəyə çatmışdır.

Dalğın aşıq sənəti üçün önəmli olan musiqini, rəqsi və şeiri öz fəaliyyətində birləşdirən aparıcı bir el sənətkarı kimi yadda qalmışdır. Cahangir Dalğın aşıq şeirinin bütün şə-

killərində – gəraylı, qoşma, təcnis, gözəlləmə, deyişmə və s. qələmini sınamış və el arasında həmişə uğur qazanmışdır. Hər ustad sənətkarın ilk baxımdan klassik saz gələnəklərinə bağlılığı və sədaqəti aşıqlığın ilkin şərtlərindən biridir.

Dalğın öz yaradıcılığında əsasən məhəbbət, din, ürfan, təbiət gözəlliklərinin tərənnümü, vətənpərvərlik və nəsihətnamə xarakterli mövzulara üstünlük vermişdir. Onun arxivindən 800-ə yaxın şeir əldə etmişik. Cahangir Dalğının məclislərdə məqamı düşüncə bədahətən şeir demək qabiliyyəti, mükəmməl ifa tərzi onu ustad sənətkar kimi dəyərləndirməyimizə əsas verir. Ustad sənətkar həqiqətdə mərdlik, mərdanəlik məktəbi keçib. Bu mərdlik Dalğına Zaqatalanın suyu, təmiz ab-havası, Böyük Qafqaz dağlarının yenilməzliyi ilə, ağsaqqallarının öyüd-nəsihətləri, mərd oğullarının dəyanəti, ustad aşıqların sazıyla, sözüylə keçmişdir.

Sənətkar öz poeziyasında xalq şeirinin bütün janrlarına müraciət etmişdir. Belə ki, onun yaradıcılığında bayatı janrı da özünəməxsus yer tutur. İstər ictimai-siyasi, istərsə də təbiət və məhəbbət mövzuları olsun, bunlar onun yaratdığı şeir nümunələrinin əsasını təşkil edir:

Onun yaradıcılığını klassik ənənədə olduğu kimi məhəbbət, gözəllik, təbiət, vətən sevgisi, ürfan, ictimai-siyasi və s. mövzulara ayırmaq olar.

Ustadın məhəbbət mövzusunda yazılmış şeirlərini də ayrılıqda üç qismə bölmək olar:

1. Allaha müraciət və ilahi məhəbbət;
2. Vəfasız gözəllərdən şikayət;
3. Sözünə sadiq qalan gözəllərin tərənnümü.

Birinci qismə aid olan şeirlərindən məlum olur ki, ustad sənətkar Allaha qəlbən bağlı olmuş, dini dərindən bilmiş və onun sirlərinə lazımi qədər yiyələnmişdir:

Ey xudam, həbibimsən, ilahim, səndən mədəd,
Gözə gəlməz pərvərdigar, ilahim, səndən mədəd.
Verdin insaf, verdin iman, göndərdin ərşdən kitab,
Tez aldılar Yusif-Nəsib, İbrahim, səndən mədəd.

Ustad bu divanisində Allah dərgahına yetişmək, onun sevgisini, rəhmini qazanmaq, haqqın, həqiqətin yolunu tapmaq və tanıtmaq uğrunda keçirdiyi hiss-həyəcanını bölüşməyə çalışmışdır. Eyni zamanda ustad aşıq peyğəmbərlərin İlahidən güc aldıqlarını, ondan mədəd gördüklərini xatırlatmışdır. Digər bəndlərdə Dalğın müqəddəslərə verilən vəzifələrə və ilahi gücün dəyişilməzliyinə dolayısı ilə işarə etmişdir. Fani dünyada malın-mülkün, sevincin kədərin – hər şeyin Allah tərəfindən göndərildiyini dərk edən aşıq Allahdan mədəd istəyir:

Cahangir Dalğının vətənpərvərlik mövzusunda yazdığı şeirlərini əsasən aşağıdakı kimi səciyyələndirmək olar:

1. Qürbət eldə sıxıntı çəkən aşiqin vətənpərvərlik duyğuları;

2. Bəşəri hisslər, “Vətən”, “Düşən kim” gəraylılarını bu baxımdan yüksək qiymətləndirmək olar:

“Düşən kimi” gəraylısında aşığın keçdiyi həyat yolu boy verir:

Coşğun deyər, ümidim var,
Ölsəm də mən, adım qalar.
Hal bilənim şəksiz yanar,
Canım oda düşən kimi.

Cahangir Dalğın öz yaradıcılığında ictimai-siyasi məzmuna və fikrin fəlsəfi məqamına çox fikir verirdi. Bu dünyada nə varlının, nə də yoxsulun olmasına razı olmayan Dalğın insanlar arasında bərabərliyi ən ümdə və vacib şərtlərdən biri hesab edir. Onun fikrincə, dünyanı yalnız doğru söz, doğru düşüncə və doğru əməl sahibləri qoruya bilər. Bəzən şeirlərində Allaha müraciət edən sənətkar bu dünyada tutduğu mövqedən asılı olmayaraq, hər kəsə əməlinə görə dəyər verilməyini istəyir. “Yarı böl” qoşması bunun gözəl nümunəsi hesab oluna bilər:

Şahlar şahı, qulum edir iltimas,
Məndə olan müşkül halı yarı böl.
Haqq-hesabı məhşər günə saxlama,
Hamısını qoy, mülki-malı yarı böl.

Doğru yoldan yayınanların cəzasını məhşər gününə qalmasını istəməyən ustad hakim qüvvələrin, müftəxorların mal-mülkünün məzlum bəndələrlə yarı bölünməsi arzusundadır.

Cahangir Dalğının yaradıcılığında ustadnamə, qoşma ilə yanaşı, digər aparıcı janrlar da üstünlük təşkil

edir. Belə ki, aşığın müxtəlif növlərdə 30-a yaxın təcnisi, 13 gəraylısı, 7 deyişməsi, 4 qıfılbəndi və nəhayət, 15-dən çox müxəmməsi məlumdur. Təcnisləri ideya, bədii təsvir vasitələrinin, məcazlar sisteminin çoxluğu baxımından daha diqqətəlayiqdir. Sənətkar "Qara bağlar" təcnisində "qara" və "bağlamaq" sözlərindən yerli-yerində, çoxmənalılıq çalarlarında istifadə etmişdir:

Duyğusuz, kamalsız, həm də biinsaf
İnsanın köksünü hey qara bağlar.
Zimistan sevərmi xoş güzəranı,
Meylini çovğuna, hey qara bağlar.

Aşıq Cahangir Dalğın poeziyası tam, dolğun bir poeziyadır. Onun şeirlərinin məzmunu oxucularını daima düşündürür. Bəşəri ideyalar, ədalətli və humanist olmaq onun yaratdığı incilərin əsas ideyasıdır.

Aşıq sənəti bir zirvədir ki, eldən gələn əsl el sənətkarları, haqq aşıqları bu zirvənin əsas yolçularıdır. İnanıram ki, ürəklərdə kök salan Dalğın poeziyası bundan sonra da neçə-neçə oxucusunun sevgisini və rəğbətini qazanacaqdır. Mənim nəzərimdə zirvələrdən uca olan əvəzsiz ustad, eldən gələn el atasıdır Aşıq Cahangir Dalğın! Ruhun şad, məkanın cənnət olsun, ustad!

**Zümrüd İbrahim qızı**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# GƏRAYLILAR

## AĞLAR

Həyat bunu sübut edib:
Ağlar gülər, gülən ağlar.
Fəsil gedir, fəsil gəlir,
Açar dağlar, solar bağlar.

Ay qarşımda duran mələk,
Mənə niyə qurdun kələk?!
Səni də xəlq edən fələk
Bir gün yağlar, bir gün dağlar.

Dünyanın yox əli, qolu,
Bilinməyir sağı, solu.
Dalğın, varsa adam oğlu,
Olub ahlar, olar ahlar.

## AĞRIN ALIM

Dərdsiz insan yol başlamaz
Səhər-səhər, ağrın alım.
İnsana söz demək olar
Təhər-təhər, ağrın alım.

Çox yaralar ahlamışam,
Məlhəm qoyub bağlamışam.
Vaxt olubdur ağlamışam
Qəhər-qəhər, ağrın alım.

Dalğın deyər, işim düşdü,
Dərd bulanım dərd soruşdu.
Payız keçdi, qışmı düşdü?!
Gələr bahar, ağrın alım.

## BƏXTİM

Üz döndərib hara getdin,
Mən düşəndə dara, bəxtim?!
Çox xoş idi ilk gəlişin,
Nədən oldun qara, bəxtim?!

Bağban idim, bağdan oldum,
Heyvasından, nardan oldum.
İlk sevdiyim yardan oldum,
Niyə döndün xara, bəxtim?!

Dalğın kimdən xəbər alsın,
Kimnən desin, kimnən gülsün?!
Bu günümü kim ağlasın,
Sən gəlməsən kara, bəxtim?!

## BƏNZƏR

Eşq əhliyəm ibtidadan,
Hər bir sözüm yağa bənzər.
Qürbət eldə keçən günüm
Şamamasız tağa bənzər.

Yüklənibdir qəm karvanım,
Hey axır çeşmi-giryanım.
Yarsız keçən hər dövranım
Tufan düşmüş bağa bənzər.

Dalğın, dinmə sar yanında,
Kəc baxışla dur yanında.
Qədirbilməz yar yanında
Doğru sözüm lağa bənzər.

## BİR DƏ GƏLDİM, YA GƏLMƏDİM

Mənə sözü olan desin,
Bir də gəldim, ya gəlmədim.
Sizlə şirin bir söhbətə
Bir də gəldim, ya gəlmədim.

Arzu çoxdur, ömür gödək,
Haqq işidir, biz nə edək?!
Məclis quraq səhərədək,
Bir də gəldim, ya gəlmədim.

Düz fikirli olar dərin,
Salamat saxlayar sərin.
Eşitməyə acı-şirin,
Bir də gəldim, ya gəlmədim.

Çox çırpındım dar qəfəsdə,
İndi könlüm xoş həvəsdə.
Əl verməyə yaxın dosta
Bir də gəldim, ya gəlmədim.

Qonaq oldum çox ünvana,
Qarabağa, Mil, Muğana.
Dalğın deyər, Varxiyana
Bir də gəldim, ya gəlmədim.

## BU DÜNYADA

Şən yaşamaq istəyənlər
Bu dünyada, bu dünyada.
Məhəbbətə qovuşsunlar
Bu dünyada, bu dünyada.

Bax böyüyün əxlaqına,
Xidmət elə öz xalqına.
Yol vermə qan axınına
Bu dünyada, bu dünyada.

Heç olarmı məlul olmaq,
Elm öyrən, ol bir mayak.
Bacar xalqla dinc yaşamaq
Bu dünyada, bu dünyada.

Deyirəm dünya xalqına,
Vacibdir dörd şey insana:
Can, sülh, vətən, bir də ana
Bu dünyada, bu dünyada.

Dalğın deyər, budur sözüm,
Heç bir şeydə yoxdur gözüm.
Nagah utanmasın üzüm
Bu dünyada, bu dünyada.

## BU DÜNYADA

Mən istərəm Yaradandan
Bu dünyada, bu dünyada.
Həqiqət heç üzülməsin
Bu dünyada, bu dünyada.

Açan güllər soluxmasın,
Bağban bağdan yad olmasın.
“Məhbus” sözü heç qalmasın
Bu dünyada, bu dünyada.

Dalğın, hamı biləcəkdir,
Açan gülün solacaqdır.
Bir yaxşılıq qalacaqdır
Bu dünyada, bu dünyada.

## CEYRAN

Durum, dolanım başına,
Əlim yetir yara, ceyran.
İnanginən, gözüm düşüb
Qoynundakı nara, ceyran.

Əhdimə əncam etməsən,
Söyləməsən, həm gülməsən.
Dərdimə dərman olmasan,
Bir də gedim hara, ceyran?!

Eşit Dalğından bayatı,
Xoşbəxt quraq bu həyatı.
Verdiyim o əmanəti
Qıymaginən sara, ceyran.

## ÇƏKİR

Bir biləydim sərvinazım
Kefmi çəkir, ahmı çəkir?
Qarşı duran düşmənlərə
Xoşmu baxır, dağmı baxır?

Lənət gəlsin belə yara,
Günümü edibdi qara.
Ürəyimə vurdu yara,
Öz qəlbinə yağmı çəkir?

Dalğın üçün bir hədiyyə
Gətirmədi ölsün deyə.
Əğyar ilə yatsın deyə
Balınclara ağmı çəkir?

## ÇOX ÇƏTİNDİR

Sözü yarımçıq qananla
Yola getmək çox çətindir.
Xalqa aşkar olan sirrin
Üstün örtmək çox çətindir.

Görən gözdür, duyan huşdur,
Verən əldir, yeyən dişdir.
Oğurlamaq asan işdir,
Savab etmək çox çətindir.

Dalğına çay bulanlıqdır,
Tənbələ dan qaranlıqdır.
Evi yıxmaq bir anlıqdır,
Qəlbi tikmək çox çətindir.

## DAĞLAR

Bu dünyaya yaraşıqsız
Qarşımızda duran, dağlar.
Başınızdan ötüb-keçib
Neçə duman, boran, dağlar.

Ötürübsən Fərhadları,
Həm dostları, həm yadları.
Saya gəlməz karvanları
Nazı ilə yoran dağlar.

Qartalların zirvələrdə,
Vəhşi kəllər meşələrdə.
Ovçu durar bərələrdə,
Olub sizə heyran, dağlar.

Zirvənizə qar ələnir,
Dərənizə çən bələnir.
Saf suyunda qüdrətlənir
Gül-çiçəkli aran, dağlar.

Qınamayın siz Dalğını,
Olubdur yollar yorğunu.
Etibarsız çıxdığını
Heç olubmu görən, dağlar?!

## DAĞLAR

Gəlin sizdən xəbər alım,
Dolduz neçə yaşa, dağlar?!
Cavab verin zamanaya,
Etdin kimdən haşa, dağlar?!

Duman dolub oylaqlara,
Selin gəlib çaylaqlara.
Mehman olduq yaylaqlara,
Onda doldum huşa, dağlar.

Siz hamıya çox paksınız,
Ululardan böyüksünüz.
Dalğın deyir, əzizsiniz,
Hər insana, quşa, dağlar.

## DAYANMAZ

Gəlib keçən min illərin
Birliyidir fəsillərin.
İttifaq olan ellərin
Qarşısında dağ dayanmaz.

Üç şeyin yoxdur çarəsi:
Olduynan öldü bəlası.
Bir də olsa dil yarası,
Loğman da gəlsə sağalmaz.

Hamımız etsək doğruluq,
Dünyada olmaz oğurluq.
Bir ayrılıq, bir yoxsulluq
Olmasa, insan qocalmaz.

İnsan oğlu, pozma kefin,
Düzəlt, əgər varsa səhvin.
Hər kim səni etsə də dəfn,
O da bu dünyada qalmaz.

Dalğın, şərə düşdü güzar,
Dilin deyər, əlin yaxar.
Kim solan da bir kəc nəzər,
Yazdıqların heç pozulmaz.

## DEYİB

Ayrılıram bu gün səndən,
“Daha doydum cana” deyib.
“O zülfünə yad əliylə
Çəkdiribsən şana” deyib.

Sənin balan sənə olsun,
Mənim balam mənə olsun,
Gah ağlasın, gah sızlasın,
“Ata” deyib, “ana” deyib.

Balam duranda boylanar,
İş üstünə pərt yollanar.
Hərdən-hərdən qımıldanar,
“Kirlidir barxana” deyib.

Sən gələndə süfrə üstə,
Könlün birdən olar xəstə.
Balan gələr asta-asta,
“Ehtiyac var, papa” deyib.

Dalğına at sən də qarğış,
Mənimlədir mənim naxış.
Dul olubsan, dula qarış,
“Girdin əyri dona” deyib.

## DÜNYA

İlk yaranan insanlara
Xoş göründün nagah, dünya.
Sonralar görüb oldular
Əməlindən agah, dünya.

Çoxdur malın, çoxdur varın,
Amma yoxdur düz ilqarın.
Özü desin ulu Tanrın
Kimdədir bu günah, dünya?

Sən hökmünü edəcəksən,
Əcəl atın sürəcəksən,
Dalğını da udacaqsan,
Ya bu gün, ya sabah, dünya.

## GÖZLƏ

Aslan olsan şücaətdə
Yenə də sən marı gözlə.
Gen günündə azma yolun,
Demə olmaz darı, gözlə.

Kəpənəkdən olmaz şahin,
Köməyi yox qəmin, ahın.
Bir sevdaya düşsən yaxın
Əvvəl namus, arı gözlə.

Dalğın, dindir dərd biləni,
Xoşbəxt sanma çox güləni.
Boşa atma hey gülləni,
Ondan gələn varı gözlə.

## GÜNÜM

Çox xəbərsiz gəldi keçdi,
Yardan mətləb soran günüm.
Hər şeydən çox əziz idi
Muradıma varan günüm.

Yaz da keçdi, qış da keçdi,
Pis də keçdi, xoş da keçdi.
Hərdən-hərdən boş da keçdi,
Köhlənimi sürən günüm.

Gün ömürdən hey ötüşür,
Diş tökülür, üz bürüşür.
Hərdən-hərdən yada düşür
Aslana tor quran günüm.

Gecə mənə gündüz idi,
Əl əməyim sonsuz idi,
Dost-tanışım əziz idi,
Dağ cüssəli duran günüm.

İlisudur yurdum, əslim,
Varxiyanda vardır nəslim.
Dalğın deyər, bahar fəslim
Keçdi, gəlir boran günüm.

## HANI?

Ay bivəfa, göstər mənə,
Qazandığın varın hanı?
Öz ərini ələ verdin,
Söylə, təzə yarın hanı?

Usanmadın başsızlıqdan,
Utanmadın damazlıqdan,
Səndə olan haqsızlıqdan
Qazandığın karın hanı?

Dalğın darda qalmaz inan,
Bunu bilir cümlə cahan.
Tutduğundan bir az utan,
Söylə, namus-arın hanı?

## İNCİMƏRƏM

Qarlı qışdan incimədim,
Bahar, yazdan incimədim.
Yaxşım-pisim yazılıbdır
Çoxdan, azdan inciмərəm.

Bəzən külək yersiz əsir,
Buludları qovur, kəsir.
Adam var ki, haqdan küsür,
Doğru sözdən incimərəm.

Körpəlikdən hər insana
Zəhmət çəkir ata-ana.
Dalğın dözər hər ziyana,
Qəlbi düzdən incimərəm.

## İNSANIYAM

Bu dünyanın, bu həyatın
Mən də bir cür insanıyam.
Dolub-daşan fincan kimi
Əldən düşüb sınasıyam.

Neçə karvan düşdü yola,
Hamı qaldı yorğun hala.
Bir zəhər var, dönür bala,
Mən də onun anasıyam.

Cahangirin yox günahı,
Dağ titrədən çəkən ahı.
Hər axşamı, hər sabahı
Fəryad səsi salanıyam.

## QÜRBƏTDƏ

Qadir Allah, ol pənahım,
Bu qürbətdə, bu qürbətdə.
Qol dolanım hər meydanı
Fil qeyrətdə, fil qeyrətdə.

Arzum budur, şadlıq olsun,
İnsan oğlu desin-gülsün.
Meydanıma şair gəlsin
Şir qeyrətdə, şir qeyrətdə.

Dalğınam, kamım almışam,
Eşq oduna qalanmışam.
Neçəsini mən qoymuşam
Çox heyrətdə, çox heyrətdə.

## MAŞALLAH

Bərəkallah, ismin gözəl,
Kamalına, ay maşallah.
Kövsər bulaq suyu kimi
Verdin mənə çay, maşallah.

Kirpiyin ox, qaşın kaman,
Üzün lalə, dilin dərman.
Ərş üzündə huru-qılman,
Olmaz sənə tay, maşallah.

Dalğın deyər dönə-dönə,
Qoynun içi bir Mədinə.
Bilirəm ki, qamətinə
Həsrət qalıb Ay, maşallah.

## MƏN GƏLİNCƏ

Ala gözlü nazlı yarım,
Gözlə məni mən gəlincə.
Qürbət eldə solar canım,
Atsan məni mən gəlincə.

Eşqin məni cida saldı,
Hicran məni dərdə saldı.
Ümidgahım səndə qaldı,
Saxla məni mən gəlincə.

İki oğlum ciyər param,
İki qızım sona balam.
Dalğın deyər, ümidvaram,
Qoruyarsan mən gəlincə.

## MƏNİ

Söz mülkündə bağban olmaq
Yaradıbdır fələk məni.
El içində ucaldacaq
Göy üzündə mələk məni.

Dilimdə söz, əldə qələm,
Yazısını gərək biləm.
İstəyirəm mən də güləm,
Haçan tapar dilək məni.

Dalğın deyər, sözüm bitdi,
Qəmim, qüssəm yaman artdı.
İlqarından hali etdi
Yarım quran kələk məni.

## MƏNİM

Xalqımın xoş amalından
Firavandır çağım mənim.
Varlı bağdır, gül-çiçəkdir
Elim, solum, sağdır mənim.

Azərbaycan vətənimdir,
Xoş ətirli çəmənimdir.
Min sərvətli mədənimdir,
Hər aranım, dağım mənim.

Dalğın deyər, xof etmərəm,
Düşmən gəlsə yan ötmərəm.
Bu gün ölsəm “of” etmərəm,
Bol bar verir bağım mənim.

## MİLİMDƏDİR

Bizim ulu babaların
Xatirəsi qəlbimdədir.
Onların xoş nəsihəti,
Hər birisi meylimdədir.

Neçə sirli qərinələr,
Əlvan geymiş biyabanlar,
Neçə-neçə qəhrəmanlar
Ürəyimdə-dilimdədir.

Bir mənalı sual etdim,
Cavabında dedi əhdim.
Xalqa sonsuz məhəbbətim
Mənim şair könlümdədir.

Bülbüllər gəzib budağı,
Olacaqlar qəm ortağı.
Tükənməyən ləl yatağı
Muğanımda, Milimdədir.

El-obalar qərargahım,
Xoşdur hər günüm, sabahım.
Dalğın deyər, ümidgahım
Məğrur duran ölkəmdədir.

## OLANDA

Bağban duymaz yorğunluğu,
Bağında bol bar olanda.
Qazan elin şöhrətini
Canında can var olanda.

Bülbül kimi cəh-cəh vuran,
Deyin bunu varmı görən.
O çəmənzar olar viran
Oylağında sar olanda.

Ay Cahangir, olma naşı,
Bil, səbirdir elmin başı.
Heç olarmı qoç savaşı
Dağ başında qar olanda.

## OLANDA

Mavi göydə süzə bilməz,
Bir quş qanadsız olanda.
Bir qoşuna nə edəcək,
İgid arxasız olanda.

Dünya bağdır, həm də tordur,
Cismi kökdür, nəfsi xordur.
Ömrü boyu gözü kordur,
İnsan savadsız olanda.

Hər kim kimi qınayacaq,
O da bir gün anlayacaq,
Ata eldən utanacaq,
Oğul ağılsız olanda.

Əsl kişi sözdən dönməz,
Yoxsulu varlıdan seçməz,
Qonşu küsər, qohum gəlməz,
Arvad həyasız olanda.

Əyər boşsa cibdə kisə,
Hamı istər səndən küsə,
Yaxşılığım dönər pisə,
Qonşu vəfasız olanda.

Sözlərimdə çoxdur məna,
Arif  gərək bunu qana.
Bənzər xarab dəyirmana,
Bir ev qadınsız olanda.

Tez ucalan, tez də enər,
Şölə saçan şəmi sönər.
Vaxtsız piana dönər,
Dərdi dəvasız olanda.

Dalğın bu gün gedər bada,
Dediyimi saxla yadda:
Dəyməz bir cüt alçaya da,
O söz mənasız olanda.

## OLAR

Yaxşı dostu tanımağa,
Dara düşən gündə olar.
Vəfalısı can yandırar,
Vəfasızı gendə olar.

Dostun əgər bilsə qədrin,
Ürəyini saxla sərin.
Yaman dosta vermə sirrin,
Sədası hər yanda olar.

Dalğın, yara el karına,
Şərik ol namus, arına.
Xayin çıxan öz yarına,
Bəd nəsilli bəndə olar.

## OLAN OLDU...

Qəm eləmə, sərvinazım,
Olan oldu, keçən keçdi.
Qoy söz qoşum, çalıb sazı
Olan oldu, keçən keçdi.

Ahu kimi baxışın var,
Kəklik kimi yerişin var.
Niyə acı gülüşün var,
Olan oldu, keçən keçdi.

Çətin işə bilsəm dözə,
Köhnə işi etmə təzə.
Dalğın deyər, vurma üzə,
Olan oldu, keçən keçdi.

## OLUBSAN

Gəl ağlama, ey bivəfa,
Nə müddətdir dinc olubsan.
Tutduğunu gətir yada,
Minnət üçün gec olubsan.

Səni sevdim qız çağında,
Qamətinin düz çağında,
Ürəyimin köz çağında
İndi niyə kəc olubsan?

Yurd-yuvanı cəm elədik,
Şirin-şirin şam elədik.
Axırını qəm elədik,
Divanlarda dərc olubsan.

Dikilmişdi hara gözün,
Yalan oldu hər bir sözün.
Ləkəlidir daha üzün,
Etibarda heç olubsan.

De fikrində nə həvəsdir,
Yaş tökməyin çox əbəsdir,
Yar olmağın daha bəsdir,
Dalğın üçün vec olubsan.

## SƏNİN

Şair, dillən bu günündə
Nədir dövlət, varın sənin.
Niyə yoxdur sinən üstə
O telli tavarın sənin?

Aşiqisən həqiqətin,
Döz oduna bu zillətin.
Öz hökmünə təbiətin
Olarmı iqrarın sənin?

Qələmini qoyma əldən,
Şirin sözü salma dildən.
Ayrılsan da doğma eldən,
Vətəndir tutarın sənin.

Bax gələnə, bax gedənə,
Daşdan eylə gövhər yenə.
Bəxşiş olsun qoy vətənə,
Pozulmaz bazarın sənin.

Hanı müdam yanan ocaq,
Dünya dolub-boşalacaq.
Dalğın, səni yaşadacaq
Halal namus-arın sənin.

## SƏNİNDİ

Allahı sev, bəd olma,
Oğul, dünyan sənindi.
Qürbət eldə dolanma,
Oğul, vətən sənindi.

Doğmalardan ayrılma,
Yad ağzıynan buyrulma,
Allahsızdan heç umma,
Oğul, iman sənindi.

Hər yetənə gül açma,
Eldən ayrı dil açma,
Arın atıb, əl açma,
Oğul, vicdan sənindir.

Vətəni sev ürəklə,
Qoru elin qeyrətlə,
Elə xoş dilək dilə,
Oğul, oban sənindi.

Ömrü vururam başa,
Mən gedərəm, sən yaşa.
Məndən sonra keç başa,
Oğul, qalan sənindi.

Dalğın gördü dünyanı,
Seçdi yaxşı-yamanı,
Uca saxla şanını,
Oğul, dövran sənindi.

## SİLƏNDƏDİR

Ömrün dadı, insan adı
Zəhmət təri siləndədir.
Taxtı-tacı yenilməyən
El qədrini biləndədir.

Keçdim düzü, aşdım dağı,
Oldum neçə el qonağı.
Ar-namusun kasıblığı
Yersiz-yersiz güləndədir.

Bilirsənsə balıq ovu,
Dalğın, suya at tilovu.
İnsanın tale cilovu
Hər kəsin öz əlindədir.

## BAĞLASAN DA

Ağlın yoxsa olmaz varın,
Bu ölkəni tağlasan da.
Kəskin bəxtim üz döndərər,
Gedər, durmaz, bağlasan da.

Vəfasızlar ilqar bilməz,
Dost yolunda tərin silməz.
Cəsəddən ruh çıxsa gəlməz,
Gecə-gündüz ağlasan da.

Dalğın, sənə gəldi növbə,
Sözüm xalqa olsun Kəbə.
Ara vuran etməz tövbə,
Dillərini bağlasan da.

## YANIMA

Həsrətindən düşdüm xəstə,
Gəlmədin bir yol yanıma.
Xalqa səndən əzizəmmi,
Gündə gəlir el yanıma.

Səndən qeyri yoxdu varım,
Ey mənim alagöz yarım.
Yastığımdan qalxar sərim,
Bir yetirsən əl yanıma.

Dalğın deyər, gözəl, toxta,
İstəmirəm zülmün arta.
Bir səhərlər, bir günorta,
Bir də axşam gəl yanıma.

## YA GƏLƏRƏM, YA GƏLMƏRƏM

Dostum, bir də bu diyara,
Ya gələrəm, ya gəlmərəm.
Sözlərim qalsın yadigar,
Ya gələrəm, ya gəlmərəm.

Dağlar aşdım gəzə-gəzə,
Oba gördüm təzə-təzə.
Əl verməyə elimizə,
Ya gələrəm, ya gəlmərəm.

Dalğın gəzib bu cahanı,
Söyləyibdir yüz dastanı.
İyləməyə gülüstanı,
Ya gələrəm, ya gəlmərəm.

## VƏTƏN

Sən günahkar olmamışdın,
Nədən oldun ağlar, vətən?
Səbəbini dünya bilir,
Nədən oldun, ağlar, vətən?!

Sən bu odlar yurdu idin,
Ömür boyu kədər yedin.
Hər millətə qardaş dedin,
Nədən oldun, ağlar, vətən?!

Qaranlıq çökdü içəri,
Millətlər düşdü köçəri.
Hər yerin polad açarı,
Nədən oldun, ağlar, vətən?!

Ləkə düşməz təmiz ada,
Çox ölənlər batdı suda.
Şəmsi kimi bu dünyada
Nədən oldun, ağlar, vətən?!

## YAZIR

Qızım Şövkət, atan sizə
Qazamatdan salam yazır.
Gözləyirəm cavabını,
Görüm hansı balam yazır.

Uydu yana bilə-bilə,
Anan məni verdi ələ.
Eybi yoxdur, keçər belə,
Kimə namə biləm yazır.

Mən Dalğınam, sındı şüşəm,
Viran oldu parlaq guşəm.
Bundan qeyri yoxdur peşəm,
Dilim deyir, qələm yazır.

## YERDƏ

Fələk məni vadar etdi
Şeir deyib yatan yerdə.
Bir də mən nə vaxt olaram
Ellər şənlik tutan yerdə?

Yaralarım sızıldayır,
Cahan gözümdə qarışır.
Gələn-gedən nə danışır
Bilinmir guş batan yerdə.

Dalğın, daha olma kövrək,
Ağrılara dözsün ürək.
Açmalıdır qönçə gərək
Şeyda bülbül ötən yerdə.

## YOXDUR

Ey dünya, sən sehrkarsan,
Səndən xərac alan yoxdur.
Qılıncını sənin kimi
Sağa-sola çalan yoxdur.

Bir əlin var gəl-gəl deyir,
Bir əlin var qəddi əyir.
Neçə səyyah etdi seyr,
Yenə sirrin bilən yoxdur.

Min bəzəkdir sənin donun,
Bilinməyir ilkin, sonun.
Çıxarırsan min bir oyun,
Amma sənə gülən yoxdur.

Necə çəkim belə dərdi,
Bədənimdə qanlı tərdi.
Hər kim ki qoynuna girdi,
Ordan geri gələn yoxdur.

Dalğına şahlar şahısan,
Həm məlhəmsən, həm yağısan.
Axır ki, çox vəfasızsan,
Sözlərimdə yalan yoxdur.

## YOLLARDA

Deyim sənə necə oldu
Halın yollarda, yollarda.
Oldu qəm, olmadı gülüş,
Gülüm yollarda, yollarda.

Nə barış var, nə də dava,
Nə yurd tapdım, nə də yuva.
Atam Adəm, anam Həvva,
Vəlim yollarda, yollarda.

İnsan ki düşər təşvişə,
Heç gələrmi bu iş xoşa.
Hara atdım, çxıdı boşa,
Əlim yollarda, yollarda.

Yığışdı gənc, yığışdı çal,
Hərə bir cür sordu əhval.
Səndə görüm belə minval,
Neyləyim yollarda, yollarda.

Ahımdan dağ gələr dilə,
Bənd olaram düşsəm selə.
Haqq yaradıb məni belə,
Qalım yollarda, yollarda.

Tapılmadı bir hal əhli,
Dediyimə desin “bəli”.
Az müddətdə aldın xeyli,
Elm yollarda, yollarda.

Etdin nalə, çəkdim nərə,
Səsimə səs verdi dərə.
Yetişməmiş endi yerə
Kalım yollarda-yollarda.

Dalğın qəmli belə işdən,
Yurdum batdı cavan yaşdan.
Dilim susdu, çıxdı başdan,
Ağlım yollarda, yollarda.

# QOŞMALAR



## AY ALA GÖZLÜM

Ya məndən küsübsən, ya taleyindən,
Bir desənə bilim, ay ala gözlüm.
Tökürsən qaş-qabaq məni görəndə,
Nə qərara gəlim, ay ala gözlüm?!

Mən sənə yar oldum, yüzünə düşmən,
Tutduğun işəmi olubsan peşman?
Sevinən bir sən ol, xiffətli kaş mən,
Başqa nə diləyim, ay ala gözlüm?!

Dalğına dediyin vədə yetibdir,
Dön sözündən, əgər xilaf edibdir.
Adına ancaq bir dastan deyibdir,
Qurumuş bu dilim, ay ala gözlüm.

## AY ELLƏR

Nuhun gərdişindən mən hələ də bax,
Baş aça bilmirəm özüm, ay ellər!
Qərq olub gedirəm Mənsur sayağı,
Mən yazsam görəni gözüm, ay ellər!

Tısbağa dırmanır dağlara, döşə,
İstəyir qartalı sala enişə.
Çoxuna yaltaqlıq olubdur peşə,
İşə keçmir doğru sözüm, ay ellər!

Çatmazmı Dalğının dərdi min birə,
Xoruz qaqqıldayır, banlayır fərə.
Boz eşşək ağalıq eləyir nərə,
Bu dərdə mən necə dözüm, ay ellər?!

## AY USTA

Özümüz heç tanış olmazdan əvvəl,
Gəl eyləyək salam-kalam, ay usta.
Arif olan ilk sözündən tanınar,
Gəlmişəm qonağın olam, ay usta.

Yaxşı olar mərd insanı tanısan,
Qəbul edib xoş da yola salasan,
Deyirlər ki, sən də söz sərrafısan,
Gəldim səndən ilham alam, ay usta.

Ariflər arifin olsun mehmanı,
Yurdum Varxiyandır, sən də gəl tanı.
Qəlbinə yaz Dalğın verən ünvanı,
Əlimə almışam qələm, ay usta.

Sərraf gözlərinə pərdə çəkiblər,
Yolu aydın görmək olmur, ay usta.
Hüquq bir tarazda olandan bəri
Ər-arvadı seçmək olmur, ay usta.

Bağ-bağçam olsa da, məhsulum batır,
Nakəslər gülünü budayıb atır,
Hər budaq üstündə bir şahmar yatır,
Meyvəsini dərmək olmur, ay usta.

Dalğın deyər, sizdən indi nə danım,
Düçar etdi qülu-qala nadanım.
Sulanmış şum oldu sənət meydanım,
Köhlənimi sürmək olmur, ay usta.

## AY ÜZLÜM MƏNİM

Nə baxırsan oğrun, kimdəndir qorxun,
De, kiməsən vurğun, ay üzlüm mənim?!
Əgər sənin duyğun gerçəkdir, dolğun,
De nəyədir uyğun, ay üzlüm mənim?!

Gəl uyma nadana, iblis, şeytana,
Dərdini qanana söylə mərdana.
Canımı canana verrəm qurbana,
Döşənnəm yorğun, ay üzlüm mənim.

Yaqut, cəvahirsən, dərd açarısan,
Dağın maralısan, ovçu karısan,
Könül baharısan, cənnət barısan,
Nazın çəkər Dalğın, ay üzlüm mənim.

## AĞLAMA

Keçər dövran, belə qalmaz, sevgilim,
Minnətdaram sənə, aman, ağlama!
Çəkib həsrətimi, gözün yaşartma,
Eşidib şad olar düşmən, ağlama!

Mən səni etmişəm Haqqa əmanət,
Sən də məndən ötrü çəkmə xəcalət.
Bizi ayrı salan olsun xəsarət,
Fikir çəkib heç bir zaman ağlama!

Üç yoldaşım rusdur, ikisi gürcü,
Dörd nəfər də vardır, tutur orucu.
Türmədə tükənib Dalğının gücü,
Özünü eləyib peşman, ağlama!

## AĞLAR

Mən dərdimi çaya, gölə söyləsəm,
Balıq ağlar, ördək ağlar, qaz ağlar.
Soruşsalar “dərdin nədir?” – bildirsəm,
Ahıl ağlar, gəlin ağlar, qız ağlar.

Əkdiyim gül səbəb olub saralsa,
Xəzan əsib, bəxt çırağım qaralsa,
Keçən günlər, aylar, illər daralsa,
Payız ağlar, yay, qış ağlar, yaz ağlar.

Cahangirəm, xoş diləklər dilərəm,
Qayğıma kim yanır, özüm bilərəm,
Bir gün gələr, əcəl çatıb ölərəm,
Əlimdəki  bir sədəfli saz ağlar.

## AĞLASIN

Sevil kimi növcavandan ötəri,
Ona şagird olan qızlar ağlasın.
Onun əməyindən şan-şöhrət tapan,
O şoranlar, o Mil düzlər ağlasın.

O idi ulduz tək Mildə sayrışan,
O idi məzarıynan vaxtsız görüşən,
Sevilli, Sevilsiz bitib yetişən
Mil düzündə ağ qızıllar ağlasın.

O, bülbül tək ayrı düşdü gülündən,
Əbədi elədi səfəri eldən.
Onu öz cananı salmaz meylindən,
Ona aşıq olan gözlər ağlasın.

Halal zəhmətiylə çatdı ad-sana,
Muraza çatmamış yetişdi sona.
Gözüyumuq qayıtdı o Vətənə,
Vidasına çıxan üzlər ağlasın.

Şöhrətin tutmuşdu Azərbaycanı,
Qazağı, Gəncəni, Mili, Şirvanı.
Ey Muğan düzünün şiri, aslanı,
Səni tərif edən sözlər ağlasın.

## AZADLIQDIR

Dünyada insana ən şirin nemət,
Bir sağlıqdır, bir sağlıqdır, bir sağlıq.
Yaxşı arzuların lap ən yaxşısı,
Azadlıqdır, azadlıqdır, azadlıq.

Başımda dolanır sevdanın tacı,
Hayıf ki, bilinmir onun əlacı.
Ömrünü eləyən zəhərdən acı,
Yamanlıqdır, yamanlıqdır, yamanlıq.

Dalğın, çox çəksəm də zülmi-zilləti,
Müqəssir bilmirəm heç bir milləti.
Sürdüyüm dövranın dadı, ləzzəti
Cavanlıqdır, cavanlıqdır, cavanlıq.

## ARALI

Ey insan, gəl düşmə eşq həvəsindən,
Bülbül də gəzərmi güldən aralı?!
Sahildə qəvvassız gəmiyə bənzər,
Sonalar düşərsə göldən aralı.

Nəzər sal həyata, cəm et ilhamı,
Ol hünər sahibi, tanısın hamı.
Harada olsa da haqqın adamı,
Düşəcəkdir pis meyldən aralı.

Dalğın, sən özünə borc bil bu işi,
Yaşasın qəlbində elmin sirdaşı.
Dünyada sülh üçün düşünən başı
Gəl saxlayaq qanlı seldən aralı.

## ARASINDA

Bilirəm şairlə hazırcavabın,
Fərqi var dən ilə nan arasında.
Zənbur tək çiçəkdən şirə çəkənin
Məhsulu görünməz şan arasında.

Təbiət olsa da hər şeyə ana,
Günəşdir aləmi gətirən cana.
Ay solğun işığı yayır cahana,
Buludsuz axşamla dan arasında.

Dalğınam, öyüdü versəm hər kimə,
Məndən ziyan dəyməz inan heç kimə.
İnsafı, mürvəti olan həkimə
Fərqi yox lütqumla xan arasında.

## ANA YURDUMUN

Tarixi qocadır, söhbəti uca,
Bəhrəsi əzbərdir ana yurdumun.
Kəbəyə misaldır onun qurğusu,
Çeşməsi kövsərdir ana yurdumun.

Bəzəyir dağları qoyun-quzusu,
Dərdlərə dərmandır o qaynar suyu.
Hər yanı bürüyən çiçək qoxusu
Müşk ilə ənbərdir ana yurdumun.

İlisu kəndidir elim, oylağım,
Ellər mehmanıdır, olmayıb azğın.
Duyan yoxdur, niyə, biçarə Dalğın,
Qucağı didardır ana yurdumun.

## AY GƏLİN

Alçaqdan söyləyib, ucadan gülən,
Nə vurmusan tumar qaşa, ay gəlin.
Məclisdə işarə anlayıb bilən
Cavanları saldın başa, ay gəlin.

Bu məclisə gələn qızdır, gəlindir,
Üzə kölgə salan siyah telindir.
Sözləri yazdıran şirin dilindir,
Deyirəm: maşallah, yaşa, ay gəlin.

Cahangirəm, mən məclisə girəndə,
Bilirəm nə dərd var qızda, gəlində.
Baxçanda gül açsın hər bir fəsildə,
Biz dərək onları qoşa, ay gəlin.

## ALƏMİ

Üç tərəfdən dağlar durub yan-yana,
Elə bil ki, keşik çəkir hər yana.
Ətəklərdə yaylaqların bir yana,
Qala düzün heyran edib aləmi.

Güneylərdə meşələrin gəzmişəm,
Quzeyləri ötüb gendən süzmüşəm.
Qayalarda vətən deyib yazmışam,
Buz bulaqlar mürgülədir aləmi.

Dalğın deyər, könül səndən ayrılmaz,
Özüm ölləm, sözüm səndən ayrılmaz.
Cismim köçər, ruhum səndən ayrılmaz,
Sənsə yaşa, heyran elə aləmi.

## BAXIRAM

Kamil bir ovçuyam, tutub bərəni,
Ov gələcək yola aşkar baxıram.
Həyatın hər əyrisinə, düzünə,
Sərraf gözlərimlə aşkar baxıram.

Əğyarı, yaltağı sevməmək üçün,
Heç namərdə yaxa verməmək üçün,
Həyatı, ətrafı dərk etmək üçün
Bir dəfə görənə təkrar baxıram.

Kim verir əlindən, kim alır ələ,
Cahangir yenicə duyubdur hələ.
Düşməmiş olsa da ad-sanım dilə,
Sənət meydanına pərgar baxıram.

## BARIŞMIR

Ülvi məhəbbəti puç edən yarla
Dilim barışsa da, qəlbim barışmır.
Büllur bədəninə bir zaman dəyən
Əlim barışsa da, qəlbim barışmır.

Ömrümün bağına tez çökdü boran,
Olmadı bu müşkül halımı soran.
Xəyanət ucundan vaxtsız ağaran
Tellərim barışır, qəlbim barışmır.

Əcəlin qoxusu, hicran möhnəti,
Dalğının cismindən alır taqəti.
Yerin, göyün şahı, ömrün ziynəti
Gözlərim barışır, qəlbim barışmır.

## BAHAR

Bənövşə torpaqdan baş qaldıranda
Hamı anlayır ki, gəlirsən, bahar.
Məhəbbət çeşməsi olubsan elə,
İlk gündən sonadək gülürsən, bahar.

Sən necə gözəlsən, necə mehriban,
Ayrılmaq bilməyir səndən bir insan.
Hər şey mətləbini aldığı zaman
Sən xudafizləşib gedirsən, bahar.

Ağ tülü alırsan dağlar başından,
Ləbin busə dadır onun daşından.
Cavanlar söz açır xoş gərdişindən,
Həyata min ziynət verirsən, bahar.

Əziz mehmanısan bu ana yurdun,
Min bir xalı sərib məclislər qurdun,
Hər gün bir don geyib qarşımda durdun,
Görünür, bu işdə mahirsən, bahar.

Bülbülün nəğməsi ucalır bağdan,
Çayların suları tələsir dağdan.
Kim inciyər sənin kimi qonaqdan?!
Sən ki bu dostluğu sevirsən, bahar.

Sən bizim bu yurda qoyanda qədəm,
Ellərə yayılıb sevincim, sədam.
Demişəm, deyirəm, deyəcəm müdam,
Dünya xəzinəsinə dəyirəm, bahar.

Dağların örtüyü olubdur çayır,
Açanda gül-çiçək min ətir yayır.
Oxuyur xanəndən, düşünür şair,
Dalğına dastansan, şeirsən, bahar.

## BAHAR

Fəsillər sənəmi, bəşər diləyi,
Anamızın şirin laylası bahar.
Halların dürlüdür, şirin, tükənməz,
O sonsuz göylərin laləsi bahar.

Hər canlın sevinib eyləyər şadlıq,
Havada quşların, dəryada balıq.
Hüsnündən utanıb qaçır qaranlıq,
İllərin sevimli balası, bahar.

Dalğını məst edib çiçəkdən tacın,
Necə ətiri var hər bir ağacın,
Bağların, dağların, yalın-yamacın,
Məxməri örpəyi, atlası bahar.

## BƏNZƏYİR

Qafil olma, ey dünyanın bəndəsi,
Qanmazlara dünya xara bənzəyir.
Zəhmət çəkib acı turpu əkənə,
Ağızda ləzzəti nara bənzəyir.

Ağac tez yıxılar zəifsə kökdən,
Nəhayət, ləzzətin öyrən böyükdən,
Xarrat hasil etsə alət kötükdən,
O alət də saf dinara bənzəyir.

Saf olmalı dilnən gözün arası,
Dalğın deyən sözün pisdir harası?
Kimin yoxsa el içində qarası,
Demək olar o fanara bənzəyir.

## BİR-BİR

Sən mənə qulaq as, ay cavan aşiq,
Bu qədər axtarma davanı bir-bir.
Elə etsən işin olar dolaşıq,
Havayı gəzərsən obanı bir-bir.

Mən cavan olsam da niyyətim toxdur,
Dəyərli, qiymətli sözlərim çoxdur.
Aşıqlıq elmindən xəbərin yoxdur,
Çal, oxu, eşidək havanı bir-bir.

Savadım azsa da, vardır talantım,
Dalğınam, itməyib hələ qiymətim.
İstəsən güləni söznən ağladım,
Sayginən meydandan qaçanı bir-bir.

Nəyə güvənibən çıxdın qarşıma,
Fil də olsan düşün, çatmaz daşıma,
Ağam çəkib sağ əlini başıma,
Seçirəm yaxşını-yamanı bir-bir.

Sinəmdə kök salıb qaynayır bulaq,
Dalğını dinləsin söz qanan qulaq.
Gəl girək meydana, yanaşı duraq,
Mən töküm üzündən həyanı bir-bir.

## BİR-BİR

Kimə arxalanıb girdin meydana,
İndi danış mənə adəti bir-bir.
Lənət olsun bu meydandan qaçana,
Göstərim mən sənə qüdrəti bir-bir.

Meydan açıb olmamışam naşükür,
Ağladaram səni lap hönkür-hönkür.
Bura gələn yaş yerinə qan tökür,
Bax, verərəm sənə xiffəti bir-bir.

Yavan güvənirsən uzun qoluna,
Heç baxmırsan bir sağına-soluna.
Duruşma Dalğınla, düzəl yoluna,
Göstərərəm hər bəd sifəti bir-bir.

## BİR AXŞAM ÇAĞI

Qız-gəlin yığışıb gələr bulağa,
Bir səhər, günorta, bir axşam çağı.
Hərə bir arzudan söz-söhbət açar,
Bir səhər, günorta, bir axşam çağı.

Görərkən oğlanlar gəlib gimgəyə,
Qızlar ayaq saxlar çatıb döngəyə,
Oğrun-oğrun baxar sevgi sevgiyə,
Bir səhər, günorta, bir axşam çağı.

Dalğın da olubdur yarın qurbanı,
Qadındır ərinin şux çiraqbanı,
Bəziyər nemətlə açıb süfrəni
Bir səhər, günorta, bir axşam çağı.

## BİR DƏ BAX

Gəl alma canımı, ay mina gərdan,
Üzünü döndərib belə bir də bax.
Lalə yanaqların, almaz gözlərin
Qoy salsın üzümə şölə, bir də bax.

Bilirəm, dünyanın yoxdur vəfası,
Bəs yalqız gəzməyin nədir mənası?
Çöllər ceyranısan, sular sonası,
Sən özün üzəsi gölə bir də bax.

Yaxdı Cahangiri ilk baxışların,
Yayı xatırladır qələm qaşların,
Əgər loğmanısan pərişanların,
Möhüb düzən o saf gülə bir də bax.

## BİRİ PUL

Bu dünyada özün bilən bəxtəvər,
Biri qızdır, biri gəlin, biri dul.
Ömrü qısa, adı dildən düşməyən
Biri aydır, biri şamdır, biri gül.

Ariflər fikrini anlasın bayan,
Xoşbəxtdir həyata xoş qədəm qoyan.
Dünyada üç şey var sonu olmayan,
Biri arzu, biri xəyal, biri yol.

Dalğın həm şairdir, həm də ki, ayar,
Tədbir tökər, ümid verər, can qoyar.
Dünyada ən güclü əsas üç şey var:
Biri elmdir, biri seldir, biri pul.

## BİZİ

Yaxın gəl, sevgilim, qınama məni,
Gərdişin nöqsanı ayırır bizi.
El gəlsə bu dərdə çarə tapılmaz,
Bəd yolun zindanı ayırır bizi.

Ağlama, ağlama, fayda yox yaşdan,
Çalış ki, uşaqlar qalmasın dərsdən.
Bir an qoyma gözün onların üstdən,
Qüdrətin insanı ayırır bizi.

Kim gedir, kim qalır, kim gəlir cana,
Əzəldən bəllidir bunlar Dalğına.
Səfərim uzaqdır, şübhə yox buna,
Həyatın qanunu ayırır bizi.

## BİLDİNMİ?

On iki imamı, on iki ayı,
On ikiyə bölüşməyə bildinmi?
On iki tədbirdir, on iki xəbər,
Atəş olub alışmağa bildinmi?

On iki bina var, on iki bucaq,
On iki çeşmə var, on iki ocaq,
On iki bəzirgan, on iki qaçaq,
Yoldaş olub görüşməyə bildinmi?

On iki pəncərə, on iki qapı,
On iki tərəfə edir xitabı.
Dalğın deyər, yüz oxusan kitabı,
Belə işə girişməyə bildinmi?

## BİLƏYDİM

Tapmadın özünə münasib həmdəm,
Davasız dərdimi aça biləydim.
Bəxtimin cilovu keçə əlimə,
Tikdiyim körpüdən keçə biləydim.

Bu həyat mülkündə gəl çaşma yolu,
Bələdçi deyildir hər insan oğlu.
Mən ki doğulmuşam sinəsi dolu,
Ətrini aləmə yaya biləydim.

Dalğınam, demərəm yox idi bəxtim,
Böhtanlar ucundan ağır yük çəkdim.
Niyyətlər içində ən xoş niyyətim
Nakamın əlindən qaça biləydim.

## BİLƏCƏKDİR

Çalış yaxşılıq et müdam xalqına,
Cavan bilməsə də, çal biləcəkdir.
Ellərin gücünə arxalanmasan,
Sonradan-sonraya dil biləcəkdir.

Hafizin yanında dil olar naşı,
Göyləri dəlsə də tacının başı.
Yel vurub gətirər müstəmənd daşı,
Dərbədər etməyə sel biləcəkdir.

Qəvvas gəzər dayazları, dərini,
Arar, tapar mərcanların yerini,
İnanıram mən Dalğının qədrini
Zəmanə bilməsə el biləcəkdir.

## BİLMƏZSƏN

Düşüb sorağıma tapsan da məni,
Adımı gətirə dilə bilməzsən.
Dandın öz əhdini, atdın peymanı,
Mənimlə danışıb-gülə bilməzsən.

Oldun el gülüncü obanın, kəndin,
Yapışdın ucundan hiylənin, fəndin.
Sən mənim duyğumu bilə bilmədin,
İndi daha gecdir, bilə bilməzsən.

Vəfasızsan, bir də qınama məni,
İlk günlər nə sayaq sevirdin məni.
Vurduğun yaranın nişanəsini
Dalğının bağrından silə bilməzsən.

## BİXƏBƏR

Sinəni qabardıb demə “mənəm-mən”,
Üz tutub gedirsən hara, bixəbər?
Gen dünya başına dar olar birdən,
Sürüşüb düşərsən nara, bixəbər.

Havada uçmaqla tərlanam desən,
Boz dovşan ovlayıb aslanam desən,
Meydana vəlvələ salaram desən,
Çəkilərsən onda dara, bixəbər.

Dalğından dərsini öyrənsən kamil,
Ucalar şöhrətin, artar ilbəil.
Yaraqsız olarsan, batırarlar mil,
Bilməzsən boynunu bura, bixəbər.

## BU YERDƏ

Tərsinə döndərib fələk bəxtimi,
Dedi olacaqdır binan bu yerdə.
Razı qaldım mənə verən payına,
Gördüm yoxdur dinlə iman bu yerdə.

Böyüyüb yetsəm də mən boya-başa,
Həsrət qaldım doğma bacı-qardaşa.
Rast gəlmədim düz ilqarlı sirdaşa,
Durduqca hey atır düşmən bu yerdə.

Dalğınam, yurdumdan düşdüm aralı,
Sinəm yaralıdır, ürəyim dağlı.
Yəqin ki, taleyim kədərlə bağlı,
Gündən-günə oldum peşman bu yerdə.

## BUYUR GƏL

Gürcüstan elindən Azərbaycana
Ey qələm yoldaşım, şair, buyur gəl.
Sən qədəm qoyduğun geniş yollara
Günəş şöləsini yayır, buyur gəl.

Röyada asandır düşməni tutmaq,
Çox çətindir yatan bəxti oyatmaq.
Səninlə görüşüb ixtilat qatmaq,
Köksümün telləri deyir, buyur gəl.

Mən sənə məftunam, ay kamil ustad,
Biz gəldi-gedərik, qalasıdır ad.
Eşqin atəşindən etdiyim fəryad,
Ərsin ləngərinə deyir, buyur gəl.

Duymadım məlahət hər uca səsdən,
Onunçün sözümü deyirəm pəsdən.
Verdiyin öyüddən, verdiyin dərsdən
Bəlkə də olaram şair, buyur gəl.

Dalğınam, yetincə təngi-nəfəsə,
Günü-gündən könlüm gəlir həvəsə.
Demirəm dönəydim qızıla-misə,
Əgər dediklərim dəyir, buyur gəl.

## BÜLBÜL

Tikanlı, yovşanlı bu biyabana
Nə olub düşübsən avara, bülbül?!
Solar həsrətindən güllü bağçalar,
Söyləmə dərdini şahmara, bülbül.

Mən bu gün səyyadam, şikar gəzirəm,
Bir günlük hicrana çətin dözürəm,
Qələmi götürüb namə yazıram,
Apar ver yarıma aşkara, bülbül.

Dalğının sözünə nahaq deməzsən,
Gülzara qayıtsan qəm də yeməzsən,
Dünyanı gəşt etsən tapa bilməzsən
Təkliyin işindən səmərə, bülbül.

## BİZİM ARVAD

Lap mənim könlümün pərişan vaxtı,
Oynadır göz ilə qaş bizim arvad.
Mənimlə cəng edib duran olarsa,
Başına tez salar daş bizim arvad.

Hər bülbül ötkündür gül budağında,
Qar çox ömür sürür sənan dağında.
Evə gəlsən onun məlul çağında,
Sinəmə gətirər coş bizim arvad.

Sirr açmaz heç kəsə, hər nə danışsan,
Əlüstü bitirər, bir iş tapşırsan.
Bilməyib könlünü nagah sındırsan,
Axıdar gözündən yaş bizim arvad.

İşin tərsliyindən üzüm gülməsə,
Cibimə bir şahı qazanc gəlməsə,
Axşama yeməyə çörək olmasa,
Uşağa bişirər aş bizim arvad.

Arif olan işin bilər sərindən,
Arvad gərək şaddax ola ərindən.
Cahangir, arzula, dilə dərindən,
Yaşasın yüzcə il kaş bizim arvad.

## BİLMİRƏM

Bəxtimin kələfi elə dolaşıb,
Sanki sehirlidir, aça bilmirəm.
Dünyaya gələndə nura bələndim,
Bu şövqü ətrafa saça bilmirəm.

Yoxdur bir axtaran, yoxdur soruşan,
Yoxdur bir küsdürən, yoxdur barışan,
Yoxdur qucaqlayan, yoxdur sarışan,
Səbəbini hələ seçə bilmirəm.

Gendən baxıb, elə bilmə yorğunam,
Saza, sözə körpəlikdən vurğunam.
Cahangirəm, quş qanadlı Dalğınam,
Heyif ki, çırpınıb uça bilmirəm.

## CAVAN BƏXTİM

Bizim dünyamızın xoş səfası var,
Onu damağında əz, cavan bəxtim.
Arzusuz ömürün nə mənası var,
Özün anlayıbsan,  cavan bəxtim.

Biz Adəm nəsliyik, var iradəmiz,
Dünyaya nur saçır əməllərimiz,
O qadir Allahdır bizim fəxrimiz,
Sən onun eşqiylə gəz, cavan bəxtim.

Yaranmışıq biz də bircə anlığa,
Nail olmalıyıq gözəl varlığa,
Gəl son qoyaq bir yol höjnə qalığa,
Nəsillərə elə yaz, cavan bəxtim.

Gənclik bir günəşdir, kim bilmir məgər?
Göyün zirvəsinə yüksələn səkər.
Hər işi axşama saxlasan əgər
Yoracaqdır səni tez, cavan bəxtim.

Arxalan ilhamı verən elinə,
Dalğın, qadağa qoy şirin dilinə.
Haqqın kitabını alıb əlinə
Götürmə üstündən göz, cavan bəxtim.

## CEYRAN

Sevimli şairin dil əzbərisən,
Necə ki, demişdi çöllər qızısan.
Deyirlər, mələk var, o da ki, sənsən,
Gəzdiyin zamanı, çəməni, ceyran,
Vurğunu yada sal, həm məni, ceyran.

Bir ovçu olmayıb o vaxtdan belə,
Ürəyimə vursun alovlu güllə.
Bir sümuzər kimi ellərdən elə,
Vurğunu yada sal, həm məni, ceyran.

Eşitmiş olsan da tüfəng səsini,
Arxayın-arxayın al nəfəsini.
Hayana istəsən öz sürüsünü
Üst apar çöllərin mehmanı, ceyran,
Vurğunu yada sal, həm məni, ceyran.

## ÇIXARSAN

Yaxşılıq eləyib çaya atginən,
Gəmin batsa axa-axa çıxarsan.
Mərd olub olana şükür eləsən
Azı tapmasan da, çoxa çıxarsan.

Eldən utanası işə əl atma,
Əcəl yatağında arxayın yatma,
Dünya bəzəyinə insanı satma,
Dara düşsən açıb yaxa çıxarsan.

Yaxşılıq eləyib daldan danışma,
Heç bir zaman yaman işə qarışma,
Tanımadığın yolu dönüb soruşma,
Azdırarlar səni, dağa çıxarsan.

Gülmə hüsnü gözəl olan kasıba,
Gözəllik qalmadı çünki Yusifə,
Çox şəhər boşalıb, çox da qəsəbə,
Bir gün əcəl gələr, yoxa çıxarsan.

Dalğın deyər, aşkar oldu pünhanım,
Fikrimdə seyr edir küllü cahanım,
Heç deməynən məğlub olmaz meydanım,
Çarxın dönər, dala baxa çıxarsan.

## ÇÖLLƏRƏ

Şair könlüm qönçə kimi açılır,
Düşəndə güzarım bizim ellərə.
Əsərlər növbəyə durur sinəmdə,
Baxanda öz zərif gözüm çöllərə.

Çoban tütək çalar, mələşər quzu,
Durna qatarının yerdədir gözü.
Tükənərmiş şair olanın sözü
Gələndə göpgözəl yazım çöllərə.

Dalğının sevinci indi qeyridir,
Xoş günün səbəbi alın təridir.
Hər bir qarış torpaq el nemətidir,
Onunçün vurğunam özüm çöllərə.

## DAĞLAR

Cüyürlü, ceyranlı yaylaqlarına
İlk dəfə düşübdür güzarım, dağlar.
Yerdəki ab-hava başqa nemətdir,
Sizinlə fəxr edir Azərim, dağlar.

Dolayların ilə çıxanda başa,
Doymaq olmur etməyindən tamaşa.
Çadırlı yamaclar, cökəli meşə,
Hər yanın olubdur öz yerim, dağlar.

Zənbur hər çiçəkdən bir şirə çəkər,
Burda ömür sürən qocalar məgər?
Dalğınam, iş düşüb gəlməsəm əgər,
Sizə qonaq gələr öz yazım, dağlar.

## DANIŞ

Adam oğlu, bir məclisə varanda
Yerin tanı, ağır otur, az danış.
Yüz suala bir kəlməynən ver cavab,
Yaxşı dinlə, aşkar dillən, düz danış.

Səkkiz şey var bu dünyanı tutandı:
Abi-həyat, xaki, badi əyandı.
İncil, Zabur, Tövrat, bir də Qurandı,
Qəlbinə onlardan əvvəl yaz, danış.

Sərinə cəm olub əgər pur-kamal,
Odur xoş camalın, odur cah-cəlal.
Bildiyin ayədən kim sorsa əhval,
Heç bir kəsə eləməmiş naz, danış.

Danışmaq istəsən kəlmələri seç,
Ayıb deyil versən cavabını gec,
Etdiyin söhbətin olmamaqçün vec,
El alırsa mənasından həzz danış.

Qürbətə özünü öyrətmə əsla,
Qonşu pis olsa da, məhəbbət bəslə,
Nə vaxtsa görüşsən bir qərib kəslə,
Cəld başa düş, xoş başa sal, tez danış.

Kəlməni dilinə gətirən zaman
Bilməlisən əvvəl aşkardır, pünhan.
Səni bir dinləyən bəlkə şər insan,
Ətrafa yetirib hərdən göz, danış.

Qəlbini pak elə, fikrini düzgün,
Açginən kitabı, baxginən yüz gün.
Çatıbsa mətləbə əgər bir azğın,
Dəhanın içinə salıb köz, danış.

Nanəcib don geyər oddan əyninə,
Nalayiq işləri salar meylinə,
Nə qədər danışsam batmaz beyninə,
Bir danışma, istəyirsən yüz danış.

Çox bilirəm deyə döymə döşünə,
Ariflər tez bələd olar işinə.
Əgər gəlmir nəsihətlər xoşuna,
Yer özünü küçələrə gəz, danış.

Gözəllik olsa da al yanaq üstə,
Mərifət duyulur hər sınaq üstə,
Qocaya yer göstər, dur ayaq üstə,
Ondan heç vaxt yorğun olmaz diz, danış.

Kişiyə yaraşmaz heç əskik cəhət,
Mənasız gülməyə etməyin adət.
Dalğına edincə çox uzun söhbət,
Xoşa gələn iki kəlmə söz danış.

## DEDİ

Ustadım dünyadan köçüb gedəndə
Dörd sözü otuz bir mənada dedi.
O, öpdü üzümdən, basdı bağrına,
"Afərin" mən sirri duyanda dedi.

O, mənə öyrətdi uşaqlıq nədir,
Körpəlik, cavanlıq, qocalıq nədir.
Xalq nədən yarandı, ora da gedir,
Qoca da, körpə də, cavan da, dedi.

Dalğın, çox dadlıdır verdiyin ehsan,
Sən tək varmı məni duyan görəsən?
Bir neçə qatar söz o vaxt deyərsən,
Sən məni məzara qoyanda, dedi.

## DEMƏK

Arif olan özü çəksin hesabı,
Nəyə lazım bu mənada çox demək.
İyid qurşanarsa qılınc-qalxana,
Ar deyilmi döyüşlərdə "ox" demək.

Əzəldən belədir Haqqın yazısı,
Eyş-işrətdir ağıllının qəzası.
Kimin çatışmırsa ağlı-zəkası,
Heç olarmı eləsinə tox demək.

Dalğınam, dərsimi aldım ustamdan,
Yerdə xəbər verrəm göy büsatından.
Nə utanma, nə qısqanma insandan,
Ayıb deyil olmayana "yox" demək.

## DEMƏSƏYDİN

Bu eşqin oduna qovrulmaz idim,
Əzəldən sən mənə yar deməsəydin.
Səndə ki, düz ilqar yoxmuş, ey dilbər,
Dilin düşərdimi, var deməsəydin.

Döndərmiş olsan da məndən üzünü,
Qəm yaşları nəm etməsin gözünü,
Səni unutmazdım ömrün uzunu,
Sürdüyümüz dövrana “dar” deməsəydin.

Dalğınam, ilhamı alıram eldən,
Dolanıram kənar fitnəli dildən.
Mən ölüncə səni silməzdim dildən,
Bu tərlan könlümə sar deməsəydin.

## DEMƏMİŞƏMMİ?

Böyüksüz böyüyüb, böyük görməyən,
Bir məclisə getmə, deməmişəmmi?
Arif məclisində dolu baş gərək,
Xəbərsiz yan ötmə, deməmişəmmi?

Öyrənginən ariflərdən naşını,
Gücün çatmır atma atan daşını.
Elindən bixəbər rahat başını
Hara olsa dürtmə, deməmişəmmi?

Çalış düşməyəsən namərd çənginə,
Dözməzsən sən onun vecsiz hənginə.
Ümid olub sən bir şair Dalğına,
Çox arxayın yatma, deməmişəmmi?

## DEYİR

Görüm könlüm nə qərara gəlibdir,
Durub öz-özünə “dəliyəm” deyir.
Sərbəsər beş kəlmə deyə bilməyən
“Şairlik elmindən halıyam” deyir.

Sənətin yolunu mükəmməl öyrən,
Könül, sən özünsən hər işi görən.
Bataqlıq içində kökü göyərən
“Şeyda bülbüllərin gülüyəm” deyir.

Vaxt çatıbdır, könül, bir şöhrət qazan,
Ağıllıdır belə işlərə dözən.
On gün xəyallaşıb üç xana yazan,
“Elm, mərifətlə doluyam” deyir.

Cahana başıboş gələnlər çoxdur,
“Mən Vurğun kimiyəm” deyənlər çoxdur.
Açsam boxçasını mətahı yoxdur,
“Aləmə şöhrət bəlliyəm” deyir.

Bisavad Dalğına etmə ayıbı,
Görən şairlərin varmı sahibi?
Üzdə söz deməyə heç gəlmir təbi,
Özüsə “çoxundan aliyəm” deyir.

## DEYİRLƏR

Bugünkü məclisdə, ey əzizlərim,
“Bir yenicə dastan danış” deyirlər.
Eşqin həvəsini ağam buyurub,
“Pərvanətək odda alış” deyirlər.

Zatından bəd olan ilqar gözləməz,
Bir şey köhnə olsa heç təzələnməz.
“Yarımçıq qananın eyninə gəlməz
Nə bahar, yay, payız, nə qış” deyirlər.

Ömürdən gün, həftə, ay, illər keçir,
İnsanlar yenə də bir mətləb seçir.
Çoxusu əkdiyi zəmini biçir,
Eləsinə “yenə çalış” deyirlər.

Bülbüllər həmdəmdir bahar, yaz ilə,
Necə ki, aşıqlar telli saz ilə,
Ömürlük küsdüyüm sərvinaz ilə
Ən yaxın dostlarım “barış” deyirlər.

Dağlardan ucadır sevinc büsatı,
Dalğına ayandır elin baratı.
Tapmaq üçün ən istəkli muradı
“Yol-ərkan biləndən soruş” deyirlər.

## ŞAİR SEVDALIYLA CAHANGİR DALĞININ DEYİŞMƏSİ

**Sevdalı:**

Səndən xəbər alım, ay şair Dalğın,
O nədir ki, həbs içində azaddır?
O nədir ki, göz götürməz günəşdən?
Sanki günə yol göstərən mayakdır.

**Dalğın:**

Sənə cavab verim, şair Sevdalı,
O, xəyaldır, həbs içində azaddır.
Günəbaxan göz götürməz günəşdən,
Sanki ona yol göstərən mayakdır.

**Sevdalı:**

Hansı quşdur, quyruğundan haçadır?
O nə şeydir, minaradan ucadır?
O nədir ki, beşə çatdı, gecədir?
O nədir ki, yatmış olsan oyaqdır?

**Dalğın:**
Qaranquşdur, quyruğundan haçadır,
O şöhrətdir, minaradan ucadır.
Yatsı namaz çatdı, şəksiz gecədir,
O, ürəkdir, yatmış olsan oyaqdır.

**Sevdalı:**
O nədir ki, hey dolanır mahalı?
O nədir ki, yoxdur onun zavalı?
Sorur səndən Sevdalı bu əhvalı,
Heç kim bilmir yaxındır, ya iraqdır?

**Dalğın:**
O xəbərdir, hey dolanır mahalı,
Həqiqətdir, yoxdur onun zavalı.
Dalğın deyir, "əcəl", ey Sevdalı,
Heç kim bilmir yaxındır, ya iraqdır.

## DƏRDİMİ

Sanki mənim bu könlümün şahısan,
Nə ki var canımdan tulla dərdimi.
Dərdimdən bir məxluq zərər görməsin,
Ya ərşə at, ya da çölə dərdimi.

Bənzəyirdin bir vaxt şirə, pələngə,
Sən necə dayandın eşq ilə cəngə?
Boyatmışdın məni solmayan rəngə,
Qızdan alıb verdin dula dərdimi.

Alnıma yazılıb qüdrətdən yazı,
İstəmərəm haram nəzir-niyazı.
Könlümün arzusu, eşqimin özü
Qıyıb sata bilməz pula dərdimi.

Gözüm heç doyarmı qara xalından?!
Xəbərdaram onun hər bir halından.
Lap bezmişəm şərin qilü-qalından,
Yükləsəm aparmaz filə dərdimi.

Cahangirəm, dedim söz qana-qana,
Qələm al, sözümü yaz qana-qana.
Hər cürə nazıma döz qana-qana,
Vaxtıdır, gəl döndər bala dərdimi.

## DƏRDİDİR

Soruşma dərdimi, ay insan oğlu,
Mən çəkdiyim yüz möhnətin dərdidir.
Sevib-sevilməyim olmayaydı kaş,
Puça çıxmış məhəbbətin dərdidir.

Bir ülfət görmədim Ulu Tanrıdan,
Odur mənim hər bəxtimi yatırdan.
Elimdən-obamdan məni ayırdan
Sinəmdəki xəyanətin dərdidir.

Dövrün gərdişinə gəlib nəzər sal,
Varmıdır bir hakimi-düz, dürüst, halal.
Zəhərdən ucuzdur can alan zülal,
Dalğın, dərdin bu zillətin dərdidir.

## DƏYMƏZ

Kimin ki Leylisi yoxdur dağlarda,
Məcnun olub eldən azmağa dəyməz.
Qızıl olmasını təyin etməmiş
Bir qarış torpağı qazmağa dəyməz.

Ağıldır hər kəsə fərmanı verən,
Sabahın işini bu gündən görən.
Varsa aramızda xoş dövran sürən,
Şaddırsa könlünü pozmağa dəyməz.

Ən şirin sərvətdir zəhmətin təri,
Qədrini bilməyən var hərdən biri.
Gənc nəslə zidd olan dəyərsiz şeiri
Dalğın deyər, məncə, yazmağa dəyməz.

## DOLANDIRIR

Fələyin hökmünü siz bundan bilin,
Neçə bir vilayət, el dolandırır.
Dünyanı yetirib həddi-buluğa,
Qırx səkkiz həftəni il dolandırır.

Özümün bağında bağban olmuşam,
Açılan güllərdən qönçə dərmişəm,
Qulağım eşidib, gözlə görmüşəm,
Çoxunu bir yaltaq dil dolandırır.

Bircə kəsin işi düşməsin tərsə,
Ellər yıxa bilməz əgər haqq tiksə,
Yüz hakim işimi təftiş eləsə
Görəcək Dalğını əl dolandırır.

## DÖNMƏSİN

Könlüm öz-özünə nəsihət edir,
Səfalığın bəd nişana dönməsin.
Sal meylini halal haqqa-hesaba,
Gözlə, taxtın Süleymana dönməsin.

Səninlə rəftarı kim etsə sadə,
Çalış ki, mənasız keçməsin vədə.
Gah Quran götürdün, gah da mey, badə,
Elə iç ki, şərab qana dönməsin.

Öz ağlımın sayəsində böyüdüm,
Çoxunu gətirib yola öyüdüm.
Haramzadalardan ibrət götürdüm,
Arzum budur, muş aslana dönməsin.

Zambur pətəyində bal ola gərək,
Zərgaran deyəndə ləl ola gərək,
Günahkar bəndələr lal ola gərək,
Pünhan işi bir dastana dönməsin.

Cahangir Dalğınla gəl etmə yarış,
Mərifət götürüb ellərə qarış.
Sonra gec olacaq, indidən çalış,
Xoş baharın zimistana dönməsin.

## DÖNDƏRDİN

Mən sənə neylədim, ey zalım fələk,
Sevincimi tez peşmana döndərdin?!
Qoymadın iyləyəm gülün ətrini,
Güllərimi ağ yovşana döndərdin.

Bir mən deyiləm ki, düşən bu nara,
Külli-aləm əlindən gəlibdir zara,
Şahinin yurdunu tapşırdın sara,
Aslanı da boz dovşana döndərdin.

Cahangir Dalğın da olub nigaran,
Söylərdi olsaydı əhvalın soran.
Mən and da içərəm götürüb Quran,
Doğmaları sən düşmənə döndərdin.

## DÜNYA

Gör nəyə qadirsən, bilinmir yaşın,
Salıbsan əbədi məskəni, dünya.
Neçə qəhrəmanlar xof etdi səndən,
Özünə götürdün ad-sanı, dünya.

Kimiyə bir toysan, kimiyə matəm,
Sənsən ancaq yıxan, qolundan tutan.
Bilən yoxdur hardan toxunur sitəm,
Saysız sənətkarın dastanı, dünya.

Min ilham alıram hər büsatından,
Görən olacaqmı yaşlar axıdan,
Parlaq gələcəkdən, gözəl həyatdan,
Sən ayıran zaman Dalğını, dünya.

## DÜŞƏRSƏN

Öyünüb özünü atma qabağa,
Nahaq yerdə gəlib qana düşərsən.
Tanımamış hər yetənə sataşma,
Utanarsan, çox ziyana düşərsən.

Gəl ötmə qabağa, öz yerində dur,
Səsinə ver qadağa, çox etmə gur,
Daşın parçasından çıxarmasan dürr,
Arif məclisindən yana düşərsən.

Əgər ustasısan incəsənətin,
Açginən üstünü bu həqiqətin.
Elində mindirsə sənin qiymətin,
Buralarda bir tümənə düşərsən.

Çox düşmüsən belə betər hallara,
Azdırıb yolunu sallam kollara,
Danasan, sürtünmə kəlçə-kəllərə,
Bir zor gəlləm, vay-amana düşərsən.

Dalğın salar səni bir elə bərkə,
Dostların bacarmaz kənara çəkə,
Çox qələt edərsən başından yekə
Bir də gəlib Varxiyana düşərsən.

## DÜŞÜBDÜR

Qızım Şövkət, qafil olma həyatda,
Şair adın eldən-elə düşübdür.
Arxayın ol mənim fəxrim, Gülbahar balam,
Yerlərin dildən-dilə düşübdür.

Tanı biilqarı, könül bağlama,
Aslanın pəncəsi dəysə ağalama,
Qədirbilməzlərlə çaytək çağlama,
Görəcəksən yolun lilə düşübdür.

İlan balasına yedirsən şəkər,
Yəqin bil əvəzi olacaq zəhər.
Ailənizlə olun siz xoş təhər,
Mənimsə bəxtimə qala düşübdür.

Dalğın asi deyil haq tədbirindən,
Razıdır verdiyi oylaq yerindən,
Bir insan ki ensə bəxt yəhərindən,
Bil ki yaman çətin hala düşübdür.

## DÜŞÜBDÜR

Tale hökmdardır, zamana hakim,
Bizim elə şeş atanlar düşübdür.
Çox gözəl məktəbdir həyat yolumuz,
Ora hafiz, həm nadanlar düşübdür.

Dövrün gərdişinə deyiləm asi,
Viranə gülşənin olmuşam xası.
Ümidəm silinər qəlbimin pası,
Qismətimə çox böhtanlar düşübdür.

Firdovsi, Xaqani, Nəsimi, Vaqif,
Zindanda xalqına yazdılar tərif.
Qızıl tac qoyam, vursa bir hərif,
Son payıma boz kətanlar düşübdür.

Məhəbbət yolçusu, eşqin sərvəri,
Neyləsin tərsinə dönsə məhvəri.
Qazamat icaddır Adəmdən bəri,
Şəhər alıb, həm satanlar düşübdür.

Bu elə məskəndir, elə bir yuva,
Qoxusu əcəldir, şadlığı duva.
Sürgün təməlini qoyubdur Havva,
Aldananlar, aldadanlar düşübdür.

Yoxsula göz dikən, varlını yıxan,
Göyün şimşəyi tək aləmə çaxan,
İçində məst olub kənardan baxan,
Vicdanını tez satanlar düşübdür.

Qızım Şövkət, gəl qınama Dalğını,
Atan olub viranələr yorğunu.
Mən olsam da ananızın vurğunu,
Aramıza şər qatanlar düşübdür.

## DOSTLAR

İstəsəniz məni yada salmağa,
Yazdığım sözləri oxuyun, dostlar.
Siz ayaq kəsməyin bizim diyardan,
Gələndə bizə də toxunun, dostlar.

Yeni bir bağbanam, becərmişəm bağ,
Xidməti edirəm bildiyim sayaq.
Göndərirəm sizə hər güldən yarpaq,
Onların ətrini qoxuyun, dostlar.

Parlaq gələcəyə olduqca düçar,
Dalğının qəlbində xoş günlər açar.
Dost sevən insana köməklik baçar,
Dost sevməzə kəfən toxuyun, dostlar.

## DİŞİMİ

Başına döndüyüm, möhtərəm həkim,
Salmalısan bir təhərə dişimi.
Səbrimin qərarı sona yetibdir,
Qopar, tulla bir tərəfə dişimi.

Kərəm kimi alışmışam, yanmışam,
Neçə gündür iş-peşəmdən qalmışam,
Günah özümdədir, mən saxlamışam,
O bahardan bu bahara dişimi.

Həkim, gözlərinlə Dalğına baxsan,
Çətini də olur eləmək asan,
Huşumu itirrəm, bir də saxlasan,
Bu səhərdən o səhərə dişimi.

## EHTİYAC

Hakimi qul edir, qulu nabəndə,
Peyda olsa bir mahala ehtiyac.
Gözlərim görənə canlı şahidəm,
Təkan verir qilü-qala ehtiyac.

Şeytana dost deyir, möminə düşmən,
Zahirdə şad olur, batində peşman.
Deyirəm nədəndir olan çaxnaşman,
Deyir ziddir pürkamala ehtiyac.

Hər tarix danışır öz dəhşətini,
Ehtyac tanıyır bəxti bitəni.
Murada yetməyən çox növrəstəni
Könlünü bağladır dula ehtiyac.

Haqqın gərdişinə yetirsəm de göz,
Heç kim deməz onun fərmanına söz.
O bəndə ki xalqa yağdırırdı köz,
Onu da döndərib qula ehtiyac.

Çəkdiyin bəlalar yadımdan çıxmaz,
Mərd olan özgənin əlinə baxmaz.
Gördüyümü desəm kitaba sığmaz,
Gəncləri döndərir çala ehtiyac.

Varın qüdrətinə baş əyir dağ da,
Ariflər düşünsün dediyin haqda.
Biçarə Dalğını qürbət oylaqda
Salıb gördüyünüz hala ehtiyac.

## ETİBARSIZ

Mən səni qəlbimdən atmışam, inan,
Sən məni qəlbindən at, etibarsız.
Sara tay elədin tərlan könlümü,
Get sarıl şahmara, yat, etibarsız.

Adətdir, bivəfa dosta quy qazar,
Gördüyümü görüb olmuşam bezar.
Müştəri toplayıb açıbsan bazar,
Vicdanı nadana sat, etibarsız.

Əməlin bəllidir obaya, elə,
Salıbsan özünü çıxılmaz selə,
Dalğını bir daha gətirmə dilə,
Etməynən özünü mat, etibarsız.

## ELƏMƏZMİ?

Yaxşı arxa, yaxşı səxa, xoş güzar,
İnsanın könlünü şad eləməzmi?
Yaxşı arvad, yaxşı züryət, yaxşı at,
Hərdən səni anıb yad eləməzmi?

Bağbansız bağçada gəzinməz şeyda,
Yarın məskənindən sənə nə fayda.
Laçınlar qarğadan istəsə qida
Nəslinə bir əskik ad eləməzmi?

Aslanın balası əmsə tülkünü,
Yenə də anlamaz xofu, hürkünü.
Dəvəyə yükləsən filin yükünü
Gözündən yaş töküb dad eləməzmi?

Bir kamil atadan öyüd alan kəs,
Cahanı gəzməyə eliyər həvəs.
Ay Dalğın, öyüdsüz yaşasan əbəs,
O düşmənlər səni mat eləməzmi?

## EY DOST

Qartal yırtıcıdır, zoradır bəhsi,
Bülbülün xoşluğu dildədir, ey dost.
Yarın sevilib-sevilməməsi
Canlı şahidləri eldədir, ey dost.

Hər köklü ağacın olmur ki, barı,
Xəlbirə tökməklə dayanmaz darı.
Bəlkə də bilmirsən, mən deyim barı:
Qiymətli sümüklər fildədir, ey dost.

Hər fəslin vətənə bir xeyiri var,
Baharsız tumurcuq  açmaz ağaclar.
Dalğın kimi ona olan müştaqlar
Muğanda, Şirvanda, Mildədir, ey dost.

## EYLƏYİR

İnsanı sevincə, qəmə tuş edən,
Bizi xəlq eyləyən fələk eyləyir.
Dövran qəmxanadır, hakim cadügar,
Kimi şeytan, kimi mələk eyləyir.

Baharın nəsimi çatanda bizə,
Bənövşə yad kimi görünür gözə,
Bülbül başlasa da nəğməyə, sözə,
Görərsən ona da kələk eyləyir.

Bura məskənidir min ahu-zarın,
Hər biri qoruyur namusun, arın.
Dalğın bağlayıbdır Haqqa ilqarın,
Hər gecə, hər gündüz dilək eyləyir.

## ƏLİNDƏN

Səyyad olub çıxdın dağlar döşünə,
Bulmadın şikarı duman əlindən.
İsgəndər dünyada əliboş getdi,
Alsa da xəracı ümman əlindən.

Bəxşeyiş edərəm mərdə səxamı,
Əgər əkinçidir şumlasın xamı.
Canımı, başımı, bir də yaxamı
Qurtara bilsəydim yaman əlindən.

Cahangir, hər sirri aça bilməzsən,
Qanadsız bir quşsan, uça bilməzsən,
Ümmana da cumsan qaça bilməzsən,
Yaradan verdiyi fərman əlindən.

## ƏFSANƏDİR

Vaqif də cahanda şad gün görmədi,
“Ədalət” kəlməsi bir əfsanədir.
Nəsimini al qanlara qərq edən,
Həqiqət axtaran bir təranədir.

Yol gələndə daş oynayar yerindən,
Gahdan ötüb-keçər biri-birindən.
Qəvvas əgər xəbərdarsa dərindən,
Gəminin sükanı ləl, dürdanədir.

Gecə var buludlu gündüzdən ağdır,
Dalğın, elə söz var çəkidə dağdır.
Piltə şox salsa da dərmanı yağdır,
Oduna alışan min pərvanədir.

## ƏZABLI

Fələk məni xəlq edəndə cahana
Eləyib bəxtimi qara, əzablı.
Zamana şeytanı girdi min dona,
Gətirib çoxunu zara əzablı.

Laçın yuvasına girib yapalaq,
Nərə hökm eləyir hər uzunqulaq.
Köhlən qiymətinə satılır daylaq,
Baxan yoxdur bu bazara əzablı.

Zaman rübabından ucalan avaz,
Yüzündən birini eləyər pərvaz.
Dalğına ağzını açdı keçəl qaz,
Salıbdır düşdüyüm dara əzablı.

# ƏZİZ

O keçən günlərin xatirəsinə
Dilimdə yazılıb qalıbsan, əziz.
Qəflət yuxusuna oldum giriftar,
Meylini şahmara salıbsan, əziz.

Dünən mehribandıq, bu gün müddəhi,
Könlümü açarmı səhərin mehi?!
Gözümdən süzülən bir damla şehi
Hicran şərbətinə qatıbsan, əziz.

Dalğın yüz yaşasa keçinər yarsız,
Səhra da yaşayır bağçasız-barsız,
Gül kolu gül açmaz, qalsa bağbansız,
Deyəsən məni də atıbsan, əziz.

## GEDİRSƏN

Ey mənə əzəldən "can-can" deyən yar,
Üzünü döndərib hara gedirsən?
Düşmən bazarına çəkib qul kimi,
Qəsd eləyib sevən yara gedirsən?

Güldürən güləcək, yandıran yanar,
Vəfasız gözəllər yarını danar.
Bilmədinmi könül şüşədir, sınar,
Eyləyibən parça-para, gedirsən.

Yaxşı saxla etdiyini yadında,
Çatdın harayıma hansı dadımda?
Nə üzlə sən yeddi bala yanında
Dalğını çəkdirib dara gedirsən?!

## GETDİLƏR

Ey insan, ayrılma səxavətindən,
Bax necə Cəmşidlər qoyub getdilər.
Kim gəldi pəhrizkar ana bətnindən,
Dünyada təmiz ad qoyub getdilər.

Mərd olan ağlayar elin halına,
Dözər həyatının cəng-cidalına.
Kim yetib Qırxların pür kamalına,
Oluban şərəfə sahib getdilər.

Dalğını dünyada yaşadan qüvvə,
Udacaq bir günü dönərək divə,
Kefə gedən gəlməz bir də bu evə,
Bizdən əvvəlkilər doyub getdilər.

## GƏL

Var sənə minnətim, ay sərvinazım,
Tumar çəkib qaşa, qara telə gəl.
Gey libasın, yandır paxıl insanı,
Qızıl toqqa bağla incə belə, gəl.

Məclisimiz gəlməz avaza sənsiz,
Sofular başlamaz namaza sənsiz,
Mən ölsəm getməsin cənazə sənsiz,
Hələlik mən sağam, gülə-gülə gəl.

Sevirsənsə məni, olum arxayın,
Bil Dalğındır sənin bənzərsiz tayın.
Əgər oxsuz qalsa meydanda yayın,
Bu eşqli sinəmi dələ-dələ gəl.

## GƏL-GƏL

Tavar sazı zilə çəkib dayanma,
Danış mətləbini, meydana gəl-gəl.
Göstər bu aləmə xoş avazını,
Dayanma kənarda, yaxına gəl-gəl.

Gəl oxu meydanda bir neçə qatar,
Gör kimlər oturar, gör kimlər yatar.
Atdığın qanlı ox, bax kimə batar,
Tez boylan o yana-bu yana, gəl-gəl.

Dalğın, xəzan deyil, soldurma gülün,
Tellərin üstündə əsməsin əlin.
Çox şirin ləhcəli söz saçan dilin,
Gətirir canımı cazana, gəl-gəl.

## GƏLGİNƏN

Şeytana lənət de, vəfasız yarım,
Küsmə məndən, ay can alan, gəlginən.
Mən sənin dərdini bilməsəm əgər,
Halım olsun daha yaman, gəlginən.

Küsməyə sən özün vadar elədin,
Çox etsən də "ay can, aman", gəlmirəm.
Xəstənin qorxusu ölüncə olur,
Salsan da boynuma kaman, gəlmirəm.

Deyirlər ki, ər-arvadın döyüşü,
Necə olur yaz fəslinin yağışı.
Hər nə olub, eyləyirəm barışı,
Çox edirəm sənə güman, gəlginən.

Belə sözlər məlhəm olmaz yarama,
Məni daha nə axtarma, arama.
Bivəfam, meylimi sallam harama,
Dolansa yüz çarxı-zaman, gəlmirəm.

## GƏLİRƏM

Daha  mənim həsrətimi çəkməyin,
Oxundu üzümə fərman, gəlirəm.
Xəbər ver dostlara, qursunlar məclis,
Oldum sinəm dolu umman, gəlirəm.

Sən gördüyün gəncəm, həm dəli-dolu,
Ölüncə olmaram namərdin qulu.
Mərdin bu dünyada genişdir yolu,
Çəkilib yolumdan duman, gəlirəm.

Çarəsi olmayıb bircə ölümün,
Düşübdür boynumdan kəməndi zülmün.
Tapıldı loğmanı xəstə könlümün,
Dalğınam, mən sizə mehman gəlirəm.

## GƏZƏSƏN

Nə yaman olurmuş sevdan, ay gözəl,
“Yar” deyibən bu cahanda gəzəsən.
Səni görüm dərdli ölsün o anan,
Əl qoynunda obalarda gəzəsən.

Sevən yarın heç olmasın, ay gözəl,
Əkdiyin gül açılmasın, ay gözəl,
Kərəm kimi canın yansın, ay gözəl,
İnsan olmaz diyarlarda gəzəsən.

Dərdə düşüb tapılmasın dərmanın,
Sağlığında bilinməsin heç dərdin.
Qurda-quşa qismət olsun bədənin,
“Ölüm” deyib biyabanda gəzəsən.

## GƏZİRƏM

Ləl, yaqut, gövhərin xəznəsi mənəm,
Demişəm, deyirəm, bəli, gəzirəm.
Vəfalı dostlardan alıb ilhamı
Geniş obaları, eli gəzirəm.

Səbrimdə qərar yox, taledə hökm,
Nər çəkməz bu dərdi, mən necə çəkim?!
Bircə bu aləmə qalıbdı ərkim,
Görüm nə olacaq dalı, gəzirəm.

Cahangir Dalğınam, həkimi-loğman,
Sinəmdə eşqli dərdim var yaman.
Könüllər könülə qovuşan zaman
Sevindirib gənci, çalı, gəzirəm.

## GƏZİRƏM

Yorulmaq bilmədən, eşqin ucundan,
Pərvana tək sönməz şamı gəzirəm.
Hicrana, həsrətə, kədər, möhnətə
Gətirmişəm çox davamı, gəzirəm.

Göylərin sirrini öyrəndim yerdən,
Məhəbbət sevdası çıxarmı sərdən.
Yer-göyün şahbazı ol təbiətdən,
Tapmadığım yetkin kamı gəzirəm.

Dalğın tanıyır neçə bir mahal,
Cavaba hazırsan, versələr sual.
Sənətim müxtəlif, çörəyim halal,
Eldən alıb hər ilhamı gəzirəm.

## GÖNDƏRSİN

Cahangirin sözlərini oxuyub,
Nöqsan tapan mənə töhmət göndərsin.
Əsərimdə əgər olsa yalan söz
Eşidənlər mənə lənət göndərsin.

Mən cavanam, yaşım hələ on doqquz,
Məclislərə gedib-gəlirəm pulsuz.
Kimsəm olmasa da döyləm qohumsuz,
Hərəsi mənə bir qismət göndərsin.

Yüz min aşıq gəlsə sinəm boşalmaz,
Hər nadan yanında dilim dolaşmaz.
Cahangirin söz-söhbəti qurtarmaz,
Ölsəm bu el mənə rəhmət göndərsin.

## GÖRMÜŞƏM

Ay ariflər, mən bu qoca dünyanı
Gah boşalıb, gah da dolan görmüşəm.
Göylərə ucalan xam xəyalları
Lap yer ilə yeksan olan görmüşəm.

Şaxtanın zərbindən göyərməz çəmən,
Təbiətə nə hökm eləyəydim mən.
Çiçəklər, qönçələr, nərgiz, yasəmən,
Açılıb, açılıb solan görmüşəm.

Çox yazıqdır kef-damağı bilməyən,
Qaradan silinibi qəlbi gülməyən,
Bir ovuc qızıla belin əyməyən
Ehtiyac qəminə dolan görmüşəm.

Min bir oyunu var ulu Tanrının,
Tapılmaz loğmanı vuran yaranın.
Milyon anaların, milyon balanın
Əlləri qoynunda qalan görmüşəm.

Əzəldən "can" deyib, can bilən aşna,
Qurdu min bir kələk can sirdaşına.
Tutduğu işindən dönüb peşmana,
Əliynən saçını yolan görmüşəm.

Neçə min məhəbbət aşiqi vardır,
Hamının həyatı qəm, ahu-zardır.
Dünyanın gərdişi elə bazardır,
Onun sevdasını yalan görmüşəm.

Zamanın qəminə neyləsin millət,
Gözə görünsə də iş tutur xəlvət.
Dalğın, gəl axtarma heç haqq-ədalət,
Ədalət aranı talan görmüşəm.

## GÖRMÜŞƏM

Dünyaya gələndən bu günə kimi
Nə ədalət, nə haq-divan görmüşəm.
Xalq qanını zəli kimi soranlar
Tikdiriblər qəsri-eyvan görmüşəm.

Bu imiş gərdişi çarxı-fələyin,
Özü başçısıymış fitnə, kələyin,
Karını görməmiş bircə diləyin
Köçüb gedən neçə cavan görmüşəm.

Dolmasam da hələ mükəmməl yaşa,
Göz vursam insanı düşərəm başa.
Cahangir ölməyib dili dolaşa,
Çoxunun sözünü yavan görmüşəm.

## GÖRMÜŞƏM

Xəyanət ucundan qürbət mahalda
Viran qalan öz binəmi görmüşəm.
Vəfasız dilbərin fərmanı ilə
Gözümlə lap cəhənnəmi görmüşəm.

Vəfasız nə bilər qədrini ərin,
Düşgünüdür ancaq libasın, zərin.
Məhbus əri üçün xain dilbərin
Gözündən süzülən “nəmi”görmüşəm.

Dalğınam, hər işdən mən xəbərdaram,
Vəfalı dəlbərə namuslu yaram.
Çəkdiyim zəhmətlər qoy olsun haram,
Mən ki, xain bir sənəmi görmüşəm.

## GÖZƏLİN

Camalı Leyliyə, boyu Minaya,
Bənzəyir qarşıma çıxan gözəlin.
Hər arif anlamaz onun fikrini,
Gülü buxağına taxan gözəlin.

Süzməyi var, sanki göllərdə sona,
Ən xoş gündə o gəlibdir cahana.
Yolunda canımı verrəm qurbana,
Eşqi gözlərindən axan gözəlin.

Bir anda yetirdi zərif əlini,
Tökdü gərdəninə siyah telini,
Dalğın dərə bağçasının gülünü
Hərdən-hərdən oğrun baxan gözəlin.

## GÖZLƏRİN

Sən məclisə şux qədəmin qoyanda
İşıq saldı geniş zala gözlərin.
Eşqinin göləndə qəvvas olmuşam,
Aman vermir sağa-sola gözlərin.

Yaxşı keçən günlər düşübdür yada,
Nə vaxtsız vermisən könlünü bada?
Könlün sevib sən çatanda murada
Gur işıq salardı yola gözlərin.

Bil haqqın dərsini fərq qılmaq üçün,
Məhəbbət var qəmə dalmamaq üçün,
Namərdin əlində qalmamaq üçün
Baxaydı qabağa-dala gözlərin.

## GÖVHƏRİM

Sadə ürəkliyəm, dərin xəyallı,
Dostluq üçün sədaqətdir, gövhərim.
Məclis-mərəkədə, toy şənliyində
İnsana xoş ləyaqətdir, gövhərim.

Yaşayıb-yaratmaq insanın borcu,
Nə fərqi var olsun erməni, gürcü.
Mənasız iş üçün sərf etmə gücü,
Bu bir yaxşı ehtiyatdır, gövhərim.

Bəllidir, səbəbsiz olmayır nöqsan,
Günah sahibisən səbirdən çıxsan,
Gəl düşmə qallara, eşit, hayıfsan,
Dalğından xoş məsləhətdir, gövhərim.

## GÜLƏRMİŞ

Tullantı sulardan olan gölməçə
Dür mədənli gen ümmana gülərmiş.
Sahibsiz otaqda qalan güzgüyə
Gön kəliyən qırıq ayna gülərmiş.

İnsan yaşadıqca işlədər əməl,
Əməli özünə çatar əlbəəl.
Cöngələr burulub diz çökəndə kəl,
Hoha, hiş qanmayan dana gülərmiş.

Dalğın, düşmə ruhdan bəxtin yatanda,
Bil ki iş zərdədir, deyil atanda.
Zambur pətəyindən bal qurtaranda
Çibin vızıldayıb şana gülərmiş.

## GEDİBLƏR

Neçə süleymanlar, neçə İskəndər
Bu fani dünyanı qoyub gediblər.
Bir ölkə malına dəyən libasın
Soyunub, ağ bezi geyib gediblər.

Heyif ki, dil açmır daş qərinələr,
Bilərdik dünyada olubdur nələr.
Cahanın qulpundan tutub gələnlər
Sərv qamətlərini əyib gediblər.

Dilsiz əcdadındır bu qara torpaq,
Onun üçün birdir dahiynən sarsaq.
Ay Dalğın, cənnətə edənlər maraq,
Məhşur əfsanəyə uyub gediblər.

## GÖRÜŞÜM

Kamil usta, salamımı al əzəl,
Arzum var ki, sizin ilə görüşüm.
İnsan kəmtaledir, dünya riyakar,
İstəmədim sizlə belə görüşüm.

Yelkənsiz gəmiyəm dərya içində,
Tükənməz xəznəyəm qaya içındə,
Boğuluram məsum-həya içində,
Mən necə bir xain dillə görüşüm.

Dalğınam, sinəmdə dərdim var ağır,
Kimə nur bələnir, kimə qəm yağır,
Şair, söz ustası Daşqın Məzahir,
Qoy sağ olsun, eldən-elə görüşüm.

## HANI?

Ey dünya, tükənməz sirlərin vardır,
İmamlar sahibi, Həştü çar hanı?
Bəhman, Xəzər xan, mərd Bəhram Çubin,
Rəbiə, Müərri, şah Gəncər hanı?

Ey dünya, bahara sərdin xəzanı,
Nə etdin Yəzdəgürd, Əbü Əlini,
Əmmarətül ilə Pir Şirvanini,
Şiə imamı Sadiqi-Cəfər hanı?

Çox hörmətli idi xanəndə Barbüd,
Cəlaləddin Rumi, Nəbati, Nəmrud,
Əbül Abbas, Şəmsəddin sami, Hörmüzd,
Bəs İsmayıl ilə Bəhmənyar hanı?

Əhrimən, Firidən, Çingiz, Süleyman,
Bəhram padşahnan Məhəmməd Cahan,
Şəmsəddin Eldəgəz, bir də Şah Tüqan,
Onların qulpundan tutanlar hanı?

Firon, Məlik şah, İqlidiş, Hörmis,
Şöhrətə, mənsəbə etdilər həvəs.
Vaxt oldu, tükəndi, gəlmədi həvəs,
Dünyanı zəbt edən İsgəndər hanı?

Sərkərdə Cavidan, qəhrəman Babək,
Onlar bu dünyaya gəlmişdilər tək.
Ərəblərlə etdilər iyirmi il cəng,
Olmuşdu xalqına xilaskar, hanı?

Arif Ərdəbili, Sahib Təbrizi,
Yaradıb-yazdılar gecə-gündüzü.
Ayırdın həyatdan həkim Hörmüsü,
De, işğalçı Nadir şah Əfşar hanı?

Görmədim mən səndə şad olan Mələk,
Ey dünya, səndəymiş hər cürə kələk.
Çox şandan bal soran Əmir Teymurləng
Tərk etdi dünyanı, qalanlar hanı?

Arstotel böyük yunan alimi,
Öyrənə bilmişdi hər cürə elmi.
Əbülhəsən kimi şair deyilmi?
Dalğın, o vaxt dinən o dillər hanı?

## HAYIFSAN

Nanəcibə, biilqara, naqisə
Həmdəm olma, ey sərvinaz, hayıfsan.
Ləbinin dadını ləzzət bilməzə
Heç vaxt qıyma, ey sərvinaz, hayıfsan.

Məndən eşidərsən müdam doğru söz,
Eşqin vüsalına özün yetir tez.
Cənnət mələyi tək gəl qarşımda gəz,
Qəmə dalma, ey sərvinaz, hayıfsan.

Belin çox incədir, baxışın süzgün,
Dərdini çəkməkdən olmuşam üzgün.
Dalğını tapmazsan, gəzsən də yüz gün,
Mənsiz qalma, ey sərvinaz, hayıfsan.

## XOŞ GƏLDİN

Gəncə şəhərindən bizim ellərə
Nəzakətlə qədəm qoyub xoş gəldin.
Razıyam həyatın bu gedişindən,
Sənətkara ülfət qıyıb xoş gəldin.

Sevincdən çeşməmin daşan çağında,
Eşqdən özümün çaşan çağımda,
Bağbanam, bağımın gülşən çağında
Saf ürəklə bizi sayıb xoş gəldin.

Əlindən sıxdıqca sənətkar əllər,
Boşalar bir qədər dolan könüllər.
Səni ki tanıyır bu azad ellər,
Olmaqçün Dalğına sahib, xoş gəldin.

## XALA QIZI

Məktubun alanda artır sevincım,
Olsa da dərdlərim yüz, xala qızı.
Haqqın cəzasıdır, çəkirəm özüm,
Mən dözürəm, sən də döz, xala qızı.

Çoxunun qəlbinə dağ qoyub hicran,
Fələyin özüdür dağıdan, quran.
Sənin məktubunu oxuduğum an,
Hərdən bir yaşarır göz, xala qızı.

Dalğından sizlərə tükənməz salam,
Sən oxu şeirimi, dinləsin xalam.
Xudaya çox şükür, hələ xoş halam,
Özün də xoş halnan gəz, xala qızı.

## İÇİM, İÇMƏYİM?

Əzrayıl duranda başımın üstə
Bu fani dünyadan köçüm, köçməyim?
Min dərdin davası min bir olanda
Dərd ilə davanı seçim, seçməyim?

Heç bilmirəm indi necə eləyim?
Günbəgün daha da artır gileyim.
Sevgilim xaindir, kimə söyləyim,
Bu sirri yadlara açım, açmayım?

Dalğın deyir, kimin bəxti yatıbdır,
Yəqin bilin onu yarı satıbdır.
Öz yarım şəraba zəhər qatıbdır,
Özüm də bilmirəm, içim, içməyim?

## İÇİNDƏ

Burda kimdən dad diləyim, a dostlar,
Naləm vardır, daş qalanır içimdə.
Gecə-gündüz qəfəsdəki quş kimi,
Vurnuxuram qəm-xəyalın içində.

Mən sərrafam, inanmasam sözümə,
Bilirdim ki, yar duracaq üzümə.
Bilə-bilə cəfa verdim özümə,
Sədam düşdü bu mahalın içində.

Taleyimi yazan yazıb məzəli,
Xoşbəxt idim sevməsəydim əzəli.
Sevdim bir xəzana uyğun gözəli,
Bar olarmı bu zəvalın içində.

Nə xəstədir, nə ölüdür, nə diri,
Çalışır çarxımı dondərir geri.
Güman yoxdur yeddi övladdan biri
Vəfa tapa bu iqbalın içində.

Qəlbimi sıxsa da bəlalı güzar,
Dalğının atəşi sönüncə yazar.
Alimlər yetirsin sözümə nəzər,
Yüz məna var bu qəzəlin içində.

## İLİSU

Dağların qoynunda ətirşah kimi,
Dövran sürür o qocaman İlisu.
Halını bilənin olur müştaqı,
İnsanın könlünə daman İlisu.

Suları buzludur, safdır havası,
Cavanı göyçəkdir, pakdır qocası.
Ellərə yetişib hər təmənnası,
Əhdinə eləyir peyman İlisu.

Xalqı sənətkardır, həm də arlıdır,
Ən kasıbı Car bəyindən varlıdır.
Qaynama hamamı hələ bəllidir,
Olub xəstələrə dərman İlisu.

## İNCİMƏ

Məndən salam olsun müjdə edənə,
Hərdən him eləyən gözdən incimə.
Əyrini əyri bil, saxla nəzərdə,
Aləmin içində düzdən incimə.

Bülbül cəh-cəh vurar gül üzərində,
Ördək üzər dayazlarda, dərində,
Bir sözüm vardı sənə yerində,
Özün çox eləyən nazdan incimə.

Mən şairəm, dil ucunda sözüm var,
Marallara gəzmək üçün düzüm var,
Deməyinən mənim səndə gözüm var,
Dalğının dediyi sözdən incimə.

## İNCİMƏSİN

Könül qapılmasın eşqin oduna,
Elə yan, atəşdən çeşt inciməsin.
Əsli kimi Kəreminə sadiq ol,
Elə et, tutduğun post inciməsin.

Sən də övladısan bu təbiətin,
Yapış cilovundan hər həqiqətin,
Heç hədər getməsin bir əziyyətin,
Gəzəndə elə gəz, geşt inciməsin.

Cahangir, zəbanın olsa da çiy ət,
Sözün tam bişibsə saçar təravət.
Hər kimlə dostluq eləyirsən, et,
Edəndə qoy səndən dost inciməsin.

## İNDİ

Qorxum yox aslandan, pələngdən, nərdən,
Mən xəbər söyləyim sonsuz göylərdən.
Dediyim sözlərim təmizdir zərdən,
Alimlər də tapmaz bəhanə indi.

Səyyadam, bərədə əyləşsəm duyar,
Duyanlar daha da yaxşı yol arar.
Hər kim Rüstəm Zalla baş-başa vurar,
Bacarmaz qarşımda dayana indi.

Hər kim görsə mənim belə cəngimi,
Mənə baş endirər elin hakimi.
Dalğın gəşt eləyər qızmış nər kimi,
Bilməzsən, qaçarsan, hayana indi.

## KƏLƏKBAZ

Uzun boyun, uzun dilin gödəlsin,
Məndən betər alışasan, kələkbaz.
Ahu-zarın əzbər olsun mahalda,
Sönməz odda qovrulasan, kələkbaz.

Səni kişi bilib elədim sevda,
Əndərdin başıma bulunmaz qada.
Gedişi-gəlişi salmadın yada,
Keçi kimi qırxılasan, kələkbaz.

Atalar sözünü deyib qocalar:
“Düz ilqarlı gündən-günə ucalar”.
Ər olan borc verər, həm də borc alar,
Dalğın kimi dağılasan, kələkbaz.

## KÖNÜL

Arvada sirr vermə, lütdən borc alma,
Qulluqçuynan dostluq eləmə, könül.
Haramdan baş qaçır, halalı axtar,
Şöhrətinlə yayıl aləmə, könül.

Yaxşını, pisini bil vədəsində,
Bülbülə arxadı gül vədəsində,
Hər işin qeydinə qal vədəsində,
Hər yetənə dərdin söyləmə, könül.

Gözəl olsan, ayıb etmə xuryada,
Sağlığında axirəti sal yada.
Hərdən kefdə olsan, hərdən cəfada,
Haqdan başqasını səsləmə, könül.

Dünya insanları bir-bir daşıdır,
Onun bu işindən çoxu naşıdır.
Yüz lotu sözündən bil ki, yaxşıdır,
Öyrənsən ayətdən bir kəlmə, könül.

Söz şirin olsa da, eşq piyaləsi,
Unutma, lap çoxdur onun cəfası.
Dalğına həyandır mərdlər adası,
Qurban ol, ol qadir Mövlama, könül.

## KİMİ

Şux gözələ hərdən baxmaq savabdır,
Qapından bir qədər ötənə kimi.
Könül quşu qəlb içində tavanmaz,
Sevgililər murada yetənə kimi.

Vəfalıya qurban olsan səfadır,
Bəy ilqara həmdəm olmaq cəfadır.
İlk məhəbbət cəh-cəlaldan bahadır,
Bil qədri məzarda yatan kimi.

Nanəcib bəndəyə heyifdir, gülmə,
Gərək bir təhərlə salasan ələ.
Baxasan dalınca tullayıb selə,
Ta iki gözündən itənə kimi.

## GƏRƏK

Meydanda mənimlə bərabər olmaq,
Yeni yüz, yüz şair yarana gərək.
Yeddi qat yer göydən xəbərdar ola,
Qandıra mətləbi insana gərək.

Cəbrayıl kəlamlı, Əli ürəkli,
Osman tək peydadı, Musa hikmətli.
Məhəmməd gəlibdir ən səxavətli,
Yetişə onda ki, ənənə gərək.

Cahangir, qəmginəm, sevdalı hakim,
Min belə nər olsa daşınmaz yüküm.
Halımı bilməmiş cəng edərsə kim,
O düşsün çöllərə divanə gərək.

## QABAĞINDA

Şücaət göstərən alim yanında
Meydana girişmə el qabağında.
Yüz nadan yığılsa dillənə bilməz,
Hazır cavab əhli-dil qabağında.

Şah taxtına heç bənzəməz xaraba,
Yemək olmaz bal qatsan da turaba,
Yoxuşa çıxarmaz yüklü araba.
Danalar neyləyər kəl qabağında.

Otağı isitməz şamın sayası,
Əriyib tökülər olan mayası.
Qarağac şaxıynan söyüd payası
Bənd olub dayanmaz sel qabağında.

Kamil bağbanların tükənməz barı,
Pətəyi boş olan deyil bal arı.
Xırmana yığılan saman anbarı
Dağ olub dayanmaz yel qabağında.

Dalğının əlləri gələrsə coşa,
Ləl, yaqut törədər dəyəndə daşa.
Şair olan mənlə vursa baş-başa,
Hünərvər olacaq fil qabağında.

## QADIN DEYİLMİ?

Adəmi cənnətdən yerə endirən,
Şeytana qul duran qadın deyilmi?
Habilnən Qabili eşqə calayıb
Qanlara saldıran qadın deyilmi?

Qadında vəfa yox binadan bəri,
Fitnədir, kələkdir onun məqbəri.
Nuhun gəmisinə sükan şeşpəri
Dəryaya saldıran qadın deyilmi?

Nə yaxşı olmayıb onlarda qanad,
Əsən bir küləkdir içdikləri and.
Yıxır öz dostunu edəsi abad,
Düşməni güldürən qadın deyilmi?

Nə qədər dünyada töküldü qanlar,
Səltənət tacını tərk etdi xanlar.
Bəşərin elmində yazılıb bunlar,
Mənfini bildirən qadın deyilmi?

Biləni danışsam çox çəkər, uzun,
Hiyləsi tükənməz hər göyçək üzün.
Eşit sözlərimi, xəyal et özün,
Dağları dəldirən qadın deyilmi?

Fərhadın başına külüng çaldıran,
Yusifi Yaqubdan ayrı saldıran,
Məcnunu azdıran, Kərəm yandıran,
Göz yaşın sildirən qadın deyilmi?

Atabəy nəslini viran eləyən,
Ol Şeyx Sənanı heyran eləyən,
Vaqifin gözünü giryan eləyən,
Ölkəni aldıran qadın deyilmi?

Saçları uzundur, vəfası gödək,
Ağıldan kasıbdır, ayaqdan zirək,
Qəlbi daş parçası, bədəni kövrək,
Sərvətlər böldürən qadın deyilmi?

Aradım tarixi, gəzdim cahanı,
Elədim həyatda çox imtahanı.
Nizami boynuna salıb kəfəni,
Sandığa endirən qadın deyilmi?

Lermontovla Puşkin aqil növcavan,
Ölüm meydanında oldular rəvan.
Neçə min canlara tutdurub divan,
Zindanlar dolduran qadın deyilmi?

Ey dostlar, uymayın belə yağıya,
Bənzəmiş olsa da körpə ahuya,
Sülhü quran Lenin kimi dahiyə
Silahı qaldıran qadın deyilmi?

Ay ellər, alsanız məndən sorğunu,
Dalğınam, olmuşam hicran yorğunu.
Söz-sənət banisi Səməd Vurğunu
Dərd ilə öldürən qadın deyilmi?

## QALDI

Gedirəm, a dostlar, sizlə görüşüm,
Hakimlər dediyi vədəyə qaldı.
Tərlan oylağına xoş keşik çəkmək,
İlqarı düz olan bəndəyə qaldı.

Yenicə açırdı bağçada güllər,
Ətrini qoxunca ötür fəsillər.
Tutunc məmələrlə oynayan əllər,
Qaşdan düzəldilmiş kündəyə qaldı.

Çoxunu göynədib eşqin bəlası,
Buna şahid olar sular sonası,
Hər dərddən ağırdı övlad naləsi,
İmranım “Ata can” hey deyə qaldı.

Dərya buxarı tək mavi göylərə,
Çəkilib gedirəm uzaq ellərə.
Cəhənnəmi göstərməyə gözlərə,
Mən girib-çıxası bu deyə qaldı.

Dalğında kök salıb eşqin ataşı,
İstəsə dindirib söylədər daşı.
Həyat keşməkeşlidir, olmayın naşı,
Varxiyan bir neçə gədaya qaldı.

## QALACAQ

Bir gün bu dünyadan köçüb getsəm də,
Adımı yaşadan ellər qalacaq.
Yazıb-yaratdığım şeirimi deyən
Neçə şirin-şirin dillər qalacaq.

Həyat vəfasızdır, pis işdən qaçaq,
Cənnət-cəhənnəmi sağ ikən seçək.
Götürün, a dostlar, badədən içək,
Bizə də bu cürə hallar qalacaq.

Ay Cahangir Dalğın, yarat yenilik,
Yox olub aradan çıxsın hər pislik.
Sədaqət, mərifət, bir də kişilik
İnsanam deyənə bunlar qalacaq.

## QIZIM

Mən cahan mülkünə göz açan gündən,
Heç bir kəs nazımı çəkməyib, qızım.
Həsrət qaldım, cida düşdüm vətəndən,
Ata çörəyini görməyib, qızım.

Düçar oldum bir uğursuz səmtə mən,
Ağlar qaldım çox boranda, çəndə mən.
Axır gəlib çıxdım belə kəndə mən,
Çürütdüm ömrümü bilməyib, qızım.

Ömrüm boyu gəlib eldə dolandım,
Hara getdim dərdə-qəmə qalandım.
Qocalınca cavan candan talandım,
Gedirəm dünyadan doymayıb, qızım.

## QIZLAR

Əlvan çiçək çiləyərək yollara,
Bu məclisə nə gəlibsiz, a qızlar.
Əvvəldən qış idi fəslin günləri,
Siz gələndə oldu bahar, yaz, qızlar.

Siz gələndə məclislərimiz güc aldı,
Heç yox idi səsim, indi ucaldı.
Elimizə xoş mərhəmət saçıldı,
İnciməyin, çalacağam saz, qızlar.

Cahangirəm, deyib söz, çalaram sazı,
Yığaram başıma gəlini, qızı.
Döyülsüzsə oynamağa irazı,
Bizə onda satmayasız naz, qızlar.

## QOCALMAZDIM

Quşuma səs gəlir: “Şair, qocaldın!”,
Bu qürbət qocaltdı, mən qocalmazdım.
Afətin yolunda çəkdiyim dərd-qəm,
O möhnət qocaltdı, mən qocalmazdım.

Yenicə gəlmişdim yaza qışımdan,
İldırım şığıyıb vurdu başımdan.
Əl çəkməli oldum can sirdaşımdan,
Xəyanət qocaltdı, mən qocalmazdım.

Dalğının ahları yüksələr göyə,
Onunçün meylini veribdir meyə.
Bir möhüb düzən dost olmadı deyə,
Məhəbbət qocaltdı, mən qocalmazdım.

## QÜRRƏLƏNMƏSİN

Mərd odur səhvini alsın boynuna,
Özün uca tutub qürrələnməsin.
Rast gəlsə dağların coşan çayına,
Çırmansın dizəcən, yorğalanmasın.

Bu işə şahid olsun zamana,
Siz deyin qocaya, deyin cavana.
Hansı kəs tərbiyə verir insana,
Heç olarmı gahdan acıqlanmasın.

Ulduz aləminə birləşsə də Ay,
Günün zərrəsinə ola bilməz tay.
Dalğın mərifətdən alıbdırsa pay,
Otursun yerində, darğalanmasın.

## QÜRBƏTİN

Başına döndüyüm, ana vətənim,
Deyim necə olur halı qürbətin.
Quş da yuvasından bedrah düşməsin,
Cana dəyər çox zavalı qürbətin.

Nədənsə fələk də mənə kəc baxır,
Ömrümün şəninə şimşəklər çaxır.
Doğru iş görsəm də yandırıb-yaxır,
Utanmayıb gənci, çalı qürbətin.

Üzgörə dostlarım gəlirlər vara,
Kənardan baxırlar, mən düşsəm dara.
Hər günüm olubdur gecədən qara,
Zəhər dadır yağı, balı qürbətin.

Mənim ki bu yerdə yoxdur tamahım,
Min günah içində batır savabım.
Hər kəsə xoş gəlmir doğru cavabım,
Dəng eləyib boş sualı qürbətin.

Ömrümün zənciri tutulub pasa,
Az qalıb götürəm əlimə əsa.
Dalğın deyər, heç kəs düşməsin tərsə,
Düşsə azdıracaq yolu qürbətin.

## MEHRİBANIM

Sənin o üzünə Yusif olsa tay,
Boyun bir Minadır, ucalır gün, ay.
Burma zülflərini aç, üstünə yay,
Qoy olsun düşmənlər kor, Mehribanım.

İsgəndərin eybi söyləndi quya,
Buynuzu car oldu bütün dünyaya.
Mətləb bulaq, şər düşüncə araya,
Olmasın aləmə car, Mehribanım.

Cahangir sözünü qoy desin üzə,
Mən sənsiz daha heç bilmirəm dözə.
Naz etmə, amandı, gəlginən bizə,
Sənsiz keçir günüm dar, Mehribanım.

## MƏNDƏ

Arif olan, edim səni xəbərdar,
Hikmətli kəlmənin mənası məndə.
Cahanın işindən xəbər verərəm,
Məğribnən məşriğin arası məndə.

Mavi göylər sinəsini gəribdir,
Abi-ataş, xaki-badi səribdir.
Ağam mənə tifil ikən veribdir,
Yüz on dörd kitabın ayası məndə.

Mina dağı nəsib oldu qurbana,
Cəbrayıl yetişdi haqda durana.
Haqq əmriylə qələm çalan Qurana
Qüdrətli Osmanın zəkası məndə.

Qılıncsız, nizəsiz güclü yarağam,
El içində ilham üçün marağam.
Fitnədən, əməldən çox-çox uzağam,
Ol Xızır İlyasın duası məndə.

Mən Dalğınam, dəryalara dalmışam,
Gövhər xəznəsinə nəzər salmışam.
Aqildən ağıllı öyüd almışam,
Həyalı insanın həyası məndə.

## MƏNDƏ

Gözüm sənə sataşanda bilmişəm,
Sənin tək üzüyün qiyməti məndə.
Saçaram dəhandan ləli-gövhəri,
Şeir, söz mülkünün neməti  məndə.

Tifil ikən sədam düşüb hər yana,
Hörmətim var, hörmət qanan insana.
Cəng eləyib girmiş olsam meydana,
Rüstəm pəhlivanın hikməti məndə.

Firdovsi, Nizami, Nəsimi, Xəyyam
Deyən saf sözləri öyrətdi dayəm.
Onlara yetməmiş olsa da həyam,
Qeyrətli atanın qeyrəti məndə.

Dalğın çox dərdlinin dərdini arar,
Eşqinin butası etdi bərqərar.
Soruşsan ki, məndən sinəmdə nə var?
Deyərəm Quranın ayəsi məndə.

## MƏNƏM

Bu cahan mülkünə gələndən bəri
Ağlayan da mənəm, gülən də mənəm.
Yarın fərağında, hicran dağında
Yaşayan da mənəm, ölən də mənəm.

Gözəl yaz çağında azdım küçəmi,
Yar gəlib ovladı tərlan beçəmi.
Hansı vaxt məzara gedəcəyimi
Bilməyən də mənəm, bilən də mənəm.

Dalğının arzusu yetmədi sona,
Gülüstan bağıdı, baxsan hər yana.
Sağalmaz dərd ilə fani cahana
Gələsi də mənəm, gələn də mənəm.

## MƏNƏM

Tanımadın eşq əhlini sözündən,
Göz açıb vətəndən ayrılan mənəm.
On yeddi gecəni piyada gəldim,
Səfərə çıxmamış yorulan mənəm.

Qohum-qardaşımdan arxayın olan,
Ürəkdən ah çəkib, üzündən gülən,
Bu cavan çağımda qəddi bükülən,
Naləsi göylərə çəkilən mənəm.

Cahangir dərdini qısa danışır,
Gah gülür, gah Kərəm tək alışır.
Həftəm sevinc olsa, qəmnən il aşır,
Nakam bəzubəndi qırılan mənəm.

## MƏNƏ SƏN

Kamala çatmamış həddindən artıq
Aşan kimi görünürsən təpə sən.
Sən ki bixəbərsən ədəb-ərkandan,
Boş şam kimi görünürsən mənə sən.

Qulağıma bir səs gəldi hər yandan,
Marallar baş alıb getməz çəməndən.
Ovçu görüb kol dibini inlədən,
Dovşan kimi görünürsən mənə sən.

Cahangir minibdir buraq atına,
Fikrini söyləyir göylər qatına.
Addasam düşərsən ayaq altına,
Kövşən kimi görünürsən mənə sən.

## MƏNİ

Sevgilim o qədər rəhimkar imiş,
Küsmüşdü, yenə də dindirdi məni.
Yüz olurdu dərdim onu gördükcə,
Ağlamaq istərdim, güldürdü məni.

Belə məhəbbətdən sevincim artdı,
Eşqim tez oyandı, qəm, kədər yatdı.
Könlümdəki arzularım boy atdı,
Öz doğma yoluma döndərdi məni.

Pərvanə tək gəzdim sağı-solunda,
Yenə cəfadayam onun yolunda.
Biçarə könlümün müşkül halında,
Qəmlər zirvəsindən endirdi məni.

## MİSİLLİ

Mən sənin dərdindən, ay ala gözlüm,
Canımı dərd tapıb vərəm misilli.
Ya ver murazımı, ya zülmə fərman,
Kül olum bir yolluq Kərəm misilli.

Aşiq aşiqiylə etməz ədavət,
Mən belə qanıram, gəzirəm xəlvət.
Qorxuram taparsan elə bir adət,
Ahular ovlayan Bəhram misilli.

Bu ilk məhəbbətə yaraşmır bu hal,
Zülmün şərtlərini gəl daşlara çal.
Dalğının könlünü vədəsində al,
Keçirək güzaran irəm misilli.

## NƏ DEDİN?

Bir yada sal, beyinsafın balası,
Biz divanda duruşanda nə dedin?
Qəm-qüssəni mən atanda kənara,
Sənin ilə barışanda nə dedin?

Mən məhbus adıyla ayrıldım səndən,
Utanmadın sənə baxan aləmdən?
Çıxmadı heç bircə kəlmə dilindən
Qonşulara danışanda nə dedin?

Çirkin əməllərə satdın Dalğını,
Çox keçməz, görərsən sönməz yanğını.
Ay utanmaz, səndən "atamız hanı?"
Balaların soruşanda nə dedin?

## NƏDƏNDİR?

Yaralı könlümün ömür həmdəmi,
Düz yolu çaşmağın söylə nədəndir?
Bir cavab istəsəm şirin dilindən,
Qəm dağı aşmağın söylə nədəndir?

Ayrılıq möhnəti çox asan deyil,
Şeytanın felinə salmaynan meyil.
İyirmi il ömür zarafat deyil,
Naqislərə qovuşmağın nədəndir?

Hər daim enişdir, yoxuşdur həyat,
Mütəssil dağları ətəyindən at.
Həyatın mülkünə mərhəmətin qat,
Tufan tək coşmağın söylə nədəndir?

Dərdimin, yaramın böyük loğmanı,
Bu işə "maşallah" söyləyən hanı?
Hələlik gec deyil, yol-ərkan tanı,
Acı danışmağın söylə nədəndir?

Dalğını sən dinlə, dərindən düşün,
Olubmu bəhrəsi acı yürüşün?
Sevimli-sevdalı olan duruşun,
Hisə bulaşmağın söylə nədəndir?

## NƏ YARAŞIĞI?

Bir mələk misallı, maral baxışlı
Canansız otlağın nə yaraşığı?
Çadırsız, sürüsüz, sərin çeşməli
Hər geniş yaylağın nə yaraşığı?

Öyrətmək istəyən hikmətə dilin,
Düşün sorağıma, yanıma gəlin.
Aşıqsız məclisin, şairsiz elin,
Şeydasız gül bağın nə yaraşığı?

Dalğın, hər döngədə saxlama ayaq,
Sənə yol göstərən ağlındır, mayak.
Evə dost gələndə töküb qaş-qabaq
Süfrəni açmağın nə yaraşığı?

## NƏ MƏNASI VAR?!

O karvan ki, səndən oğrun dolanır,
Köçəköç qatmağın nə mənası var?!
Bərədə şikarı gözün görməsə,
Atəşi açmağın nə mənası var?!

Fələk qələmini elə çalıbdır,
Çoxunun qisməti bağlı qalıbdır.
Əzəldən ki, sənin bəxtin yatıbdır,
Canını yormağın nə mənası var?!

Fərqi çoxdur, dostum, yaz ilə qışın,
Necə ki, addımla, bircə qarışın.
O mağaraya ki, sığmayır başın,
Bədəni soxmağın nə mənası var?!

Başına dolanım ağıllı kəsin,
Yetişər dadına çıxsa qəm səsin.
Kələyi kəsilsin qədir bilməzin,
Ona əl tutmağın nə mənası var?!

## NƏYSƏ

Hər gün bir arzuya çatsa da insan,
Arzular yenə də azalmır, nəysə.
İşi şah taxtına bənzər olmasa,
Aç göstər nəfsini, sazlamır, nəysə.

Çox yaşayıb, çox dolanıb, çox görən,
Hamısı olmaz ki, nəsihət verən.
Əmr edib tərəqqiylə yeriyən,
Tənəzzül dövrünü gözləmir, nəysə.

Dalğın, xoş halına sənin bu yerdə,
Həvəsin yox nə qumara, nə nərdə.
Bir də demiş olma kamal var sərdə,
Kamal da heç pulsuz düz olmur, nəysə.

## NEYLƏYİM?

Bülbüldüm, gəzirdim gül sorağında,
Vurulmuşdum bağça-bara, neyləyim?
Bağbanım qocaldı, bağlar tərk oldu,
Yaranmışam bəxti qara, neyləyim?

Mərd olan istəməz namərdə uya,
Qazıyan düşəcək qazdığı quya.
Yenicə çatmışam mən başa-boya,
Düşməni salmışam dara, neyləyim?

Dalğınam, qonağam bu yad oylağa,
Əyilməz vicdanım yetən ayağa.
Təqsirsiz dil olmaz, rəhimsiz ağa,
Qandıra bilmirəm kara, neyləyim?

## OLARMI?

Zərgərlərdən xəbər almaq istərdim,
Qəlp tunca mirvari düzmək olarmı?
Buz bağlasa bir dəryanın üzünü,
Etibar eləyib gəzmək olarmı?

Mən də aşiqiyəm şirin dillərin,
İlqarı düz olan şux gözəllərin.
Dağlardan hay vurub gələn sellərin
Ağuşuna girib üzmək olarmı?

Dalğın mətləbini haqdan diləyib,
Hikmət dəryasından xalqa söyləyib,
Kişmişə, xurmaya hesab eləyib
Bibəri dəhanda əzmək olarmı?

## OLAYDI

Olmasın dövlətim, olmasın malım,
Olursa canıma yanan olaydı.
Zəkərət çəkirəm nadan əlindən,
Dediyim sözləri qanan olaydı.

Yadların əlində canım tərk oldu,
Çoxlarına adım mübarək oldu,
Polad canım mumdan da kövrək oldu,
Yıxılan günümdə sayan olaydı.

Körpə ürək bişdi eşqin gücündən,
Quruldu xanalar mənim vecimdən.
Dalımdan danışan anam, bacımdan
Mərdana danışan düşmən olaydı.

Çox çörək yemişəm "mərdəm" deyənnən,
Oturub-durmuşam özün öyənnən,
Dosta salam dedim gəlib-gedənnən,
Özü məni yada salan olaydı.

Cahangir sağ gündə dostdur çoxuynan,
Gəşt edib dolandı Ay, Gün şoğuynan,
Yıxıldı üzüstə düşmən oxuynan,
Belə gündə bir əl çalan olaydı.

## OLSAYDI

Sevgi nə olduğun bilməzdi insan,
Qandan məhəbbəti silmək olsaydı.
Çürüməzdi bədən torpaq altında,
Qəm, kədər içində gülmək olsaydı.

Varmış göbələkdə nə böyük bir fənd:
Papağı başında gəzir oba, kənd.
Məncə, içilməzdi heç zaman bir and,
İnsanın qəlbini bilmək olsaydı.

Dalğın, olmaginan namərdə yoldaş,
Yaltağa miyançı, düşmənə sirdaş.
Yadlardan da sənə olardı qardaş,
Dünyaya dübarə gəlmək olsaydı.

## OLMAZ

Öz-özündən dastan icad eliyən,
Bir çiçək açmaqla düzlü yaz olmaz.
Bir çölün çöpünü yığıb yandırsan
Sabaha qalası narın köz olmaz.

Nalayiqdir acı demək qocaya,
Alçaq adam çətin qalxar ucaya,
Gəlin var atlana, gedə Nacıya,
Yüz il dul qalsa da ondan qız olmaz.

Kül-zibil tökməklə təpə dağ olmaz,
Özündən boyanan rəngindən solmaz.
Bir yüzü doxsanla doqquz doldurmaz,
Manatı qoymasan yenə yüz olmaz.

Tula olmaz qurddan bəsləmək ilə,
Qarğa gülə dönüb dönməz bülbülə.
Damburu bəzətsən şirmayı ilə,
Adı üstündədir, tavar saz olmaz.

Dalğın kimi əgər demək istəsən,
O Leyli camından gərək içəsən.
Dediyimdən fərək inciməyəsən,
Mənasın bilməyən sözdən söz olmaz.

## OLMAZ

Ey gülüm, sən mənim qəmli çağımda
Üzümü görəndə gülməsən olmaz.
Əgər bağlamısan mənə ilqarı,
Könlündən keçəni deməsəm olmaz.

Məhəbbət bənzəyir açılmış gülə,
Dinləyirəm səni, gəlsənə dilə.
Gözümdən süzülsə sevincdən gilə,
Onu dəsmalımla silməsəm olmaz.

Həyat biyabandır, yolu müxtəlif,
Yolunu düz seçsən olmazsan hərif.
Mən sənə edəndə xoş günü təklif,
Əgər məftunsansa gəlməsən olmaz.

Özün yağılara olub mehriban,
Güllü çəmənzarı qoydun biyaban.
Belə bir bağıma kim oldu bağban,
Sən onun qədrini bilməsən olmaz.

Uyub hiyləsinə hər yetən qurdun,
Dalğının bağrına yaralar vurdun.
Alnımın təriylə salınmış yurdun
Çənli dumanını dəlməsəm olmaz.

## OLSUN

Şahmar zəhərinə "bal" deyən yarım,
Hər zaman o sənə qoy qismət olsun.
De görüm nə qədər nəzir demişdin
Ki, mənim hər çağım qazamat olsun.

Toya get deyəndə getmədin toya,
Parlaq gələcəyi döndərdin vaya.
Uşaqlar böyüyüb çatınca boya
Çalış, güd, namusun xoş ismət olsun.

Tez düşərsən daddan, ey vəfasız yar,
Nəslini, zatını bilir hər diyar.
Dalğın bu dünyada yadigar qoyar,
Kaş onun qəlbində əzəmət olsun.

## OLSUN

Məndən salam olsun söz qanan kəsə,
Hərdən söz deməyə əhvalın olsun.
Naməni düz oxu, ötmə hecanı,
Mənanı anlayan kamalın olsun.

Ayıldın pulları aldığın zaman,
Utanmaz-utanmaz oxudun meydan.
Məndə olmayıbdır hələ bir yalan
Unutma Allahı, calalın olsun.

Cahangir də gecə-gündüz dardadır,
Fikri ərşdə, qəlbi bilmir hardadır.
Sən narazı qalsan, andım belədir:
Boynuna nə ki, var, babalım olsun.

## O YANDA DUR

Düşmüş olsan aşıqlığın bəhrinə,
Mərifət, kamalı ölç, o yanda dur.
Gördün arif yerdən-göydən danışır,
Otur öz yerində dinc, o yanda dur.

Eşqin dəryasında görsən qəvvası,
Öyrən canındakı coşqun həvəsi,
Paylandı, qurtardı eşqin badəsi,
Gəlibsən dünyaya gec, o yanda dur.

Dalğının elmdən vardır xəbəri,
Haqdır sinəsində eşqin dəftəri.
Meydandan qaçırıb neçə nəfəri,
Sən də onlardansan, keç, o yanda dur.

## OLARDIMI?

Süleyman mülkündə, qoca dünyada,
Çün, həftə olmasa, ay olardımı?
Çeşmələrnən dağın qarı olmasa,
Şəlalə axmaqla çay olardımı?

Məhəbbət oduna alışdım, yandım,
Yaralı könlümə təsəlli sandım.
Nanəcib qızına yar olmasaydım,
Çəkdiyim zəhmətlər zay olardımı?

Dalğın, çal, səslənsin telli tavarın,
Sənin ki, dönməyib əhdin, ilqarın.
Vəfasız olmamış olsaydı yarın,
Düşmənlər sevinib bay olardımı?

## ÖZÜN DE

Cavan canım, inan, sənsiz soluxar,
Belə dərdə kim tab eylər, özün de?!
Yadlar bilsə, inan, vallah, doluxar,
Belə dərdə kim tab eylər, özün de?!

Tanrı yazan yazı necə pozular?!
Eşq oduna düşən igid nəzilər.
Ölsəm bəlkə əlim səndən üzülər,
Belə dərdə kim tab eylər, özün de?!

Xəstə könlüm səndən dərman gözləyir,
Tənhalıqdan yazıq cismim sızlayır.
Axşam, səhər gözüm səni gözləyir,
Belə dərdə kim tab eylər, özün de?!

Dalğın açmaz hər loğmana dərdini,
Əhdi sevən yara bağlar sidqini.
Yar yarından gizlədərsə sirrini,
Belə dərdə kim tab eylər, özün de?!

## ÖZ YERİ

Ey insan, aldanma xam xəyallara,
Gülün öz yeri var, kolun öz yeri.
Çox acı olsa da yeyilir bibər,
Duzun öz yeri var, balın öz yeri.

Toz olar daşlara çırpınan kəsək,
Tox nəfs insanı eyləyər yüksək.
Hamıya xoş gələr düzünü desək,
Gəncin öz yeri var, çalın öz yeri.

Gözün yolda olsun, qulağın səsdə,
Ay Dalğın, heç zaman olma qəfəsdə.
“Dünya” dediyimiz bu xalı üstə
Ağın öz yeri var, alın öz yeri.

## PULDUR

Bütün yer üzündə olan sərvətin
Əsası insandır, mayası puldur.
Zəngin qurğuların, xan sarayların
Təməlini qoyan, bənnası puldur.

Gördünmü, ay insan, dünyaya baxdın,
Var idi qanadı Süleyman taxtın.
Yenilməz şöhrətin, ən kəskin bəxtin,
Sürdüyün dövranın səfası puldur.

Ömür irəliləyir gəlsə də asta,
Güvənmə qohuma, güvənmə dosta.
Loğmandan çarə yox, olsa da xəstə,
Ömrünü ömrünə qatası puldur.

Ey Dalğın, qəfildən düşsən bir tora,
Nahaqdan, ya haqdan qatılsan şərə,
Mənsur kimi tutub çəksələr dara,
Bil ki harayına çatası puldur.

## SABAH-SABAH

Ey ruzigar, ey kainat, ey bəşər,
Mənim salamımı al sabah-sabah.
Çəkirəm həsrətin şirin yuxunun,
Qatınız yuxuma bal sabah-sabah.

Aldı sevincimi bu dar qalalar,
Kimsəm yoxdur əhvalıma qanlalar.
Gözümdə canlanır körpə balalar,
Yuxudan duranda kal sabah-sabah.

Tale mənə varlığını verəndə,
Qara yazdı sətirlərin birində,
Yarım məni belə halda görəndə,
Onda necə olur hal sabah-sabah?!

Göyərçinim, sən yaxına gəl barı,
Könül verir bu gün sənə qərarı.
Yazdığım naməni vətənə sarı
Apar, qanadları çal sabah-sabah.

Dalğın deyər, atın qəmi, a dostlar,
Gəlsin kefimizin dəmi, a dostlar,
Əyləşin, eyləyək şamı, a dostlar,
Silinsin ürəkdən xal sabah-sabah.

## SALLAM

Qapıma şirindil insan gələrsə,
Yedirib qaymaqla bal, yola sallam.
Çəkərəm cəfanı mərdin yolunda,
Qıyaram var-dövlət, mal, yola sallam.

Bir dost ki araya fitnə-fel salsa,
Üzümə xoş baxıb arxamdan gülsə,
Alimə-şairə tay-tuş da olsa,
Eyləyib dilini bal, yola sallam.

Mən Dalğınam, şər işlərdən kənaram,
Qanana can qurban edib yanaram.
Qanmazı ən alçaq insan sanaram,
Verib hər əlinə fal, yola sallam.

## SAL MƏNİ

Başına mən dönüm, ay insan əhli,
İnsaf et, vətənə yola sal məni.
Mən də sənin kimi yaranan canam,
İnsaf et, vətənə yola sal məni.

Nə yığılıb bu camaat buraya,
Dərdə düşsəm, biri çatmaz haraya.
Qədir Mövlam özü çatsın çaraya,
İnsaf et, vətənə yola sal məni.

Almadın xəbəri nuru saçandan,
Düşmənəm mən vətənindən qaçannan,
Qorxmaynan sən, Dalğın ölməz acından,
İnsaf et, vətənə yola sal məni.

## SANACAQ

Ey könül, namərdə hörmət eləsən,
Gendən baxıb səni hərif sanacaq.
Bir gəda əlinə salsa vəzifə,
O ötən günləri tamam danacaq.

Özün çox görübsən dar günü, könül,
Gəl tanı pisini, yaxşını, könül.
Uca tut hər şeydən sidqini, könül,
Yoxsa o da sənə bir dərd olacaq.

Tüpür o dostlara, aşnaya həm də,
Axtarıb tapacaq varlı günündə.
Bircə qəpik olmayanda cibində
"Dost" səni görəndə gözün qırpacaq.

Daşdan xərac almır göyün qurşağı,
Könül, sən ucasan, enmə aşağı.
Gəl dindirmə gözləri ac uşağı,
Əlində nə görsə dartıb qapacaq.

Ay Cahangir, sözün söylə aşkar,
Sənin ki sinəndə ləl yatağı var.
Namussuz insanda olmaz etibar,
O sənin sirrini yada açacaq.

## SƏNDƏ GÖRMÜŞƏM

Necə xoş yaranıb sənin təməlin,
Çoxunu heyrətdə qoyub əməlin.
Ən dərin şairin, böyük alimin
Kamal mayasını səndə görmüşəm.

Vacibdir bəşərə qədrin bilməyə,
Göz yaşı tökənlər yetsin gülməyə.
Hər zaman nadan qlib gəlməyə
Zərər libasını səndə görmüşəm.

Namusu, qeyrəti, təmiz vicdanı,
Ən böyük hünəri, şöhrəti-şanı,
Dostlara bəxş edən bu şən dövranı
Mən ilk dəfədir ki, səndə görmüşəm.

Zəkanı, ilhamı, səbri, qərarı,
Qeyrəti, vucdanı, namusu, arı,
İnsafı, mürvəti, ən düz ilqarı
Həyanı, vəfanı səndə görmüşəm.

Arzunu, sevinci, ilk məhəbbəti,
Can sağlığını, bu səltənəti,
İnsan taleyini, böyük ziynəti
Dalğınam, deyirəm, səndə görmüşəm.

## SƏN NƏSƏN?

Mahalda səbrim var, obada elmim,
Həm də eşqin dəryasıyam, sən nəsən?
Bilmişəm dadını abi-kövsərin,
Dərin sirlər xəznəsiyəm, sən nəsən?

Dünyaya hər gələn olmaz ki, əyyar,
Əyyarlar dünyanın sirrini duyar.
Şəyirdlərim gəzir diyarbadiyar,
Neçə şagird ustasıyam, sən nəsən?

Eşq əhli bacarmaz gecələr yata,
İstəməz insanın qanına bata.
Bilirəm, başıma gəlməz bir xata,
Xızır İlyas duasıyam, sən nəsən?

Meydanda kim mənə gətirməyir tab,
Gedər-gəlməz yerə edərəm yatab.
Qoyub gedəcəyəm bax neçə kitab,
Onların da mənasıyam, sən nəsən?

Otuz cüz haqq Quran kəlam içində,
Neçə bismili var billəm içində,
Cahangir Dalğınam, aləm içində
Yol-ərkanın səfasıyam, sən nəsən?

## SƏNSƏN

(Aşıq Ələsgərə ithaf)

Arif məclisində, toy şənliyində
Aşıqlar dilinin əzbəri sənsən.
Divaninin, müxəmməsin, təcnisin,
Hikmət xəznəsinin gövhəri sənsən.

Gələcək zamanı inamla duydun,
Tükənməz xəzinə yadigar qoydun.
Mollanın, qazının gözünü oydun,
Bəylərin köksünün neştəri sənsən.

Sənsən bu ellərə müşk-ənbər saçan,
Sənsən gözəllərin könlünü açan,
Sənsən pərvazlanıb havada uçan,
Dalğının dilinin əzbəri sənsən.

## SİZİNKİ NECƏ?

Əziz qonşum, bizim evin gəlini
Kamala yetkindir, sizinki necə?
Adam da oxuyar, o qədər də yox,
Oxuyub ötəndir, sizinki necə?

Tərsinəmi dönüb çarxı bu ilin?
Görmək istəsəniz yaxına gəlin.
Çağırıb deməsəm: "Dursana, gəlin",
Yekə gün yatandır, sizinki necə?

Çıxır otağından, gəzir bağçanı,
Evə gəlib bir-bir edir taxçanı.
Toxunur cavana, yıxır qocanı,
Çox xor güdəndir, sizinki necə?

Qonaq gəlsə daş asılar burnuna,
Yeddi gülac bezi dolar qarnına.
İstəyirəm yumruq vuram boynuna,
Şikayət edəndir, sizinki necə?

Altı aydır əri qaçıb yanından,
Qaçmasaydı el çəkərdi canından.
İndi də yapışıb qaynanasından
Qalmaqal qatandır, sizinki necə?

Qonşuya təpinir canavar kimi,
Yeməkdən genəlib bir divar kimi,
Əriyib tükəndim sulu qar kimi,
Bığ-saqqal didəndir, sizinki necə?

Yazıq Dalğın necə dözsün bu işə?!
Beləmi keçəcək günün həmişə?!
Ağac gəzdirməyi eləyib peşə,
Yetəni döyəndir, sizinki necə?

## ŞAİR

Vaxt olar bu yerdən, ərş-asimandan
Vaxt olar xəbəri danışar şair.
Vaxt olar boş cəngə duranı görər,
Vaxt olar Kərəm tək alışar şair.

Vaxt olar salamı dönər söyüşə,
Vaxt olar at mini çıxmaz örüşə,
Vaxt olar meydana şir tək girişər,
Vaxt olar namərdlə dolaşar könül.

Vaxt olar kəlməni gətirməz dilə,
Vaxt olar coşaraq dönər bülbülə,
Vaxt olar ostəyər o günü ölə,
Vaxt olar ömrünə çalışar şair.

Vaxt olar danışar bildiyi kimi,
Vaxt olar sinədən deyər əsəri,
Vaxt olar xəyaldan ağarar səri,
Vaxt olar aləmi dolaşar şair.

Vaxt olar Dalğınla başlar işinə,
Vaxt olar qatarlar zəhər aşına,
Vaxt olar şər işlər gələr başına,
Vaxt olar üz-üzə duruşar şair.

## ŞƏRAB

Çərxi-fələk, gərdişinə çox şükür,
Sənin gərdişindən yamandır şərab.
Hərdən dil açdırır, hərdən lal edir,
Gözlərə çəkilən dumandır şərab.

Kimini güldürür, kimi ağladır,
Kimə imkan verir, kimi aldadır.
Kiminə yol verir, kimi bağladır,
Kiminə iblisdir, şeytandır şərab.

Dili küt bəndəni edib nəğməli,
Düppədüz yolları gəzir əyməli,
Doğma qardaşına olur söyməli,
Qiylü-qal artıran düşməndir şərab.

Kimini rütbədən salır alçağa,
Kimini döndərir evdə qoçağa,
Kimi də əl atır qanlı bıçağa,
Axır nəticəsi divandır şərab.

Ey Dalğın, düşündür, özün də düşün,
Sən ondan üz döndər, pak olsun işin.
Çalış ki, itməsin gözəl gərdişin,
Sonu fırtınalı ümmandır şərab.

## UDUZDUM

Fələk kəməndini saldı boynuma,
Götürdü tacımı, taxtı, uduzdum.
Pozulmuş xanamın üstə daş atdı,
Gördüm ki, keçibdir vaxtı, uduzdum.

Dağların başından çəkildi duman,
Aslanı, pələngi gizlətdi orman.
Şikarım bərədə olduğu zaman
Düşmənlər gözümə çaxdı, uduzdum.

Dalğın, qoyma əldən qələm-kağızı,
Hələ bitməyibdir istəyən arzu.
Mənə yar olanda bimürvət qızı
Sonradan anladım, bəxti uduzdum.

## UTANACAQDIR

Yolsuz işə meyil salma, ay könül,
Yolsuz iş tutanlar utanacaqdır.
Sənin haqq işindən gen dolanan kəs,
O səni yenə də axtaracaqdır.

Kişilik qoy sənə olsun bir əsas,
Çalış yaxşılıqnan almağa qisas.
Tale sitəmiylə qalarsa miras,
Bəd əsən rüzigar solduracaqdır.

Ey könül, dünyada hələ nə gördün,
Bilmədin işini hər yetən qurdun.
Gəda qız bəndəyə tanıtsan yurdun,
Var-yoxun aləmə bildirəcəkdir.

Qoru namusunu, sönməsin şamın,
Dostlara düşmənsən, boş olsa camın.
Əzraildir sənin axır həmdəmin,
Bir gün o da səndən can alacaqdır.

İnsana pürkamal etməz ağırlıq,
Nanəcib bəndəyə vermə yaxınlıq.
Ən yaxın dostunda varsa riyalıq,
Düşməni üstünə güldürəcəkdir.

Könül, demə sənə vermədim öyüd,
Bu gündən sabaha çox etmə ümid.
Dünya dəyirmandır, dənin var, üyüd,
Axırda səni də üyüdəcəkdir.

Ey dünya, kəc baxma şair Dalğına,
Salma məni nahaq qovğaya, qana.
Ümidəm bu dövran, zalım zamana,
Ölsəm də adımı yaşadacaqdır.

## VARXİYAN

Doğma vətən olmaq üçün mən səni
Əbədi olaraq seçdim, Varxiyan.
Uşaq idim, hələ huşum gəlməmiş
Qoynunda gözümü açdım, Varxiyan.

Səndən aldım kamalımın kamını,
Biliyimlə heyran etdim hamını.
Sinəmə coş verən eşqin camını
Çeşməndən doldurub içdim, Varxiyan.

Sən mənə öyrətdin saz sənətini,
Könlümə bəxş etdin el adətini,
Növrəstə dilbərin can xalatını
Özüm öz əynimə biçdim, Varxiyan.

Cahangir hər zaman söyləyər vəsfin,
Bir söz də deyim, heç pozma kefin:
Razıyam, qoynunda etsinlər dəfn,
Nə vaxt bu dünyadan köçdüm, Varxiyan.

## VAR

Nə olub ki, mənə "gəl-gəl" deyirsən?
Burdan qeyri mənim seyranımmı var?
Tərəqqim tənəzzül olan günümdən
Bu müşkül halımı soranımmı var?

Pərvanə gəşt eylər şam alışanda,
Nə olar bir kəlmə söz soruşanda,
Çəkib həsrətimi gəlib bu anda
Qapıda gözləyib duranımmı var?

Zamana dinmədi, çalındı sazım,
Şeytanı çalışdı yolumu azım.
Dalğın, əlac yoxdur, məcburam dözüm,
Dağılmış xanamı quranımmı var?

## VAR MƏNİM

Sədaqətlə bizə gələn mehmana,
Süfrəmdə çörəyim, duzum var mənim.
İlqarından dönüb xain çıxana,
Qılıncım, qalxanım, gürzüm var mənim.

Dövrün vəfasından güc, ilham alan,
Gətirməz dilinə bir kəlmə yalan.
Ən zəngin tükənməz sərvəti olan
Dağlarım, bağlarım, düzüm var mənim.

Bulaq tək qaynayır əmək cəbhəsi,
Dəlir asimanı el tərəqqisi.
Gələcək nəsilin nədir töhfəsi,
Onu duyub, görən gözüm var mənim.

Gördüyün bu eldən, diyardan yazsam,
Yurduma zövq verən bahardan yazsam,
Hər gündə xalqıma bir dastan yazsam,
Dalğınam, qurtarmaz sözüm var mənim.

## VƏDƏSİNDƏ

Qoy deyim, nazlı yar, sən də qulaq as,
Gəlibdir sinəmə söz vədəsində.
Mən səni sevmişdim saf məhəbbətlə,
Sənə şərəf olan qız vədəsində.

Məni tərk elədin aldanıb yada,
Necə qıyıb saldın sönməyən oda.
Vermədin içməyə bir damla su da,
Mənim ürəyimin köz vədəsində.

Mən ellər içində deyəndə qəzəl,
Mənim hökmümə inanmırdın əzzəl.
Dalğına yar olmaq istəyən gözəl,
Qalaydı qeydimə öz vədəsində.

## VƏDƏSİNDƏ

Başına döndüyüm, ey tacidarım,
Dediyim sözləri qan vədəsində.
Zambur pətəyində bahar gülümsər,
İstəyər ki, dolsun şan vədəsində.

Öpüm yanağını, qucum belindən,
Xoş səda eşidim tuti dilindən.
Aparım xəlvətə tutub əlindən
Bir qalaq açınca dan vədəsində.

Dalğının əhsini qoyma dilində,
Dərd-qəmə batmasın düşmən əlində.
Kabab ləzzətlidir əmlik ətində
Qatışsın canıma can vədəsində.

## VƏTƏNİMDƏN

Çərxi-fələk tərsə çəkdi qələmi,
Çox vaxtsız elədi yad vətənimdən.
Şahinlər yad eldə sardan əskikdir,
Anlaya bilmədim dad vətənimdən.

Oxudum dərsimi, çatdım kamala,
Könül qumaşlandı bir kol topala.
Peymanım dolsa da kamil xəyala,
Heç zaman olmadım şad vətənimdən.

Dalğınam, yadlara gəlmişəm qonaq,
Qohum-əqrəbamdan düşmüşəm iraq.
Yaralı könlümə gətirdi soraq
Səhər-səhər əsən bad vətənimdən.

## YAXŞIDIR

İki sevgi bir ürəkdə olanda
Məhəbbətlə xoş and içsə yaxşıdır.
Axır gündə kim intiqam alarsa,
Əvvəl bir bəhanə tapsa yaxşıdır.

Yenidən barışıb meydan açılsa,
Məhəbbətə bəxt ulduzu saçılsa,
Günahsızlar, günahkarlar seçilsə
Umusuz-küsüsüz gülsə yaxşıdır.

Dalğın, söylə, bax bu necə güzardır,
Çəkdiyin qovğadır, dərddir, azardır.
Axır zaman günü yerim məzardır,
Əvvəldən işini bilsə yaxşıdır.

## YAXŞIDIR

Etibarsız dostdan, bekar arvaddan,
Gərək olan balta sapı yaxşıdır.
Yadların mülkündən, qəstli gərdişdən
Yükü çəkə bilən yabı yaxşıdır.

Məsləhətsiz hasil olan murazdan,
İsmarışla gələn işdən, soraqdan,
Haram yolla qazandığın limondan,
Halal cır almanın turpu yaxşıdır.

Cahangir şikayət edir fələkdən,
Başı heç açılmır fitnə-kələkdən.
Ac qarına çox kef çəkib gülməkdən,
Tox qarına yolun qapı yaxşıdır.

## YANA

Bilirəm, sevincin dünya qədərdir,
Ey kəmxəyal, çap atını hər yana.
Hər nə oldu, mənə oldu, çox sağ ol,
Elə et ki, yayılmasın şər yana.

Yetdin mətləbinə, ey gözü ala,
Əlif qamətimi döndərdin dala.
Bir cavab ver mən verdiyim suala,
Neçə dəfə gərdiş etdin bir yana?

Ey bivəfa, Dalğın burda deyil tək,
Əldə fürsət varkən öz kefini çək.
Açıb qollarını dur ortada sək,
Nə qədər ki, səndən düşüb ər yana.

## YATIBDIR

Sükuta qərq olan amansız diyar,
Səndə necə şirin canlar yatıbdır.
Nə hökmün bəllidir, nə də hakimin,
Çox amansız, kəc fərmanlar yatıbdır.

Orada insanlar baxmır üz-üzə,
Qələm-kağız yoxdur, bir namə yaza.
Ağanın hökmüylə verilmir cəza,
Qullarla yanaşı xanlar yatıbdır.

Orada işləmir nə qızıl, nə pul,
Qəhərdən açılmır nə çiçək, nə gül,
Əl-ayaq tərpənmir, heç dillənmir dil,
Peşman olub xaramanlar yatıbdır.

Orda nə məktəb var, nə də müəllim,
Özüm də bilmirəm nəyədir meylim.
Hələ şad olmayıb heç bir diləyim,
Dilək bitən xoş zamanlar yatıbdır.

Orda müdam qışdır, heç olmur bahar,
Nə tacir, nə dərviş eləmir nahar.
Nə Qəmər görünər, nə Günəş doğar,
Ehsan olub asimanlar yatıbdır.

Orada seçilmir nadandan alim,
Heç kəs demir daha "neylim, mən neylim".
Nə "gedim" deyən yox, nə də ki "gəlim",
Üz döndərib aşinalar yatıbdır.

Bəndədən bəndəyə qalmayıb nemət,
Ya qisas ödənir, ya da ki, hörmət,
Zahiri gül-çiçək, batini zülmət,
O diyarda xiyabanlar yatıbdır.

Sanki gəldi hər məzar daşı:
"Bizi qoyub getmə, elin qardaşı".
Töküldü gözümün ən acı yaşı,
Dalğın bilir, çox qurbanlar yatıbdır.

## YARPAĞIN

Camaatdan bir gün sordum, dedilər:
“Gəlibdir bu kəndə höcü yarpağın.”
Qadınlar da ona məcburən baxır,
Soruşan yox: “varmı, bacı, yarpağın?”

Qurd iki yuxunu yatır salamat,
Üç yaşında dəhrə olur amanat,
Dörd yaşında istəyirsən canın sat,
Yollarda görünmür ucu yarpağın.

Cahangir öhdəyə alıb bu işi,
Nə qədər çalışdı, batmadı dişi.
Ayıbını bəyan etdi hər kişi,
Canımı yorubdur gücü yarpağın.

## YATIBDIR

Bu gün seyr elədim məzarıstanı,
Zaman, dövran burda tutqun yatıbdır.
Salam verdim, sanki gəldi bir səda:
"Şair, sən tək çoxu ötgün yatıbdır".

Zillədikcə gözüm yerə, göylərə,
Qəlbimi bağladım şanlı ellərə.
Basıb qədəmini son pillələrə,
Hamı bir nizamda, uyğun yatıbdır.

Ey diyar, qaradır hər ətəklərin,
Örtmüsən üstünü çox babəklərin.
Kam alan, almayan şux gözəllərin
Lalə yanaqları solğun, yatıbdır.

Hamısı geyibdir libası ağdan,
Xanlar əl çəkiblər müftə bal, yağdan.
Aləmi talayıb, şəhər dağıdan,
Tərk edib Süleyman mülkün, yatıbdır.

Bir məzar daşına sataşdı gözüm,
Qərib olduğunu anladım özüm.
Sərimdən huş getdi, dolaşdı sözüm,
Düşüb vətənindən itkin, yatıbdır.

Dalğın, fikrində nələr dolaşır,
Elə bil qəlbində cahan danışır,
Ey Torpaq, öyünmək sənə yaraşır,
Qoynunda Müşfiqlə Vurğun yatıbdır.

## YATIR

Aləmə fərman verən hökmdar,
Mənim çox işlərim çətində yatır.
Bəyənməyən şifən, şivyot, məxməri,
Soluxmuş beş arşın sətində yatır.

El qeydinə qalan Loğman Danəndə,
Filosof, bəstəkar, rəssam, xanəndə,
Qoca da, çoban da, qız da, gəlin də
Bu qara torpağın altında yatır.

Şairlər yazmayıb, durmazlar bekar,
Qəlbində sönməmiş o odlu ülkər.
Dalğın, sən inanma desələr əgər,
Bəxt daşı cahanın lütfündə yatır.

## YATIR

Bütün türmələrin öz qanunu var,
Orada hamı bir səhmanda yatır.
Keçilməz səhranı keçid eyləyən,
Karvanlar yorulub dumanda yatır.

Ağladan, öldürən, dağıdan, vuran,
Oğruyan, qaçıran, xəznələr yaran,
Aldadan, aldanan, soran, sorduran,
Bir ucsuz-bucaqsız ormanda yatır.

Bu işgəncə bilinməz bir əməldir,
Soyğunçu, cibgirlər qoyan təməldir,
Dalğının qorxusu vaxtsız əcəldir,
O da bilinməyən zamanda yatır.

## YATIRAM

Min şükür edirəm haqq verən paya,
Yaradıbdı bəxti qara, yatıram.
Çox cəfa çəkmişəm tifil çağımda,
Bağrım olub para-para, yatıram.

Təng oldu nəfəsim, kəsildi səsim,
Gəlmir daha şeirə, saza həvəsim.
Yanıma gələn yox bir doğma kəsim,
Həmdəm olub ahu-zara, yatıram.

Ömrümü yetirdim mən əlli yaşa,
Qaldı arzularım, çatmadı başa.
Dalğının yatağı dönübdü daşa,
Tapılmır dərdim çarə, yatıram.

## YA YOX?

Məndən salam olsun Aşıq Camala,
Suala cavabı gözləyim, ya yox?
Könül boxçasında olan yaqutu
Naşı bəzirgandan gizləyim, ya yox?

Əzəldən belədir Haqqın gərdişi,
Tərəqqi yox, tənəzzüldür hər işi.
Sözünün üstündə durmayan kişi
Çıxarsa qarşıma bizləyim, ya yox?

Dalğın, çox xoşdur hər cür imtahan,
Açılsa qanaram nə deyir dəhan.
Xurma qiymətinə var soğan satan,
Sevda bazarını izləyim, ya yox?

## YAZSAM, YAZARAM

Əyləşib qələmi alsam əlimə
Dastanlar dastanı yazsam, yazaram.
Həyat səhnəsində nə olacağını,
Gələcək zamanı yazsam, yazaram.

Bülbüllər oxuyar yaz olan zaman,
İxtilat şirindir düz olan zaman.
Bir dərdin dərd-qəmi yüz olan zaman
Ona da dərmanı yazsam, yazaram.

Ən dərin dəryadır elmin dəryası,
Ulu təbiətdir onun binası.
Əzəl başdan məni duyub-qanası
Ən dərin ayəni yazsam, yazaram.

Tarixi dərindən keçirən gözdən,
Yüz məna toplayar deyilən sözdən.
Mən ki çox ötmüşəm ormandan, düzdən,
Ol şəbi-hicranı yazsam, yazaram.

Yaş tökər analar, pozular səri,
Elə nitq söylərəm Adəmdən bəri.
Dünya qurulandan nədən ötəri
Hər tökülən qanı yazsam, yazaram.

Məni sevindirən cahanım ola,
Halıma acıyıb yananım ola.
Bircə il əyləşmək imkanım ola,
Bütün yol-ərkanı yazsam, yazaram.

Cahanda olmaya zülm, əsarət,
Nəğmədə “sülh” sözü ola nəqarət.
Fitnəli, kələkli, həm də biqeyrət,
Namussuz insanı yazsam, yazaram.

Daim gül açıla Yer kürəsində,
Lənətlər kül ola eşq kürəsində.
Çörək, duz bol ola el süfrəsində,
Belə şərəf-şanı yazsam, yazaram.

Dalğınam, olmadım qəflətdə yatan,
Köç etsin həyatdan qilüqal qatan.
Elin şərəfini qoruyan, tutan,
Elə qəhrəmanı yazsam, yazaram.

## YETİRİN

Öz şair qəlbimin salamlarını
Minnətdaram, mərd dostlara yetirin.
Könlümün ən gözəl arzularını
Məni əcəb qananlara yetirin.

Tale hökmdardır, zamanə hakim,
Belə bir haqlığa məndə qol çəkim.
Hamıya olubdur hər zaman ərkim,
Gənclər ilə piranlara yetirin.

Çox böyük fərq vardır şeş ilə yekdə,
Nigaran olmayın, qalmayın şəkdə.
Milçəyə ağırdır bir zərrə tük də,
Onu fikrə dalanlara yetirin.

Hicran zirvəsinə dikdin gözünü,
Tay etmədim nadanlara özümü.
Ən təmiz duyğumu, şirin sözümü
Məni hərdən soranlara yetirin.

Bir yanı Xram körpü, bir yanı Quba,
Sinəmin dərdinə deyir “mərhəba”.
Eşitsin sədəmi bütün el-oba,
Eşitməyib qalanlara yetirin.

Süfrələrdə mənim ilə kim oldu,
Gərdişimdən kim şad oldu, kim soldu.
Onlara dilimdə ehsanım boldu,
Ər sözümü tutanlara yetirin.

Mən Dalğınam, kökləmişəm tavarı,
Aşkar etdim zimistanla baharı.
Ruzigar yaşatsın pak insanları,
Varxiyanda olanlara yetirin.

## YETİRİN

Mənə bu kamalı verən elimə
Minnətdaram, dediyimi yetirin.
Yolumu gözləyən sərvinazıma
Hər muraza yetdiyimi yetirin.

Mən deyim, siz yazın bu son günümdə,
Qoy laxtalanmasın qan bədənimdə.
Hansı arzularım varsa dilimdə
Hər birinə çatdığımı yetirin.

Öpürəm bu yurdu – Azərbaycanı,
Olubdur hər zaman canımın canı.
Qədir bilən hər bir kamil insanı
Lap ürəkdən sevdiyimi yetirin.

Tam kama çatmamış övladlarımı,
Qırmayın onların qanadlarını.
Heç vaxt görməsinlər ahu-zarımı,
Haqq məkana getdiyimi yetirin.

Mən taleyi kəmin sözünü duyun,
Gün gələr sizə də olar bu düyün.
Dalğın heç qaçırmır ölümdən boyun,
Çox vaxtsız can verdiyimi yetirin.

## YOX

Ölüm cürbəcürdür, əziz dostlarım,
Ölüm var ki, ruh bədəndə, özün yox.
Fikrin gəzir yeri, göyü, ümmanı,
Nəfəs işlər, bu dünyada sözün yox.

Haqdan gəlsə sənə cəza fərmanı,
Soruşma loğmandan şəfa dərmanı.
Özün özün üçün tutsan divanı,
Bir kəs ilə danışası üzün yox.

Dalğın nahaq deməz, deyil ki, naşı,
Neçə cür bəladan qurtarıb başı.
O zaman ki hazır olur başdaşı,
Ruhun duyur, bu dünyada gözün yox.

## VARMI?

Vurduğun zərbəyə dözməz bu ürək,
Əlindən sazını mən alım gərək.
Almasam burnumdan gəlsin bu çörək,
Dediyim bu bəndə bir sözün varmı?

Qüdrətin hazırdır cavab dilində,
Aşığa hazırdır cavab dilimdə,
Sözlərin qurtarıb, sazın əlimdə,
Ruhlanıb çalası boş sazın varmı?

Mən cavan şairəm, xoşdur xatirim,
Kim məni bağlasa olsun afərin.
Yazmışam, oxunub yüz min dəftərim,
Yazılıb oxunan kitabın varmı?

Gəl biz şərti edək ömür sürənə,
Salam verək bu məclisə gələnə.
Badə verək hürülərin əlinə,
Dediyim sevdaya gümanım varmı?

Aşıq Cuma keçmişdə idi mələk,
Çox çalışdı, saznan bitmədi dilək.
Ondan alıb mənə verdi dad fələk,
Mən görən gecədən xəbərin varmı?

## GÖRƏNDƏ

Könül, gəl sən düşmə eşq həvəsindən,
Dünya kimi riyakarı görəndə.
Səni xəlq edəndən eylə mərhəmət,
Sənə qarşı zülümkarı görəndə.

Çox halıdır haqqın işindən Musa,
Hökmünə misaldır ondakı əsa.
Dördüncü fələkdə əyləşdi İsa,
Adəm nəvəsindən zarı görəndə.

Mayan halaldırsa, harama varma,
Söyüd üstə bar olmaz, onu suvarma.
Səndən Fərhad olmaz, qayanı yarma,
Qartal yuvasında sarı görəndə.

Altı min altı yüz altmış altı,
Quran ayəsidir haqqın ayəti.
Osman qələm çaldı, Cəbrayıl çatdı,
Murtuza tək Hümmətkarı görəndə.

Qəmgin, sən peydasan haqqın camından,
Razı qal əlinə çatan payından.
Məhşərə gedincə çıx imtahandan,
Dar məzarda tələbkarı görəndə.

## EDİNCƏ

Odunla ocağın gör tədarükün,
Qolların çırmayıb xəmir edincə.
Adi bir daşdan qoy körpüyə dirək,
Başqa boş istanı dəmir edincə.

Zəhmətə qatlaşıb belini bükən,
Onu biləcəksən hər nəyi əksən.
Evini yer ilə gəl eylə yeksan,
Düşmanın evini təmir edincə.

Qəmgin, gəl addama üstündən közün,
Uzağı görməyə istərsə gözün.
Ol qulu mərd ərin, düz olsun sözün,
Xan olub namərdə əsir edincə.

## FƏLSƏFƏ

İnsan tələbədir, həyat müəllim,
Dünya bir məktəbdir, zindan fəlsəfə.
Elm xəzinədir, hicran ehtiyac,
Təşkil olub altı addan fəlsəfə.

Diləklər içindən dilək seçmişəm,
Bəşəri hər zaman gülər istərəm.
Bütün yer üzündə sülh nəğməsini,
Ucalda göylərə, ellər istərəm.

Yaz olanda şeyda bülbül qərarı güldə tutar,
Qəvvas ona deyərlər ki, axanı seldə tutar.
Səhraları keçmək üçün karvanbaşı ər gərək,
Yaman olmaz hər mirvari, yükünə ləl də tutar.

Ey qurban olduğum qadir İlahi,
Nə deyib dünyaya yaratdın məni?
Qohumdan-qardaşdan eyləməzdin pay,
Qalmışam yurdumdan-yurddaşdan ayrı.

Ey dünya, sən baxma şair Qəmginə,
Əbədidir mənə olan zamanə.
Müqəddəs xalqların şəhm zamanə
Ölkədə adımı yaşadacaqdır.

## KAŞ

("Ş" hərfi üstündə)

Şahim, səndən könül dilək istəmiş,
Şahin sara şikar olmayaydı kaş.
Şirin can tək ilk məhəbbət əzizmiş.
Şər qatan cahanda qalmayaydı kaş.

Şirin kəlmə ola dilə bükülmüş,
Şeyda bülbül daim gülə bükülmüş.
Şeir yazan qələm ələ bükülmüş,
Şair qəm-xəyala dalmayaydı kaş.

Şair Dalğın, söylə, sənə nə oldu?
Şuxları görəndə peymanın doldu.
Şüşə tək könlünü daşlara vurdu,
Şirin can vecinə olmayaydı kaş.

# TƏCNİSLƏR

## AYA BAX

Məndən əgər xəbər alsan deyərəm,
İbtidadan dərs alanda aya bax.
İl bitəndə sənə sual olacaq,
Neçə gündür, neçə həftə, aya, bax.

Əsl insan yaxşı dilək diləsin,
Yaxşı dostu yaxşılığa dillənsin.
İstəmirəm göz qamaşıb dil əssin,
Yalan demə el içində, ayə, bax.

Dalğın deyər, nəsihətim bahardır,
Kamil bağbanların meyli bağadır.
Yaxşı oxu, sən də ol bir bahardır,
Elm əhli nəzər salar Aya, bax.

## ATA-AT

Günlərin bir günü çıxdım bazara,
O gündə də aldı mənə ata-at.
Dünyanın malına bərabər idi,
Versələr verməərəm yüz min ata-at.

Evə qayıdanda düşdü can-avar,
Meşədə rast gəldi mənə canavar.
Mən bildim ki, ondan zərəl cana var,
Ovçular gördülər, qopdu ata-at.

Cahangir eşitdi tüfəng atıldı,
Güllə dəyən vəhşi çökdü atıldı,
Atəşin səsindən köhlən atıldı,
Çalışdı, bilmədi mənə ata-at.

## BAĞLAR

Sizi görüb yaman düşdüm möhnətə
Görünmür nə dostlar, nə yar, a bağlar!

Mən aşiq yara bağlar,
Ürəyim yara bağlar.
Mənim bu günümü görsə
Yarım, yarəb, ağlar?

Tufan vurub yerlə yeksan elədi,
Qalmadı nə dosta, nə yara, bağlar.

Yolu uzaq getmək üçün dar adda,
Namərdə sən bel bağlama dar adda.

Mən aşiqəm, dar adda,
Genişlikdə dar adda.
Bu dəryanın içində
Məskənimdir dar ada.

Xain görsə, sən yanırsan dar adda,
Nə dərdin soruşar, nə yara bağlar.

Qəvvas oldum, dəryalarda üzəm mən,
Baş vurdum dərinə, çıxdım üzə sən.

Dalğın deyər, üzəm mən,
Ahu-zarı yüzəm mən.
Çox can atıdm bəladan
Əllərimi üzəm mən.

Bağ becərdim, istədim nar üzəm mən,
Nə mənə qalmadı, nə yara bağlar.

## BAX

Yaxşı insanların dərdi az olar,
İstəyəllər kömək edə elə, bax.
Xalqın səni rəhbər seçsə azma çox,
Xarüqə yaradan milyon ələ bax.

Xəlvət gəzsən, günü keçər nə sayaq?
Xiridarın olmayanda nə sayaq?
Xananın üstünə gəlsə nəs ayaq,
Sən onda gəl tufana bax, yelə bax.

Xatirin qalmasın, tərsliyi burax,
Xəstənin yanına loğmanı burax.
Xayinin boynunu birləşək, buraq,
Heç çəkinmə, bu mahala, elə bax.

## DALBADAL

("L" hərfi üstündə)

Leysan yağar, pərvazlanar çəmən-çöl,
Laləyanaq güllər bitər dalbadal.
Laçın cövlan edər, oxuyar bülbül,
Leylilərin seyrə gələr dalbadal.

Ləbi şəhər, tuti dilli, incə bel,
Lərzələnib dal gərdənə tökən tel,
Ləpirinə heyran qalıb tamam el,
Ləbləri xoş dilək dilər dalbadal.

Ləyaqətli işə olun həmayil,
Ləngiməyin, gəlib çatar təzə il.
Laləli ömründən, Dalğın, sən də bil,
Laf eləmə, ötür illər dalbadal.

## DUVANNI

Əzizlərim, var xəbərim bu işdən,
Deyirdilər Qobustana Duvannı.
O qədər gözəldir o yurd elə bil
Görməyibdir heç bir zülmü, divanı.

Dalğın görcək sizi kimi simsarı,
Sərraf dükanından aldım sim-sarı.
Mürvət elə, gəl sazıma sim sarı,
Mən çalım "Kərəmi", "Təcnis", "Divanı".

## QARA BAĞLAR

Duyğusuz, kamalsız, həm də biinsaf
İnsanın köksünü hey qara bağlar.
Zimistan sevərmi xoş güzəranı,
Meylini çovğuna, hey qara bağlar.

Müqəssir olanı divan əyləməz,
Əcəli çatanı dərman əyləməz.
Payızın günəşi boran əyləməz,
Aldadıb tökəcək hey qar, a bağlar.

## GÖZƏLƏ

Əzəldən taleyin gəlsə tərsinə,
Ətrafa nəzər sal, yaxşı göz ələ.
Arzum budur düz gətirsin işlərim,
Görüm qismət olsun gözəl gözələ.

Ərşin xəracını verər dağ, dərə,
Kişi ol, meylini sal sən də ərə.
Əzizin istəsə lalələr dərə,
Mane olma onu yığan gözələ.

Dəli könlüm, bir kükrəyib əssənə,
Amma lağ eləmə sakit əsənə.
Cahangir əyilib deyər, “ə”, sənə,
Ruhdan düşmə, öz bəxtinə göz elə.

## NƏ DANA

Sevgilim, əğyara görüş üçün sən
Söz vermə heç nə axşama, nə dana.
Sözün varsa çəkinmə, gəl, mənə de,
Sirrin vermə hər qanmaza, nadana.

Mən aşkar dillənsəm, çox çəkər, uzun,
Kim bacarar qəlbini dələ düzün.
Həqiqəti danan hər dələduzun
Həddi nədi nə yox deyə, nə dana.

Dalğının lap çoxdur hər cürə varı,
Bağ salıb yanına çəkmişəm barı.
Görüşə elə yer seçəydin barı,
Qalmayaydı orda inək, nə dana.

## TƏRSİNƏ DÖNDÜ

(“T” hərfi üstündə dodaqdəyməz)

Tərs keçdi həftələr, tərs dolandı ay,
Tərs ilin gəlişi tərsinə döndü.
Tərs xəyalın tərs də olar arzusu,
Tərs edən hər işi tərsinə döndü.

Tərs yola düşənlər tərsə, çat olar,
Tərs ata əkəndə tərs də zat olar.
Tərs anlayan adam tərssöhbət olar,
Tərs edən xayini tərsinə döndü.

Tərstək Cahangirin canı alışdı,
Tərs sözlər eşitdi, tərs də danışdı.
Tərsinə qayıtdı, tərsə yanaşdı,
Tərs çaldı sazını, tərsinə döndü.

## ÜZÜM

Kamil bağban bəslədiyi bağında
Bitirməsin pis almaynan pis üzüm.
Bu həyatda bir gün üzüm gülməsin,
El içində olsa əgər pis üzüm.

Söz dağından qeyri yara sağalar,
Şahin quşu şikarını sağ alar.
Gül kökləri yerdən şirə sağallar,
Əlim getməz qönçəsini pis üzüm.

Lənət olsun pis işləri umana,
Mən oğlunam, məndən xeyir um, ana.
Dalğın deyər, girmiş olsam ummana,
Rəvadırmı dalğasında pis üzüm?!

## YARA YAR

Ərz edirəm sənə ürək sözümü,
Yaman yanır canımdakı yara, yar!
Səndən qeyri söylə görüm kimim var?
Neştər gətir, aç yaramı, yar, a yar.

Çox incidir canımdakı nəm məni,
Oxuyanda yardan gələn naməni.
İncitməsin bir də səni, nə məni,
El də desin xeyrə, şərə yarayar.

Eşq odunda cismin yağı yananda
Başını uca tut yağı yananda.
Dalğın, tapılmasın yağıya nan da,
Amma görüm qismət olsun yara yar.

## HA YANDI

Bilmək olsa bir gözəlin əhdi nə,
Aşiq görər qibləgahı hayandı.
Bilmək olsa kim sadiqdi əhdinə,
Min il keçə, yar unutmaz ha andı.

Heç əl çəkmir məndən sivri qəmələr,
Nə sirdi ki, fələk gözdən qəm ələr?
Yazıq bəndə xifət çəkər, qəm eylər,
Ürək onu ha düşündü, ha andı.

Mən gözlədim quyuya su dolana,
Mən istədim el qəlbi şad dolana,
Pərvanə ki ətrafında dolana,
Hamı deyər, şam alışdı, ha yandı.

Coşğun deyər, ana oldu, qal ana,
Rəhmət gedən kəsə, sağlıq qalan,
Bir könül ki, eşq oduna qalana,
O könül də məhəbbətə hayandı.

## GƏLİNCƏ

Addım-addım yeri mərdü-mərdanə,
Cığalayıb de təcnisi gəl incə.

Mən aşığam gəlincə,
Körpə olar gəlincək.
Əlifdən dərs almışam,
Ayə deyim gəl öncə.

Oxuduğum əbcəd qəlbi şad eylər,
Qardaş-bacı olan kəsə gəlincə.

Xoş sədanı yayaq bizim ellərə,
Qüvvət versin zəhmət çəkən əllərə.

Mən vurğunam ellərə,
Bir arzum var ellərə,
İftixarlı yetişsin,
Çox-çox yeni illərə.

Ney dodağa, sazlar alaq əllərə,
Dastan deyək incə-incə bellərə.

Bayram oldu kabab üçün köz eylə,
Saqi süzsün, al şərabı göz eylə.

Şəms deyər, köz eylə,
Kabab bişsin köz ilə.
Söz verin, sağlıq desin,
Xumarlanmış gözələ.

Ömür sürün düz ilqarlı gözəllə,
Qocalıq güc gəlib qəddi əyincə.

## NƏ QARA BAĞLAR

Yenə mən neylədim qanlı fələyə,
Taleyin sərinə nə qara bağlar.

Mən aşiqəm nə qara?
Xumar zülfün nə qara?
Fələk bir gün vermədi,
Nə ağ olsun, nə qara.

Bahar min busatla çalsa nağara,
Bəxtini çovğuna, nə qara bağlar.

Günahkaram mən bu işdə düzü nə,
Bildiyimi söyləmişəm düzünə.

Mən aşiqəm düzünə,
Ünüm çatar düz ünə.
Müxənnəsdən pay umma,
Lənət onun düzünə.

Əl aparsan çatmaz könlüm düzünə,
Nə Şəki-Şirvanlar, nə qara bağlar.

## OF-OF

Ovçu bərəsindən şikar keçəndə
Vurmağı bilməsə hay ellər of-of.
Bir qədər dalınca nəzər salaraq,
Çəkib xəcaləti eyləməzmi of-of?
O biçarə ötürəndə köksünü
Düşdükcə yadına hay ellər of-of.

Yay fəslində dağda olar qar topa,
Bağrım yansa, get əzizim, qartopa.
Əmlik quzu şikar olsa qartala,
İçəndə qanını eyləməzmi of-of?
Çoban qoyun sürüsüynən keçəndə
Görüb bu haləti, hay ellər of-of.

Dalğın deyər, qismət olsun sinəsin,
Sirr verməkçün dost dostunu sınasın.
Dost yolunda dost görəndə sinəsin,
Ağrı çəkən onda eyləməzmi uf?
Xilas olan getsə əgər üz qoyub,
Vəfalı dost görər, hay ellər of-of.

## ÜZƏNDƏ

Kamil ovçu, gəl yarama əl atma,
Bir cüt sona geniş çöldə üzəndə.

Aşiq deyər üzündə,
Bir cüt sonra üzəndə.
Onların ürəkləri
O vaxt olur yüzəndə.

Sən özündən gəl bir elə imtahan,
Necə olur əlin yardan üzəndə.

Məni eşqə düçar etdi Yaradan,
Mən də oldum əsərləri yaradan.

Aşiq deyər yaradan,
Xilas etsin yaradan.
Məhəbbət güzgüsüyəm,
Qoy görünüm yaradan.

Xəzan dəymiş yarpaq kimi yar addan,
Düşəcəkdir meyli olsa yüzündə.

Şəms deyər ki, sinəm oldu bax yara,
Qoyma onu müxənnətlər bax, yara.

Mən aşiqəm bax yara,
Sinəm oldu bax, yara.
Naşı təbib əli ilə
Qoyma onu bax, yara.

Laçın təki çiyin üstdən bax yara,
Qəvvas olub dəryalarda üzəndə.

**SƏN DƏ AL**

Tarlaya çıxınca səhər açıldı,
Tayların çalğıçı aldı sən də al.
İşin arxasını sındıran zaman
Hansı tuç çalğını aldı, sən də al.

Cahangir təcnisi deyir arada,
Halaldır əhsanlar sirli ara da,
Həyat şinelinə qılsın ar, oda
Çalğıçı çalğını aldı, sən də al.

# QƏZƏLLƏR

## BƏNZƏDİM

Yar, məni sevəndə sən dürdanəyə bənzədim,
Sən eşqin şəmində, mən pərvanəyə bənzədim.

Dəhanın qədəh olub, busən eşqin şərabı,
Bildinmi o zamanlar xanəndəyə bənzədim.

Etməzdim hey xəyal ki, hicran olar ölməmiş,
Elə günə qaldım mən, divanəyə bənzədim.

Ey zalım, hicran ilə çəkdin dara Mənsuru,
Qəlbim nar içində, üzdən cunayə bənzədim.

Biçarə etdin Dalğını, əğyarə bel bağladın,
Ey bivəfa, demə ki, qeyri xınaya bənzədim.

## BU GÜN

Ey sərvinaz, heyranam səndəki naza bu gün,
Gözlərim zöhrə olub şoox salır üzə bu gün.

Bixəbərəm gərdişindən, insaf et, alma canımı,
Səni görcək sərxoşam, içməmiş buzə bu gün.

İndi zimistan fəslidir, buna şübhə etməyək,
Bəlkə yanılıram mən, dönübdür yaza bu gün.

Məni məftun elədi oğrun-oğrun baxışın,
“Uf” demirəm gəlsə də başıma qəza bu gün.

Nə qədər ki, gözlərim səni görür, ey ləbi qənd,
Könlüm qonmaz inan ki, növrəsə qıza bu gün.

Bir busə ver ləbindən dərdindən ölən Dalğına,
İnşallah, Yaradanım pis baxmaz bizə bu gün.

## EŞQİNƏ

Ey könül, qəzəl de cah-cəlalın eşqinə,
Şeyda olan gərəkdir coşsun gülün eşqinə.

Madam ki, öləsiyik, qəm-xəyal etməyək biz,
İçsək şərab dərd qanan, şux gözəlin eşqinə.

Cismimə bir vəlvələ düşdü bu gün, nəhayət,
Qurban verrəm canımı siyah zülfün eşqinə.

Doldur badəni, saqi, şərabı indi içək,
Al yanaq, qaymaq dodaq, şəkər dilin eşqinə.

Qarşımda boyu bəstə, xoş xəyallı əyləşib,
Gəl içək badələri xoş xəyalın eşqinə.

Qoy var olsun sonadək insana can sağlığı,
Ki, cəfa çəkə bilsin incə belin eşqinə.

Gör nədən qəlbim coşdu, aşkara deyim gərək,
Lərzələndi bədənim ağ camalın eşqinə.

Xumarım, gəl yanıma, Dalğına bir busə ver,
Sonra içək şərabı belə vəsfin eşqinə.

## GÖZƏL

Mən sənə vurğunam əzəldən, gözəl,
Yarandın cahan gözəldən gözəl.

Səbrim tükənibdir, yoxdur qərarım,
Olsana dərdimi azaldan gözəl.

Mən də bir cavandım, oldum divanə,
Təbib ol, ol işi düzəldən gözəl.

Xəyalım qovuşur ziffətə, kinə,
Keçəndə sən uzaq mənzildən, gözəl.

Sən məni aşikar eylədin əsir,
Şeşpəri də vurdun gizlindən, gözəl.

Mən səni gördükcə biganə kimi,
Yaralar qan verir təzəldən, gözəl.

Bəs mən necə olum Taleyə asi,
Ay Dalğını belə nəzildən gözəl.

## GÖZLƏ GÖR

Məhəbbət bilmək üçün ayrılığı gözlə gör,
Qocalığı görmək üçün cavanlığı gözlə gör.

Qafil olma el içində, öyrən işi bilənlərdən,
Ucalığı görmək üçün insanlığı gözlə gör.

Sirrin vermə hər nadana, naqqal olar, doğru deməz,
Yaxşılığı görmək üçün yamanlığı gözlə gör.

Böyüklərə hörmət elə, yerin tanı hər məclisdə,
Bahalığı görmək üçün başsızlığı gözlə gör.

Dar günündə dostu sına, çünki tanı insanları,
Ustalığı görmək üçün ayıqlığı gözlə gör.

Xidmət elə öz xalqına, Vətənini qoru, saxla,
Dalğın deyər, sağ can üçün can sağlığı gözlə gör.

## MƏNİ

Ey mənim ahu gözlüm, sevmişdin yeganə məni,
De, kimə uydun belə, sanırsan biganə məni?!

Sənin zülfün kəməndində ölsəm fəryad etmərəm,
Ölləm sən əgər oxşatsan ilqarsız bir canana məni.

Mən də sənin kimi gəncəm, eşqin giriftarıyam,
Gündən-günə bihal edir etdiyin bəhanə məni.

Yar yarına naz etməyin yəqin ki, bir qərarı var,
Görürəm ki, etdiyin naz edəcək divanə məni.

Ya könlümü könlün bağla, şamı ol pərvanənin,
Ya bağlat qollarımı, saldır dar zindanə məni.

Dalğının sevdasına düşən olmaz peşiman,
Yar, sən alçaq etsən də, ucaldar zəmanə məni.

## OLMUŞAM

Özümün taleyinə özüm heyran olmuşam,
Gahdan xumar olub gülən, gahdan viran olmuşam.

Özgəyə nadan deyib özünü alim sayana,
Sənətinin mənasını aşkar soran olmuşam.

Mən bir gündüz olmuşam, hər bucaqda şövqüm var,
İşığımla yarasanı gecə yoran olmuşam.

İsgəndər tək zülmətlərdən abi-həyat axtarma,
Ora yenə gedənlərə çiskin-boran olmuşam.

Külüng ilə Fərhad çapdı dağı Şirin eşqinə,
Qələmimlə el içində yüz dağ yaran olmuşam.

O qəlbin ki neçə illər üzərində buz donmuş,
O buzları əritməyə isti aran olmuşam.

O dünyanın cənnətindən Adəm kimi qovuldum,
Mən Dalğınam, bu dünyada cənnət quran olmuşam.

# DİVANİLƏR

## AYRILMASIN

Ərz edirəm bağdan olan barından ayrılmasın,
Sərraf olub dükan açan zərindən ayrılmasın.
Namərdlərə əl açınca mərd olanın qulu ol,
Qədir bilən min yaşasın, varından ayrılmasın.

Çox görmüşəm eşq ucundan olubdular divana,
Məhəbbətdən qeyri yoxdur onlar üçün bəhanə.
İnsan oğlu çox şey görər dolandıqca zamana,
Düz ilqara sahib olan yarından ayrılmasın.

## BAX

Şair olan, al qələmi, göz açıb hər yana bax,
Gör neçə ustad olubdur, qurğunu qurana bax,
Varı yoxa, yoxu vara qatıb etdi bərabər,
Dilsizlər dilə gəlibdir, ədalət dövrana bax.

Hüququn kəlamından qadının artdı sanı,
Gördü yol-ərkan budur, o da atdı çadranı.
Qol çırmayıb gül əkdilər, bəzədilər hər yanı,
Döşə taxıb “Qızıl ulduz”, bəxtəvər insana bax.

Çətin olur vəsf etmək bir diyarı görməmiş,
Şanlı Azərbaycanımı dözəmmirəm öyməmiş.
Dalğın deyər, çöl-biyaban al qırmızı don geymiş,
Gündə yeni həyat quran Muğana, Şirvana bax.

## BİR SAAT

Yarı görcək qəlbi coşar aşığın da bir saat,
Böcək olub gəzmək istər qurşağında bir saat.
Başına tufan ensə də, qorxu gəlməz gözünə,
Çox sevinər yatsa yarın yatağında bir saat.

Qəm, hicran, eşq yaranıb qədimdən təbiətin,
Sən torpağın, torpaq sənin bir gün olar ziynətin.
Dünya kefi, cah-cəlalı nəyə lazım qürbətin,
Yaşa doğma vətənin daşlığında bir saat.

Dalğın gəldi bu qərara xəyal başdan keçəndə,
Qurub mizan tərəzini, ağ-qaranı seçəndə,
Yüz il ömür yaşamaqdan zülmətlərin içində,
Yaxşı olar al Günəşin işığında bir saat.

## CAN-CAN ƏZİZ

Zamanaya asi olma, gül üzlüm, can-can əziz,
Zəhmət ilə şöhrət tapır hər alim, can-can əziz.
Zambur kimi qanadlanıb elmin çiçəyində gəz,
Ziyan çəksəm tərsə dönsün iqbalım, can-can əziz.

Zarafata çox qoşulma, cəngi edər dələduz,
Şövq ilə sən bax həyata, işini nizama düz.
Sərraf olub könüllərə ləl, yaqut, gövhəri düz,
Zorakarlıq edən görər nədir zülm, can-can əziz.

Düzgün olsa yaxşılığın, heç qızarmaz onda üz,
Zaval dəymiş bir insanla haqq-hesabın varsa üz.
Cahangirin zəbanında nəsihət var neçə yüz,
Zirvələrə çox dırmanma, mən ölüm can-can əziz.

## DANIŞ

Hansı gündə Adəm gəldi, sonra Həvvadan danış,
Kim düşübdür bu torpağa ərşi-asimandan danış.
Ol həbibim neçə şeyi bağışladı Adəmə?
Quranı çap eliyən qadir Osmandan danış.

Nəlayiqdir ariflərə bu sirr qalsa dünyada,
Neçə dirək dayanıbdır yerlə göyün arada?
Məkkə ilə Mədinəyə bünövrəni qoyanda
Hardan gəldi hazır daşı Quran ustaddan danış.

Usta Cahangir Dalğın çox işdən oldu hali,
Hansı şeyin səbəbindən müşkül olub qocalı.
Ol Həbibim Məhəmmədə verdi neçə sualı?
Hümmətinə sadiq olub verən cavabdan danış.

## EŞQİNƏ

Bağban olan cəfa çəkər barlı bağın eşqinə,
Əsl insan geşt eliyər xoş sabahın eşqinə.
Şeyda bülbül, nəğmə oxu, oldun eşqə giriftar,
Ol bağına ətir saçan gül budağın eşqinə.

Məqsədimiz sülh olubdur, heç kəsdən deyil pünhan,
Siyasətdə yekdilik biz, eşitsin cümlə cahan.
Düşmənimiz şübhə ilə bizi etsə imtahan,
Zəfərimiz qalxar göyə al bayrağın eşqinə.

Yer üzünün insanları bir-birinə yar olsun,
Səhralarda bağ salınsın, tükənməyən bar olsun.
.......................................................................................
Qarı düşmən yoxa çıxsın azadlığın eşqinə.

## ƏLDƏN GEDƏR

İlk sevdanı kor eyləmə, bazarın əldən gedər,
Çox artığa etmə tamah, nəzərin əldən gedər.
Düşünməmiş çox danışsan huşun çıxar sərindən,
Xeyir getsə şər gələcək, güzarın əldən gedər.

El içində düzgün dolan, vermə əldən halalı,
Dərd əhlinə kərəm etsən heç görməzsən zavalı.
Dalma qəflət yuxusuna, xoşdur dövrün yığvalı,
Yoxsa fələk qılığında düz arın əldən gedər.

Dalğın deyər, bax gərdişə, insana dad eyləmə,
Əyyar ilə həmdəm olub iqbalı cod eyləmə,
Hakim olsan evlər yıxıb özünü şad eyləmə,
Mərhəməti əsirgəmə, ol zərin əldən gedər.

## FƏLƏK

Kənar eylə yamanları bizim mahaldan, fələk,
Mərd insanı heç ayırma yaxşı iqbaldan, fələk.
Sualımdam gileylənmə, mən ki sənin qulunam,
Nə vaxt məni ayırarsan müşgül bəladan, fələk.

Yaratdığın bəndələrə çox xisləti veribsən,
Adəm ilə ol Həvvanın vay günün görübsən.
Yerlə Göyün arasında dondan-dona giribsən,
Neçə-neçə Rüstəm Zalı salıbsan haldan, fələk.

Dalğın çıxıb qəm dağının zirvəsinə, düzdümü?
Baş endirmək nadanların dövrəsinə, düzdümü?
Qartal quran bir yuvada sar isinə, düzdümü?
Heç görürəm ar etmirsən belə əhvaldan, fələk.

## GERİ DUR

Çox mənimlə cəngə girib olma sərsəm, geri dur,
Sən tək necə kəpənəyə alov, şamam, geri dur.
Bu meydandır, o da sənsən, bu da mənəm, gəl görüm,
Gözündən yaş axıdaram, gözlə bir dəm, geri dur.

Ömrün boyu hər pis işin çəkərsən ağrısını,
Xeyir bilginən özünə ziyanın yarısını.
İş görəndə yaxşı-yaxşı fikirləş gerisini,
Xalqın zəhləsini töküb etmə gözü nəm, geri dur.

Çoxbilmiş tək atılıbsan meydanın ortasına,
Nahaq yerə oxşatmaynan özünü el atasına.
“Mənəm” deyib nə döyürsən döşünün taxtasına,
Dalğın bilik dəryasıdır, ey ağlı kəm, geri dur.

## GÖZLƏ SƏN

İnsan üçün əziz olan canı gözlə, gözlə sən,
Can sağdırsa ol muğayat, qanı gözlə, gözlə sən,
Həqiqət tapmaq üçün əyridən qaç, uzaqlaş,
Yediyin, həm yedirdiyin nanı gözlə, gözlə sən.

Hərənin bir arzusu var bu dünyadan gedincə,
Çalış yetiş bir kamala yaş qəddini əyincə,
Doğruya heç zaval olmaz qoşulmasa nadincə,
Sidqin bağla bir Allaha, şanı gözlə, gözlə sən.

Çalışanın alın təri bir gün dönər şərbətə,
Hazır yeyən qədir bilməz, tez çəkilər xəlvətə,
Dalğın deyər, mənim kimi düşər olsan qürbətə,
Hər yetənə bel bağlama, yanı gözlə, gözlə sən.

## GÖZLƏ SƏN

Xalqa əgər rəhbər olsan, elmi gözlə, gözlə sən,
Ucalmaqdan alçalarsan, dili gözlə, gözlə sən.
Əlində varsa ixtiyar, ver nəfsinə qadağa,
Haram şeyə heç bənd olma, yolu gözlə, gözlə sən.

Elin içində söylənir, haqq yazılıb bu fərman,
Onun qulu olacaqsan, hər kimə olsan yaman.
Öz-özünü dərdə salan heç kimdən tapmaz dərman,
Güvənmə cürətinə, seli gözlə, gözlə sən.

Xalqa bildir həqiqəti, Dalğının gövtarını,
Kor yapalaq ala bilməz pələngin şikarını,
Xəzan gəlib yetişincə tez qurtar xırmanını,
Dolduracaq dərələrə, yeli gözlə, gözlə sən.

## XUDA

Yaranmışa Xaliq olan, həm Loğman, Xuda,
Neçə gündə yeri, göyü elədin, Xuda.
Ayı, günü, ulduzları səmaya bəxş elədin,
Torpağa Adəm, Həvvanı göndərdin mehman, Xuda.

Tur dağına göftar üçün cəlb elədin Musanı,
Fironu məğlub edib bağışladın əsanı.
Məryəmə oğul veribsən o atasız İsanı,
Dörd kitabı bir qələmlə yazıbdır Bəhmən, Xuda.

Haqlığına səcdə qılır yüz iyirmi dörd min nəbi,
Məhəmmədə bağlamısan yetmiş iki nayıbı.
Osman yazdı Qurabi-Kərimi, Dalğına verdin təbin,
Müxtəsəri, bəşər üçün olubsan azman, Xuda.

## MƏN

Məclisin əvvəlində deyərəm divani mən,
On doqquzda əcəb seçdim yaxşını, yamanı mən.
Göz yetirdim, nəzər saldım həddini aşanlara,
Aşiqlərin çoxlarına tutmuşam divanı mən.

Tutmuşam ərşin qulpundan, fikrim yana ayrılmaz,
Xəbislərin xanasından kənar məna ayrılmaz.
Cismin olsa od içində, heç bir yana ayrılmaz,
Mötəbər Qırxlar pirinin olmuşam mehmanı mən.

Dalğın deyər, şair olan gəlib çıxsın qabağa,
On sözümə bir söz desə, bir qoç desin sadağa.
Mənə nə edə biləcək nayıb, koxa, baş ağa,
Sidqim Haqqa bağlamışam, edirəm gümanı mən.

## MƏNƏM

Gəl girişmə mənlə bəhsə, hər işdə pərgar mənəm,
Düşmənə aman verməərəm, gör necə kargar mənəm.
Bataram bağrın başına yaydan çıxan ox kimi,
Zalımlara divan tutan höcət, davakar mənəm.

Nə qalxırsan yüksəklərə, ulduzsanmı, Aysanmı?
Danışırsan Rüstəm-Zaldan, heç sən ona taysanmı?
Deyirəm özgə sözünü, bir düşün gör keysənmi?
Sözün üstə söz qoymağa hazır cavabkar mənəm.

Dalğın deyər havalanıb, çox danışma hüt kimi,
Bax edərəm dəhanında zəbanını küt kimi,
Allam sazın, həm libasın, qalarsan lap lüt kimi,
Düşmənlərə zəhrimaram, dostlara şəkər mənəm.

## MƏNƏM

Həm bəbirə, həm pələngə, həm şirə kaman mənəm,
Şairliyin hər sirrində bir dərin ümman mənəm.
Düşsəm alim məclisinə şad olub sevinərəm,
Dərələrə çəkilməyən çiskinli duman mənəm.

Sərrafsansa yaxşı tanı dürdanəni, almazı,
Bal yerinə satmaginən turşməzəli bəkməzi,
Qanan dillər əzbəridir, tərifləmə qanmazı,
Əyrilərdən çəkinməyib düzlüyü uman mənəm.

Başlamamış cəngi-şabaş yaxşı tanı Dalğını,
Əbəs yerə sinəm üstə salmginən yanğını.
Dostlarımdan üz döndərmə, yaxın qoyma yağını,
Yaxşılara canım qurban, yamana yaman mənəm.

## MƏNİM

Qurban olduğum Xudadan gəlib fərmanım mənim,
Min bir addan üz döndərən olar yamanım mənim.
Məskənimdir dar qalalar, dərdimə yoxdur məlhəm,
Məğribdən ta Məşriğədək tutub fəğanım mənim.

Mətləbimi kimə deyim, dərd məndən getsin tamam,
Mömin kimi səcdə etdim, kərəmsiz oldu duvam.
Mirzəliyə vadar etdi məni sübhanı butam,
Meyil verdi sükutluğa, bəhri-ümmanım mənim.

Dalğına nə fərqi var, çünki yoxdur tutarım,
Mizrab düşdü barmağımdan, paslı qaldı tavarım.
Məkan mehman eləməsə dərdi hara aparım?
Mümkündür ki, ancaq qala xalqa dastanım mənim.

## OLARSAN

Mənəm deyib yaxanı çox gərmə, peşman olarsan,
Hal bilməyən bir meydana girmə, peşman olarsan.
Mərd igidin səbri olar, seçər yaxşı-yamanı,
Məsləhətlə düzələrsə vurma, peşman olarsan.

Taleyinə nə yazılıb, ondan artıq heç olmaz,
Olana baş əyənin mənzilgahı heç olmaz,
Kəndxudaynan bir müşkülün həyat tərzi tutuşmaz,
Sən də baxıb nagah canın yorma, peşman olarsan.

Bax, xeyirxah qəlbi vardır çox insanın dünyada,
Qarışqanı öldürginən əgər bilsən yarada.
Mümkün varsa hər dostuna, hər bədəsil arvada
Dalğın deyər, olan sirri vermə, peşman olarsan.

## SALAM-ƏLEYKÜM

Çox vacibdir demək belə yerdə salam-əleyküm,
Salam alar varsa kamal sərdə, salam-əleyküm.
Yaxşı adət çox vacibdir insan üçün hər zaman,
Musa Haqqa demişdi Turda salam-əleyküm.

Həyatımız şən keçinsin, çataq şana-şöhrətə,
Mərd insanlar düşməsinlər namərdlərə minnətə.
Meyil salın, əziz dostlar, daim gözəl işrətə,
Qədir bilən uğramasın dərdə salam-əleyküm.

Bülbüllər qoy enməsin qönçə güllü budaqdan,
Əskilməsin ər olanın sevgilisi otaqdan.
Bellərini qucaqlayıb busə almaq yanaqdan,
Dalğın deyər, qismət olsun mərdə salam-əleyküm.

## ÜSTƏDİR

Aşıq qardaş, anlayıram, sözün divan üstədir,
İndi mənə bildir yerin hansı ünvan üstədir.
Biliyindən hali eylə səni qanan bəndəni,
Pişvazına arif gəlib, hamı rəvan üstədir.

Böhtan, şəri qənim etdi Harun ilə Qaruna,
Musa özü əhsən dedi xalqın namus-arına.
Ömrüm boyu minnətdaram Haqqın verən varına,
Mərhəmətli iş görənin taxtı heyvan üstədir.

Xilaf olmaz hər nə çıxsa mən Dalğının dilindən,
Əlli beş gün tamamında bülbül uçar gülündən.
Gecə-gündüz ah çəkirəm müxənnətin əlindən,
Şeytan kimi geşt eləyir, fikri şivən üstədir.

## ŞÜKÜR

Ya görünməz! Çox hökmün var, yaratdın, cahana şükür!
İnsanlığa qərar etdin, Adəmə, Həvvana şükür!
On dörd dünya qərar tutdu, nazil olan kitabda,
Məhəmmədə pay göndərdin, otuz cüz Qurana şükür!

Qabil öldürdü Habili, qan götürdü dünyanı,
Həzrət Əli  Düldül atın minib, gəzdi hər yanı.
Qəm dəryasında görüb, seçdilər müsəlmanı,
Hər gələn vasi tutduğu, İsmayıl qurbana şükür!

Dalğın deyər, mən heyranam, sən tutduğun divana,
Həqiqətdən yaratmısan, hazıram imtahana.
Layiq deyil coşqun təbim, belə haqsız dövrana,
Gərəkdir səbr eləyəm, budan da yamana, şükür!

# MÜXƏMMƏSLƏR

## BOĞAZ

Sən düşəndə bir şənliyə, hey qalırsan baxa-boğaz,
Gözləyirsən kabab-plovu, göz tikirsən çox, boğaz.
Mürəbbəli çay üstündən istəyirsən axa, boğaz,
Hər yetənə hökm edirsən, necə ki bir koxa, boğaz.

Ancaq sənə soyuq dəysə həkim durar əmrində,
Arvad-uşaq çaş-baş olar, süfrə qurar əmrində.
Zümzüməli çolpa-xoruz boyun burar əmrində,
Olmaz səndəki hərəkət qoşa daşlı dəyirmanda,
Heç bilmir hara getsin sən gələndə səka, boğaz.

Hər gündəlik istəyirsən ruzun olsun şirin yağlı,
Səhər-səhər qayğanağın, yaxında süzülmüş balı.
Olsa lap əla olardı, axşama plovu çolpalı,
Başa dəsmal sarıyarsan, o süfrə olsa dovğalı,
İnsaf edib hrş baxmarsan nə vara, nə yoxa, boğaz.

## GƏLİN

Söyləməyə dilim tutmur, gəlin, yoxsa günahkarsan,
Səndən bir az küsmüşəm mən, ağlın olsa barışarsan.
Ürəkdə olan dərdini mənə bir-bir danışarsan,
Məndə olan sirri bilib dərdə dərman yaradarsan,
Gəl qataq canı cana, olma elə zalım, gəlin.

Cənnətdəki hürü kimi bəsləyərəm eldə səni,
Əgər burda incisən, gəzdirərəm eldə səni,
Götürərəm qucağıma, sağda sazı, solda səni,
Ta girincə zal otağa, düşürmərəm yolda səni,
Xərclənməsin başqasına, qazandığım pulum, gəlin.

Gəl görüşü gödək elə, əvvəl-axır alasıyam,
Səni çolpa hesab edib qırğı kimi çalasıyam,
İstəyirsən ölkəndən çıx, gəzib səni tapasıyam,
Adımı bil Cahangirdi, İlisulu balasıyam,
Yenə sənə yalvarıram, sənə qurban olum, gəlin.

## KİMİ

Ay ariflər, bəri baxın, qızıl Şərqin danı kimi,
Hamı təşrif buyurubdur dərdlərin loğmanı kimi.
Göz görənə şeir deyir O Haqqın fərmanı kimi,
Bu dünyada ola bilməz elimin dövranı kimi.

Azadlığın qüdrətindən, Ay Dalğın, bax, çöl bəzənib,
Xeyir işin səfasından oba, gimgə, yol bəzənib,
Alın açıq, üzü açıq qız-gəlinlər al bəzənib,
Əl açırlar oynamağa asiman tərlanı kimi.

## KÖTÜK

Kimə edim şikayəti, de səndən, qoz qara kötük?
Rast olmayıb bu günədək sən təki daş-para kötük.
Deyəcəyəm əhvalını hər yetən dülgərə, kötük,
Çox zəhmətlə səni saldım bir babət oxşara, kötük,
Eləmirəm heç bir tamah səndəki nəmərə, kötük.

Üç nəfərin gücü ilə dəzgaha qoyduq cəsədin,
Ölçüb-biçib gördük ki, yaxşıdır keyfiyyətin.
Belə hesab etmişdik ki, pis olmaya dəyərin,
Elə bildim olar sonu ilk etdiyim zarafatın,
Sənlə mən əlləşdikcə dilləndin aşkara, kötük.

Üz-gözümü tər bürüdü, əllərim də oldu qabar,
Od tökürdü cəsədindən bir çaxmağa dönüb mişar.
Sən bu şair Dalğına cəllad olub vurdun neştər,
Hansı usta adın çəkib gəlsə əgər yolun çaşar,
Əhvalatın gərək deyim gedib bir cindara, kötük.

## MƏNİM

Doğru yola nail oldum, dolaşmaz ayağım mənim,
Yalan desən açılmasın işıqlı sabahım mənim.
Bəsdir daha bu günədək Kərəmtək yanmğım mənim,
Uzaqlaşdı birdən-birə çeşməli yaylağım mənim,
Doğma yurdum İlisudur, Varxiyan oylağım mənim.

O bir ildir Varxiyanda yemişəm duz, nan, deyirəm,
Hər qocaya, hər cavana "ey möhtərəm can" deyirəm,
Təqsirim varsa danmıram, olanı bəyan deyirəm,
Hal-hazırda mən kiməmsə sizə bir elan deyirəm,
Bu işə baxsın aqillər, varmı heç günahım mənim.

Doğru yoldan çıxmamağa nəyə desəç and içərəm,
Mərd yolunda qurban ollam, şirin canımdan keçərəm.
Bu kənddə artığamsa, ayrı bir kəndə köçərəm,
Adınıza dastan deyib hər yandan meydan açaram,
Razıyam bu ölkəyə qoy düşsün sorağım mənim.

Dediyimə sən qulaq as, çoxu bir nəzər salmadı,
Neçəsi mənə hücum etdi, canıma xəbər olmadı.
Dəfələrlə düşdüm dara, başım xəyala dalmadı,
Bu dünya elə dünyadır, Rüstəm-Zala da qalmadı,
Varxiyanda neçə mərd var, onlardır pənahım mənim.

Şair Cahangirin sözü yadigara elə qalar,
Coşan bülbülü bəsləmək tez açılan ilə qalar.
Qazancımdam gözün varsa, arzum bitməz hala qalar,
Məndən ötrü çənə yordun, o zəhmətin dilə qalar,
Gələcəyimi mən bilirəm, əbəsdir coşmağım mənim.

## SAMOVAR

Xoş gəlibsən bu məclisə, çəkmişəm nazın, samovar,
Məclisin sağı-soluna, bəy, yetir gözün, samovar.
Mehmanlara xidmət edən xoşdur hər sözün, samovar,
Qız-gəlinlər qulluq edib silirlər tozun, samovar,
Süfrələrin soltanısan, ay ömrü uzun samovar.

Hakimlərin, xanın, bəyin xoş olub sənlə göstarı,
Hər evin xoş bəzəyisən dünya qurulandan bəri.
İran, ərəb, türk, Hindistan sənsiz etməz bir naharı,
Səni içən xəstələrin çıxar canından azarı,
Alan səni salmır dildən, vüqarla gəzin, samovar.

Qaynayanda buxar verən paravoza bənzəyirsən,
Başına çaynik qoyanda Şah Abbasa bənzəyirsən,
Çəkiləndə yumşaq dəsmal bahar, yaza bənzəyirsən,
Cəm olanda dəm-dəstgahın çatan qıza bənzəyirsən,
Bərəkallah, xidmətçin var, çox ağdır üzün, samovar.

Ay samovar, qonaqlara səxavətin bol olubdur,
Səninlə çox fəxr eləyən mürəbbəynən bal olubdur.
Limon, qaysı, xurma, kişmiş, darçın xoş yağ-bal
olubdur,
Gör necə bəxtəvərsən, final sənə qul olubdur,
Bir biləydim bu dünyada qalıbmı arzun, samovar?

Abad olmuş o Lənkəran, sənin qolun-qanadındır,
Bakı, Şirvan, Gəncə, Şəki sənin çox xoş taleyindir.
Çirkinlərə qismət olma, bu da mənim diləyimdir,
Dalğın söyləyər vəsfini, bu, sənin öz əməlindir,
İçərdim pürr rəng çayını, olsaydı izin, samovar.

# MÜXTƏLİF YARIMÇIQ ŞEİRLƏR

## BOYLANA-BOYLANA

Canan bağça qapısını
Açdı boylana-boylana.
Ovçu görmüş maral kimi
Qaçdı boylana-boylana.

Gah dayanıb, gah oturdu,
Gahdan bir köksün ötürdü.
Fincan dolu su götürdü,
İçdi boylana-boylana.

Hərdən baxır xanasına,
Dönüb ceyran balasına.
Qızılgüllər arasına
Keçdi boylana-boylana.

## BEYNİNƏ

Səndən şair olmaz, girmə meydana,
Uşaq olma, yığ ağlını beyninə.
Ustad sözün gəl bağlama adına,
Uşaq olma, yığ ağlını beyninə.

Mən arifəm sənin təki nadana,
Şirin söz hayıfdır səntək nadana.
Bu canım qurbandır xoş söz qanana,
Uşaq olma, yığ ağlını beyninə.

## ŞİRİN OLAR

Alçalmaq asandır, ucalmaq çətin,
Gərəkdir həyatda olasan mətin.
El verən ruzunu kəsəməsə kütün
Verdiyin çörəkdə duz şirin olar.

Dalğınam, gəzmişəm çox diyarları,
Görmədim dünyada bir etibarı.
Səsləyə biləydim o nazlı yarı,
İşarə eləyən göz şirin olar.

## TUT

Məhəbbət həyatı nizama çəkər,
Eşqin şövqü ömür boyu gül əkər.
Dediyin qız səni sevirsə əgər
Utanma, get, onun biləyindən tut.

Mən ona demişdim “sevgilim, inan,
Murada çatardıq, sürərdik dövran”.
Bu sözümə inanmadı heç zaman
Dedim: “Onda get öz ürəyindən tut”.

## NEYLƏYİM?

Sərvəti qurtarmaz bu dəryaların,
Atan torun çıxdı boşa, neyləyim?
Xəzri əsdi, yelkənimi qopardı,
Gəmim dəydi daşdan-daşa, neyləyim?

Zaman dinmədi, çalındı sazım,
Şeytanı çalışdı yolumu azım.
Yazdığımı deyin cırım, ya pozum,
Fələk çaldı qələm qaşa, neyləyim?

## BİLMƏZ

Koroğlu nəslinə çəkmə özünü,
Koroğlu kimi mərd yarana bilməz.
Dağıstan bayquşu qayadan uçub
Göz açıb baxmağa arana bilməz.

Yüz tülkü də olsa, bir aslan qaçmaz,
Hər quşun qanadı olmasa uçmaz.
Qeyrətsiz bəndənin qəlbi qocalmaz,
Qəflət yuxusundan oyana bilməz.

## FINDIĞIN

Atalara rəhmət deyək, ay ellər,
Sonra pis olsa da dalı fındığın.
Topun gülləsindən betər tərpədir,
Xalqı hər il qalmaqalı fındığın.

Normaya qol çəkən ayılır gecdən,
Çünki komissiya düzəlib bicdən.
Kilodan yazmayıb, yazıblar üçdən,
Bilirlər ki, var zavalı fındığın.

İstəyən kəslərə edirlər bağış,
Burda rol oynayır aqronom, təftiş.
Beşi alqış deyir, əllisi qarğış,
Dəyməmiş töküldü kalı fındığın.

Kim ki gəzdi el-obada avara,
Bir əlində bazbənd, birində tara.
Fındığı toplayıb vurdu anbara,
Bizə qaldı boş puçalı fındığın.

## ALÇAQLANMASIN

Qurban olum qədir bilən insana,
Ucalsın, heç vədə alçaqlanmasın.
Yoluynan düz getsin, addasın yavaş,
Gəlib bədnəzərə, pozuqlanmasın.

Şan-şöhrət qazansın, sönməsin hələ,
Uymasın fitnəyə, yamana, felə.
Heç düşməsin, özgə qurarsa tələ,
Hayıfdır, əməli köhnələnməsin.

## YEYİB-İÇDİYİN

Sataşma, verərəm soyuq çay töküb,
Mızıldama, əlif qəddini büküb.
Otur kötük kimi, indi diz çöküb
Dönsün zəhərinə yeyib-içdiyin.

Arifəm, bilirəm həriflər kimdir,
Hər yetən gədalar bilərmi qədir?
Toxda dur yerində, gəl eylə səbir,
Çox yandırıb məni deyib-keçdiyin.

## OLMASA

İşindən səfa görməzsən, əgər tədbir olmasa,
El içində gülüncsən bil, həya, abır olmasa.
Var vermək təbiət işidir, borcumuzdur çalışmaq,
Bağban bağdan bar götürməz, yanı cəbir olmasa.

Əli namərd, özü namərd, özgə qazanc ortağı,
İnsan özü həyat boyu gərək etsin sınağı.
İnanmıram namərdlərin olmaz qalib bayrağı,
Dalğın heç aynayıb artmaz, elnən əlbir olmasa.

## KİTABIN İÇİNDƏKİLƏR

Eldən gələn el sənətkarı haqqında
bir neçə söz (Zümrüd Mənsimova) ............................... 3

## GƏRAYLILAR

Ağlar ........................................................................15
Ağrın alım ..................................................................16
Bəxtim .......................................................................17
Bənzər .......................................................................18
Bir də gəldim, ya gəlmədim ..........................................19
Bu dünyada ................................................................20
Bu dünyada ................................................................21
Ceyran........................................................................22
Çəkir ..........................................................................23
Çox çətindir ...............................................................24
Dağlar.........................................................................25
Dağlar.........................................................................26
Dayanmaz ..................................................................27
Deyib ..........................................................................28
Dünya.........................................................................29
Gözlə..........................................................................30
Günüm .......................................................................31
Hanı? .........................................................................32
İncimərəm .................................................................33

İnsanıyam ........................................................................34
Qürbətdə ........................................................................35
Maşallah........................................................................36
Mən gəlincə ........................................................................37
Məni........................................................................38
Mənim........................................................................39
Milimdədir ........................................................................40
Olanda........................................................................41
Olanda........................................................................42
Olar ........................................................................44
Olan oldu ........................................................................45
Olubsan ........................................................................46
Sənin........................................................................47
Sənindi........................................................................48
Siləndədir........................................................................49
Bağlasan da ........................................................................50
Yanıma........................................................................51
Ya gələrəm, ya gəlmərəm ........................................................................52
Vətən ........................................................................53
Yazır........................................................................54
Yerdə........................................................................55
Yoxdur ........................................................................56
Yollarda........................................................................57

## QOŞMALAR

Ay ala gözlüm ........ 61
Ay ellər ........ 62
Ay usta ........ 63
Ay üzlüm mənim ........ 64
Ağlama ........ 65
Ağlar ........ 66
Ağlasın ........ 67
Azadlıqdır ........ 68
Aralı ........ 69
Arasında ........ 70
Ana yurdumun ........ 71
Ay gəlin ........ 72
Aləmi ........ 73
Baxıram ........ 74
Barışmır ........ 75
Bahar ........ 76
Bahar ........ 77
Bənzəyir ........ 78
Bir-bir ........ 79
Bir-bir ........ 80
Bir axşam çağı ........ 81
Bir də bax ........ 82
Biri pul ........ 83

Bizi ....................................................................................84
Bildinmi? ..........................................................................85
Biləydim...........................................................................86
Biləcəkdir .........................................................................87
Bilməzsən..........................................................................88
Bixəbər .............................................................................89
Bu yerdə ...........................................................................90
Buyur gəl ..........................................................................91
Bülbül................................................................................92
Bizim arvad .......................................................................93
Bilmirəm............................................................................94
Cavan bəxtim ....................................................................95
Ceyran................................................................................96
Çıxarsan .............................................................................97
Çöllərə ...............................................................................98
Dağlar.................................................................................99
Danış ...............................................................................100
Dedi..................................................................................102
Demək..............................................................................103
Deməsəydin ....................................................................104
Deməmişəmmi?..............................................................105
Deyir................................................................................106
Deyirlər ...........................................................................107
Şair Sevdalıyla Cahangir Dalğının deyişməsi......................... 108
Dərdimi ...........................................................................110

Dərdidir ........................................................................ 111
Dəyməz ........................................................................ 112
Dolandırır ........................................................................ 113
Dönməsin ........................................................................ 114
Döndərdin ........................................................................ 115
Dünya ........................................................................ 116
Düşərsən ........................................................................ 117
Düşübdür ........................................................................ 118
Düşübdür ........................................................................ 119
Dostlar ........................................................................ 120
Dişimi ........................................................................ 121
Ehtiyac ........................................................................ 122
Etibarsız ........................................................................ 123
Eləməzmi? ........................................................................ 124
Ey dost ........................................................................ 125
Eyləyir ........................................................................ 126
Əlindən ........................................................................ 127
Əfsanədir ........................................................................ 128
Əzablı ........................................................................ 129
Əziz ........................................................................ 130
Gedirsən ........................................................................ 131
Getdilər ........................................................................ 132
Gəl ........................................................................ 133
Gəl-gəl ........................................................................ 134
Gəlginən ........................................................................ 135

Gəlirəm....................................................................136
Gəzəsən....................................................................137
Gəzirəm....................................................................138
Gəzirəm....................................................................139
Göndərsin....................................................................140
Görmüşəm....................................................................141
Görmüşəm....................................................................143
Görmüşəm....................................................................144
Gözəlin....................................................................145
Gözlərin....................................................................146
Gövhərim....................................................................147
Gülərmiş....................................................................148
Gediblər....................................................................149
Görüşüm....................................................................150
Hanı?....................................................................151
Hayıfsan....................................................................153
Xoş gəldin....................................................................154
Xala qızı....................................................................155
İçim, içməyim?....................................................................156
İçində....................................................................157
İlisu....................................................................158
İncimə....................................................................159
İnciməsin....................................................................160
İndi....................................................................161
Kələkbaz....................................................................162

Könül....163
Kimi....164
Gərək....165
Qabağında....166
Qadın deyilmi?....167
Qaldı....170
Qalacaq....171
Qızım....172
Qızlar....173
Qocalmazdım....174
Qürrələnməsin....175
Qürbətin....176
Mehribanım....177
Məndə....178
Məndə....179
Mənəm....180
Mənəm....181
Mənə sən....182
Məni....183
Misilli....184
Nə dedin?....185
Nədəndir?....186
Nə yaraşığı?....187
Nə mənası var?!....188
Nəysə....189

Neyləyim? .......... 190
Olarmı? .......... 191
Olaydı .......... 192
Olsaydı .......... 193
Olmaz .......... 194
Olmaz .......... 195
Olsun .......... 196
Olsun .......... 197
O yanda dur .......... 198
Olardımı? .......... 199
Özün de .......... 200
Öz yeri .......... 201
Puldur .......... 202
Sabah-sabah .......... 203
Sallam .......... 204
Sal məni .......... 205
Sanacaq .......... 206
Səndə görmüşəm .......... 207
Sən nəsən? .......... 208
Sənsən .......... 209
Sizinki necə? .......... 210
Şair .......... 212
Şərab .......... 213
Uduzdum .......... 214
Utanacaqdır .......... 215

Varxiyan........................................................................217
Var.................................................................................218
Var mənim.......................................................................219
Vədəsində.......................................................................220
Vədəsində.......................................................................221
Vətənimdən.....................................................................222
Yaxşıdır..........................................................................223
Yaxşıdır..........................................................................224
Yana................................................................................225
Yatıbdır...........................................................................226
Yarpağın..........................................................................228
Yatıbdır...........................................................................229
Yatır................................................................................230
Yatır................................................................................231
Yatıram...........................................................................232
Ya yox?...........................................................................233
Yazsam, yazaram.............................................................234
Yetirin.............................................................................236
Yetirin.............................................................................238
Yox..................................................................................239
Varmı?.............................................................................240
Görəndə..........................................................................241
Edincə.............................................................................242
Fəlsəfə............................................................................243
Kaş..................................................................................244

## TƏCNİSLƏR

Aya bax ........ 247
Ata-at ........ 248
Bağlar ........ 249
Bax ........ 250
Dalbadal ........ 251
Duvannı ........ 252
Qara bağlar ........ 252
Gözələ ........ 253
Nə dana ........ 254
Tərsinə döndü ........ 255
Üzüm ........ 256
Yara yar ........ 257
Ha yandı ........ 258
Gəlincə ........ 259
Nə qara bağlar ........ 261
Of-of ........ 262
Üzəndə ........ 263
Sən də al ........ 264

## QƏZƏLLƏR

Bənzədim ........ 267
Bu gün ........ 268

Eşqinə .......... 269
Gözəl .......... 270
Gözlə gör .......... 271
Məni .......... 272
Olmuşam .......... 273

## DİVANİLƏR

Ayrılmasın .......... 277
Bax .......... 278
Bir saat .......... 279
Can-can əziz .......... 280
Danış .......... 281
Eşqinə .......... 282
Əldən gedər .......... 283
Fələk .......... 284
Geri dur .......... 285
Gözlə sən .......... 286
Gözlə sən .......... 287
Xuda .......... 288
Mən .......... 289
Mənəm .......... 290
Mənəm .......... 291
Mənim .......... 292
Olarsan .......... 293

Salam-əleyküm ........ 294
Üstədir ........ 295
Şükür ........ 296

## MÜXƏMMƏSLƏR

Boğaz ........ 299
Gəlin ........ 300
Kimi ........ 301
Kötük ........ 302
Mənim ........ 303
Samovar ........ 305

## MÜXTƏLİF YARIMÇIQ ŞEİRLƏR

Boylana-boylana ........ 309
Beyninə ........ 310
Şirin olar ........ 310
Tut ........ 311
Neyləyim? ........ 311
Bilməz ........ 312
Fındığın ........ 313
Alçaqlanmasın ........ 314
Yeyib-içdiyin ........ 314
Olmasa ........ 315

Kompüter tərtibçisi: *Rəna Seyid-Rzayeva*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı: 60x84 $^{1}/_{16}$
Həcmi: 20,5 ç.v.
Tirajı: 300